Azərbaycan Tərcümə Mərkəzi

# Aydın Yol

www.aydinyol.az

16 oktyabr 2015-ci il № 39 (48) * Həftəlik ədəbi-ictimai qəzet * Qiymətı 50 qəpik



Cavanşir Məmmədov

## Kamerası ilə tarixi sənədləşdirən ustad

səhifə 11



## Şıxəli Qurbanovun “Telefon zəngləri”

səhifə 12



## Ernest Heminqueyin oxucu ilə söhbəti

səhifə 23

# “Arşın mal alan” filminin 70 illiyi



# və ya Hollivudu geridə qoymaq barədə Stalinin göstərişi

səhifə 5



## Lüdviq Bethoven - ustadı özü olan ustad

səhifə 22

## Sara Bernar - dünyanın ilk ulduzu



səhifə 24

## ANONS

*Müstəqilliyimizə gedən yol* — səhifə 4

*Adam eyni çaya neçə dəfə girə bilər?* — səhifə 6

*Su və torpaq - həyatın qoşa sütunu* — səhifə 7

*Azərbaycan dövlətçiliyində Gəncənin tarixi rolu* — səhifə 8

*Qori müəllimlər seminariyasında* — səhifə 13

*Hərbiyyə nazirinin qardaşı* — səhifə 15

*Nadir şahın Rum padşahı Sultan Mahmud xana məktubu* — səhifə 16

*Erməni işğalında olan Azərbaycan rəqsləri* — səhifə 17

*Sara Selcanın yeni şeirləri* — səhifə 18

*Marçello Venturinin “Heç zaman unutmayacağımız yay”ı* — səhifə 19

*İlk zooparkın əsasını kim qoyub?* — səhifə 20

*Alber Kamyunun təlimi* — səhifə 23



# İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Qazaxıstana işgüzar səfərə gedib

**Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Qazaxıstan Respublikasının Akmola vilayətinin Burabay qəsəbəsində keçiriləcək iclasında iştirak etmək üçün oktyabrın 15-də bu ölkəyə işgüzar səfərə gedib.**

Azərbaycanın və Qazaxıstanın dövlət bayraqlarının dalğalandığı Kokşetau şəhərinin hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısını yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.

# Oxucuların nəzərinə




**Tərcümə Mərkəzinin nəşr etdiyi (Xuan Rulfo – "Pedro Paramo", Matilda Urrutia – "Pablo Nerudayla yaşanan ömür", "Latın Amerikası romanı", "Xilas yolunun yolçuları", "Bəşəri poeziya", Ernest Heminquey – "Qadınsız kişilər", Akutaqava Rünoske – "Tanrıların istehzası", Jasmina Mixayloviç – "Xəzər dənizinin sahillərində", "Serbcə-Azərbaycanca lüğət", "Sözün Aydını", Oljas Süleymenov – "Az-Ya", "Candles (101 verses)" (şeir antologiyası), "Çexovdan Markesə qədər", "Modianonun seçilmiş əsərləri", "Boliviya gündəliyi") kitabları şəhərin aşağıdakı kitab mağazalarından əldə edə bilərsiniz.**

- **Akadem. Kitab mağazası**
- **Kitab klubu mağazası**
- **Akademiya Kitab Mərkəzi**
- **Kitab.Az mağazası**
- **(28 may metrosu ətrafındakı kitab mağazaları)**

Qəzet Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Şəhadətnamə nömrəsi: 3899
Təsisçi: Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi
Baş redaktor: Yaşar Əliyev
İcraçı direktor: Bəhlul Seyfəddinoğlu
Redaksiya heyəti: Nəriman Əbdülrəhmanlı, Feyziyyə, Narıngül Əliyeva, Rəbiqə Nazimqızı
Qəzet 2014-cü ilin 24 oktyabrından çıxır.
"Azərbaycan" nəşriyyatında çap olunub. Tiraj: 1250. Sifariş: 3294
Ünvan: Bakı, Topçubaşov küçəsi 74. Telefon: 595 16 05.
E-mail: aydinyol.az@gmail.com

# Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ABŞ-ın ölkəmizdəki səfiri ilə görüşüb

**Oktyabrın 15-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Robert Sekuta ilə görüşüb.**

Qonaqları Heydər Əliyev Fondunda salamlayan Mehriban Əliyeva Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında ikitərəfli əlaqələrdən danışıb. Azərbaycanın birinci xanımı ölkəmiz müstəqilliyini bərpa edəndən sonra Amerika Birləşmiş Ştatları ilə bir çox sahələrdə, o cümlədən siyasi və iqtisadi sahələrdə uğurlu əməkdaşlıq etdiyini bildirib. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrdə neft-qaz sektorundakı əməkdaşlığı xüsusi qeyd edib.

Görüşdə ölkəmizdə regionun ən iri layihələrinin reallaşdırıldığı diqqətə çatdırılıb.



Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin yeni missiya rəhbəri Mikaela Meredisin də iştirak etdiyi görüşdə bu layihələrin həm region, həm Avropa üçün əhəmiyyəti vurğulanıb.

# Heydər Əliyev Mərkəzində "Bakı, mən səni sevirəm" kinolayihəsinin təqdimatı keçiriləcək

**Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən "Bakı, mən səni sevirəm" kinolayihəsinin oktyabrın 23, 24 və 25-də təqdimatı keçiriləcək.**

Layihənin prodüserləri Yeqor Mixalkov-Konçalovski və Nadir Maçanovdur. Ekran əsəri "Mosfilm" kinokonsernində istehsal olunub. Heydər Əliyev Mərkəzində təşkil olunacaq təqdimat mərasiminin ilk günündə filmin yaradıcı heyəti iştirak edəcək.

"Bakı, mən səni sevirəm" layihəsi 10 novella əsasında ekranlaşdırılmış qısametrajlı filmlərdən ("Aziya","Görüş", "Rəssam", "Həyət", "Bəhram Gur", "Xəzər Atlantidası", "Lotereya bileti", "Sevgi haqqında", "Aysel", "Hadisə") ibarətdir.

Filmlərin rejissorları Yeqor Mixalkov-Konçalovski, Nadir Maçanov, Aleksey Qolubev, Andrey Razenkov (Rusiya), Aleksander Fodor (Böyük Britaniya), Andre Badalo (İspaniya), Nərgiz Bağırzadə, İlqar Safat, Samir Kərimoğlu və Yavər Rzayevdir (Azərbaycan). Novellaların ssenari müəllifləri isə Nadir Maçanov, Yavər Rzayev, İlqar Safat, Samir Kərimoğlu, Nərgiz Bağırzadə və Aleksandr Novotoskidir.

Filmin hazırlıq prosesinə 2011-ci ilin noyabrında start verilib. Çəkiliş prosesi isə 2012-ci il martın 12-dən başlayıb. Çəkilişlər 2 sessiyadan ibarət olub. Mart-aprel və iyun-iyul aylarını əhatə edən yaz, yay sessiyalarının hər birində 5 film çəkilib. Kinoalmanaxın çəkiliş heyəti 138 nəfərdən ibarət olub. Kütləvi səhnələr də nəzərə alınmaqla "Bakı, mən səni sevirəm" layihəsində 150-dən artıq aktyor və aktrisa rol alıb.




Ekran əsərində Azərbaycanın xalq artistləri Rasim Balayev, Məbud Məhərrəmov, Laləzar Mustafayeva, əməkdar artistlər Şamil Süleymanlı, Bəhram Bağırzadə, Ayşad Məmmədov, Sənubər İsgəndərli və digər sənətkarlarla yanaşı, İtaliya, Böyük Britaniya, Türkiyə, Rusiya, Belarus, Litva və Özbəkistandan dəvət olunmuş aktyor və aktrisalar da çəkiliblər. Onların arasında Alessandro Bertoluççi, Aziya Arcento, Nadirə Myurrey, Aqniya Ditkovskite, Vadim Tsallati, Vyaçeslav Razbeqayev və Tatyana Rujavskaya kimi tanınmış simalar var.

Layihədəki hər bir ekran əsəri Bakının həyatından müxtəlif anları özündə əks etdirir. Qısametrajlı filmlər insanlar arasında münasibətləri, onların sevgi və həsrətlərini, şad və qəmli anlarını canlandırır. Bu insanları, münasibətləri, həyatın müxtəlif anlarını birləşdirən baş qəhrəman isə Bakı şəhəridir. Film həm də aktyor və rejissorların nəzərində Bakıya bir sevgi etirafıdır.

Qeyd edək ki, indiyə qədər dünyada "Paris, mən səni sevirəm", "Nyu-York, mən səni sevirəm", "Moskva, mən səni sevirəm" kimi analoji kinolayihələr həyata keçirilib.

# Yaponiya Azərbaycana "Sülh naminə Daş" xatirə simvolu hədiyyə edib

**Yaponiyanın "Sülh naminə Daş Hirosima Assosiasiyası" təşkilatı və Yaponiyanın "Kyodo News" informasiya agentliyi dünyada sülhün təbliği məqsədi ilə "Sülh naminə Daş" adlı xatirə simvolunu Azərbaycana hədiyyə edib.**

Mədəniyyət və Turizm Nazirliyindən Trend-ə verilən məlumata görə, sözügedən hədiyyənin oktyabrın 16-da təqdimat mərasimi keçiriləcək.

Mərasimdə dövlət və hökumət rəsmiləri, Yaponiyanın "Sülh naminə Daş Hirosima Assosiasiyası" təşkilatı və Yaponiyanın "Kyodo News" informasiya agentliyinin nümayəndə heyəti, habelə Bakı şəhərində akkreditə olunmuş diplomatik missiyaların rəhbərləri iştirak edəcəklər.

Azərbaycanla bərabər bir çox ölkələrə hədiyyə edilmiş daş üzərində təsvir edilən əbədi sülh arzulayaraq dua edən Kanon ilahəsi monolit yonulmuş relyefli baş şəklindədir. İlahənin obrazı 3/4 sağa doğru çevrilmiş, budda ikonoqrafiya incəsənəti ənənəsində, çiyininə tökülmüş şinyonla bəzədilmiş saçları üzərində yoqa duruşunda Buddanın təsviri yonulmuş, qulaqlarında dairəvi sırğalar, sinəsi 9 iri dairəvi muncuqlarla bəzədilmişdir.

"Sülh naminə Daş" adlı xatirə simvolunun Azərbaycan Milli İncəsənət Muzeyinin daimi ekspozisiyasına daxil edilməsi atom faciəsi qurbanlarına hörmət rəmzi olmaqla yanaşı, Azərbaycan-Yapon mədəni əlaqələrinin inkişafına yeni töhfədir.

Xatırladaq ki, 1945-ci ilin 6 avqustunda Yaponiyanın Xirosima şəhərinin səmasında atom bombası partlayıb, minlərlə dinc insan dəhşətli faciənin qurbanına çevriliblər. Faciədən 70 il ötməsinə baxmayaraq, onun yaratdığı fəsadları hələ də bir çox insanlar üzərlərində daşıyırlar. Xirosima qurbanlarının xatirəsi hər il Yaponiyada dərin hüznlə yad edilir.

# "Boy çiçəyi" pyesi Şuşa Teatrının təqdimatında



**Oktyabrın 13-də Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının səhnəsində Şuşa Dövlət Musiqili Dram Teatrının təqdimatında İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" və ya "Boy çiçəyi" pyesi əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası olub.**

AzərTAc xəbər verir ki, tamaşadan əvvəl müsahibə verən Xalq yazıçısı Elçin atasının bu pyesi 51 il əvvəl yazdığını söyləyib. Bildirib ki, pyes ilk dəfə 1964-cü ildə Akademik Milli Dram Teatrında səhnəyə qoyulub. Bu pyes o vaxtdan etibarən yalnız Azərbaycanın deyil, başqa ölkələrin teatrlarında da nümayiş olunub: "51 ilin təcrübəsi onu göstərir ki, bu əsər hər zaman aktualdır. Ona görə ki, sovet dövründə yazılsa da ideologiyaya deyil, ədəbiyyata xidmət edib. Azərbaycan xalqının qəlbinə yaxın olan mətləblərdən, sədaqətdən, mərdlikdən, mənəvi təmizlikdən bəhs edən bir pyesdir. Bunların hamısının böyük psixoloji əsası var. Ona görə də nəinki sənətşünaslar, teatrşünaslar, ümumiyyətlə, ictimai fikir bu pyesi Azərbaycanda psixoloji təmayüllü teatrın başlanğıcı hesab edib".

Elçin Əfəndiyev qeyd edib ki, istedadlı rejissorumuz Loğman Kərimov bu əsəri modern formada tamaşaya qoyub. "Məni sevindirən odur ki, pyesi bu dəfə Şuşa teatrı təqdim edir. Hazırda Şuşa düşmən istilasında olsa da, Şuşa teatrı fəaliyyət göstərir, yeni-yeni tamaşalar səhnələşdirir. İlyas Əfəndiyev son dərəcə Şuşa ilə, Qarabağla bağlı bir insan idi. Bilirsiniz ki, Qarabağda anadan olub. Şuşanın işğalı ona son dərəcə pis təsir etmişdi. İndi onun ruhu şaddır, ona görə ki, əsər Şuşa teatrında tamaşaya qoyulub".

Sonra tamaşa nümayiş olunub. Tamaşada rolları Əməkdar artist Azad Məmmədov, aktyorlar Nazir Rüstəmov, Püstəxanım Zeynalova və Zəhra Salayeva ifa ediblər.

Qeyd edək ki, ata qayğısından məhrum olan Nargilənin zavod direktoru Həsənzadəyə olan qarşılıqsız məhəbbətindən bəhs olunan tamaşada cərəyan edən hadisələr bu günümüzlə səsləşir. Modern üslubda təqdim olunan səhnə əsərində yaradıcı heyət müəllifin ideya və fikirlərinə heç bir xələl gətirmədən, yeni yozumda maraqlı və baxımlı bir tamaşanın hazırlanmasına müvəffəq olub.

# AzDrama-da daha bir yeni tamaşa



**Oktyabrın 25-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində Yevgeni Şvartsın "Kölgə" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunacaq.**

Teatrın mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, tamaşada rolları Xalq artistləri Laləzər Mustafayeva, Rafiq Əzimov, Əməkdar artistlər Aslan Şirin, Elşən Rüstəmov, Şəlalə Şahvələdqızı, Ayşad Məmmədov, Məsmə Aslanqızı, Kazım Abdullayev, aktyorlar Anar Heybətov, Rəşad Bəxtiyarov, Ramin Şixəliyev və başqaları ifa edəcəklər.

Tamaşanın quruluşçu rejissoru, Əməkdar Artist Nicat Kazımov, quruluşçu rəssamı isə Elşən Sərxanoğludur.

Qeyd edək ki, tamaşanın süjeti gənc alim Xristian Teodorun kiçik cənub ölkəsinə gəlişi ilə başlayır. Bu ölkə yalan, qəzəb, riyakarlıq, eqoizmlə doludur və bütün bunlar demək olar ki, bu yerin hər bir sakinində özünü göstərir.

# Musiqili Teatrda 4 günə 6 tamaşa



**Azərbaycan Dövlət Musiqili Teatrında bu həftə dörd gün ərzində 6 tamaşa nümayiş olunacaq.**

Teatrın mətbuat xidmətindən AzərTAc-a bildirilib ki, söhbət oktyabrın 15, 16, 17 və 18-də tamaşaçılara təqdim olunacaq "Ər və arvad", "Qızıl toy", "Düyməcik", "Mən dəyərəm min cavana", "Dəcəl çəpişlər" və "O olmasın, bu olsun" tamaşalarından gedir. Tamaşaçılar dörd gün ərzində nümayiş olunacaq bu səhnə əsərlərində sevimli aktyorlar – Xalq artistləri İlham Namiq Kamal, Fatma Mahmudova, Əməkdar artistlər Əzizağa Əzizov, Nahidə Orucova, Novruz Qartal, Ələkbər Əliyev, Nərgiz Kərimova, aktyorlar Ülviyyə Əliyeva, Şaban Cəfərov, Elməddin Dadaşov və başqalarının ifalarını izləyə biləcəklər.

Qeyd edək ki, Musiqili Teatr bu həftə də həm rusdilli, həm də balaca tamaşaçılarını unutmayıb. Belə ki, oktyabrın 17-də H.K. Andersenin "Düyməcik" əsəri rus dilli tamaşaçılar, 18-də isə O. Zülfüqarov və R. Heydərin "Dəcəl çəpişlər" əsəri uşaqlar üçün nümayiş olunacaq.

# AGDT-də "Mən səni sevirəm"in, ...



**Oktyabrın 21-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının (AGDT) səhnəsində tanınmış dramaturq Əli Əmirlinin eyniadlı pyesi əsasında səhnələşirilmiş "Mən səni sevirəm" tamaşasının premyerası olacaq.**

Teatrın mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, tamaşanın quruluşçu rejissoru, Xalq artisti Cənnət Səlimova, baş rəssamı isə Tahir Tahirovdur.

Tamaşada baş rolları Əməkdar artistlər Qəmər Məmmədova, Leyli Vəliyeva, aktyorlar Almaz Mustafayeva, Kəmalə Hüseynova, Mehriban Abdullayeva və başqaları ifa edəcəklər.

# Pantomimada isə "Ora-Bura"nın premyerası olacaq



**Oktyabrın 17-də Azərbaycan Dövlət Pantomima Teatrının səhnəsində teatrın aktyoru Bəhruz Əhmədlinin "Ora- Bura" əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası olacaq.**

Teatrın mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, səhnə əsərinin ideya müəllifi və quruluşçu rejissoru Bəhruz Əhmədlidir. Tamaşada rolları Əməkdar artist Elman Rəfiyev, aktyorlar Elnur İsmayılzadə, Əli Əlizadə, Nurlan Rüstəmov və Solmaz Bədəlova ifa edəcəklər.

Qeyd edək ki, tamaşanın mövzusu insan taleləri, münasibətləri və xatirələri haqqındadır. Səhnə əsərində hadisələr avtobus dayanacağında cərəyan edir. İki kişi və bir gənc qadın əllərində çamadan səbirsizliklə avtobus gözləyir. Avtobusun yubanması onların çamadanda özləri ilə götürdükləri keçmişlərinin, dünyagörüşlərinin açılmasına şərait yaradır.



# Koreyada "Kitabi-Dədə Qorqud" haqqında danışılıb

**Oktyabrın 15-də Koreya Respublikasının Tequ şəhərində "Orta Asiya və İpək yolunun folkloru, incəsənəti və musiqisi" mövzusunda beynəlxalq konfrans işə başlayıb.**

UNESCO, TÜRKSOY və Tequda yerləşən Keymunq Universiteti tərəfindən keçirilən beynəlxalq konfransda Türkiyə, Rusiya, İran, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Monqolustan alimləri 30-dan artıq məruzə ilə çıxış ediblər.

Azərbaycanlı alimlərdən Bakı Dövlət Universitetinin professoru Ramiz Əsgərin "Dədə Qorqud dastanı – türk dünyasının rəngli aynası" adlı məruzəsi iştirakçılar tərəfindən maraqla qarşılanıb. Məruzədə "Kitabi-Dədə Qorqud" dastanının quruluşu, tarixi, etnoqrafik özəllikləri, nəşri və tədqiqindən bəhs olunub.

**Şahin CƏFƏROV**

# Bakıda "ATV Qalereya" adlı sərgi salonu açıldı

**❍ "Azad Azərbaycan" televiziya kanalının inzibati binasında "ATV Qalereya" adlı sərgi salonu fəaliyyətə başlayıb. Bu günlərdə qalereyada ilk sərginin açılış mərasimi keçirilib.**



ATV-nin Bədii Şurasının sədri Etibar Babayev açılış mərasimində çıxış edərək ATV kanalı olaraq yeni mövsümdə yeni layihələrin həyata keçirilməsinin planlaşdırıldığını qeyd edib. Yeniliklərdən biri də məhz "ATV Qalereya" adlı sərgi salonunun fəaliyyətə başlamasıdır.

E.Babayev qalereyada açılan ilk sərgi barədə məlumat verərək bildirib ki, sərgidə Azərbaycan Rəssamlar İttifaqının üzvləri Mətanət və Etibar Aslanovların əsərlərindən ibarət sərgi nümayiş olunacaq. Fırça ustalarının rəsm əsərləri qrafika janrındadır.

# "Hədəf" və "Xan" nəşriyyatları Frankfurtda

**❍ Xəbər verdiyimiz kimi, oktyabrın 14-dən 18-dək Almaniyanın Frankfurt-Mayn şəhərində dünyanın ən nüfuzlu beynəlxalq kitab sərgi-satış yarmarkası keçirilir. Sərgidə bir sıra ölkələrlə yanaşı, Azərbaycandan da "Xan" və "Hədəf" nəşriyyatlarının məhsulları sərgilənəcək.**




"Xan" və "Hədəf" nəşriyyatlarının direktoru, yazıçı-publisist Şəmil Sadiq AzərTAc-a bildirilib ki, sərgidə nəşriyyatların çap məhsullarından ibarət 300 adda kitab, bukletlər, broşür, fotoalbom və CD disklər təqdim ediləcək. Təqdim olunan kitablar arasında Azərbaycan dilində dərc olunan kitablarla yanaşı, rus, ingilis dillərində nəşr olunan əsərlər də yer alıb.



# Müstəqilliyimizə gedən yol

**Azərbaycan xalqını 18 Oktyabra aparan yol nə qədər mürəkkəb idisə, bu müstəqilliyin qorunub möhkəmləndirilməsi bir o qədər məsul və şərəfli idi...**

**18 oktyabr Azərbaycanın yeni tarixində əlamətdar günlərdən biridir. 1991-ci il oktyabrın 18-də Azərbaycan özünün dövlət müstəqilliyini bərpa edib. Həmin gün respublika parlamenti – Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul edib. Azərbaycan Respublikasının dövlət müstəqilliyini elan etməsi Sovet İttifaqının çöküşü və "soyuq müharibə"nin sona çatması kimi qlobal geosiyasi proseslər fonunda baş verirdi. Nəhəng imperiyanın iflası müttəfiq respublikaların hamısı üçün müstəqil dövlətçiliyin yolunu açmışdı.**

Bununla belə, Azərbaycan üçün müstəqilliyə qovuşmaq göydəndüşmə olay deyildi. Azərbaycan xalqı illər uzunu istiqlal ideyasını özündə yaşatmışdı. 1918-1920-ci illərdəki Xalq Cümhuriyyəti bu ideyanın gerçəkləşdiyi qısa, amma tarixi əhəmiyyətli zaman kəsiyi idi.

71 illik sovet rejimi də Azərbaycan xalqının müstəqillik arzularını tamamilə tükəndirə bilməmişdi. Odur ki, XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə sahib olmaq hissləri digər müttəfiq respublikalara nisbətən daha impulsiv və bariz şəkildə özünü göstərirdi.

Bu gün Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin növbəti ildönümünü qeyd edərkən bu tarixi hadisəni zəruri edən tarixi xronikaya nəzər salmaq vacibdir.

***

Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi faktiki olaraq 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Qanlı Yanvar hadisələrindən sonra xalqı ilə bir olmaq, onun azadlıq və suverenlik arzularının gerçəkləşməsində iştirak etmək istəyən Heydər Əliyev Moskvadan Azərbaycana qayıtmışdı. O, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilmişdi.

Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi.

Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Azərbaycanın dövlət müstəqilliyi yolunda konstitusion müstəvidə ilk taleyüklü sınağı 1991-ci il martın 17-də keçirilən və SSRİ-nin saxlanmasına münasibəti öyrənən referendum ola bilərdi. Lakin Ayaz Mütəllibov komandası Azərbaycanın müstəqil dövlətçilik barədə düşünmədiyini və imperiya (guya onun yeniləşmiş variantında) boyunduruğunda yaşamaq istədiyini sübutlamaq yolunu tutmuşdu.

Heydər Əliyev imperiyanın qorunub saxlanmasına çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına və sovet dövlətinə etirazını bildirdi. 1991-ci il iyulun 19-da Kommunist Partiyası sıralarını tərk edən Heydər Əliyev Azərbaycanın rəhbərliyini xalqın haqlı tələblərini qulaqardına vurmamağa, Kommunist Partiyasının totalitar idarəçiliyinə son qoymağa çağırdı.

Lakin respublikanın rəhbərliyi nəinki bu çağırışları eşitmədi, üstəlik 1991-ci ilin 19-21 avqust hadisələrində tamamilə səbatsız mövqe tutdu, irticaçı "QKÇP" qiyamını dəstəklədi. "QKÇP"nin iflasından sonra əksər müttəfiq respublikalar dövlət müstəqilliyini rəsmən bəyan edərək müvafiq konstitusion aktlar qəbul etdilər. Dünya birliyi SSRİ-nin yerində meydana gələn yeni müstəqil dövlətləri sırasına qatmağa başlamışdı. Azərbaycanın o vaxtkı rəhbərliyi siyasi astagəlliyinə sadiq idi.

Əvəzində Azərbaycan xalqı imperiyanın bərpası cəhdlərinə qəti etirazını nümayiş etdirdi. Azərbaycanın hər yerində irticaya tərəfdar olan qüvvələrə qarşı mitinqlər başlandı. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Mütəllibov iqtidarı xalqın əzmi qarşısında geri çəkilməli oldu.

Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi.

Bəyanatda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin BMT-nin nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarda təsbit edilmiş prinsiplərə müvafiq surətdə tanınması üçün dünya dövlətlərinə çağırış da yer almışdı.

Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar qəbul edildi. Lakin respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi. Bu müddət ərzində SSRİ-nin əksər müttəfiq respublikaları, o cümlədən qonşu Ermənistan və Gürcüstan, Moldova, Qırğızıstan, Özbəkistan, Tacikistan dövlət müstəqilliyi haqqında Konstitusiya aktı və ya qanun qəbul etdilər.

Ali Sovetin sessiyasında Azərbaycanın Milli Ordusunun yaradılması məsələsi gündəmə gəlsə də, respublika rəhbərliyi buna qarşı çıxdı və Ali Sovet "Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərarla kifayətləndi. Qərarın icrası isə kağız üzərində qaldı. Ermənistanın Azərbaycana qarşı təcavüzü və Dağlıq Qarabağdakı separatçılıq hərəkatı isə genişlənirdi.

Sentyabrın 1-də separatçılar Dağlıq Qarabağ Muxtar Vilayətinin səlahiyyətini itirmiş Xalq Deputatları Soveti adından qondarma "Dağlıq Qarabağ Erməni Respublikası"nın yaradılması barədə "qərar" qəbul etdilər. Separatçıların bu qərarı elan edilən gün "Azadlıq" meydanında AXC mitinqlərinin gurhaguru idi. Cəbhə Mütəllibovu hakimiyyətdən salmaq üçün ümumrespublika tətili elan etmişdi.

Hakimiyyət uğrunda mübarizə gedirdi. Qarabağ məsələsi bu mübarizənin tozanağında faktiki görünməz olmuşdu.

Yalnız sentyabrın 3-də Ali Sovetin Rəyasət Heyəti separatçıların Azərbaycan Konsititusiyasına zidd hərəkətinə münasibət bildirdi. Lakin qərarda Dağlıq Qarabağda baş verənlərə alayarımçıq qiymət verilir, təsirli tədbirlər əvəzinə vilayətin erməni icması ilə dialoqu gücləndirmək, haqlı etiraz çıxışını genişləndirən xalqa isə... "dözümlü və təmkinli olmaq" tövsiyə edilirdi.

Lakin hətta bütün bunlardan sonra da Mütəllibov komandası Azərbaycanı SSRİ tərkibində saxlamaq, mərkəzdə - Moskvada fəaliyyətinə xitam verilmiş Kommunist Partiyasını yaşatmaq siyasəti yeridirdi.

Yalnız sentyabrın 14-də artıq tam iflasa uğramış Azərbaycan Kommunist Partiyası 33-cü fövqəladə qurultayını çağıraraq özünün buraxıldığını bəyan etdi.

Ali Sovetin oktyabrın 8-də işə başlanan növbədənkənar sessiyanın gündəliyinə dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulu məsələsi salınsa da, dördgünlük müzakirələr nəticəsində parlament bu məsələni bir həftə sonraya saxladı.

Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Səsvermədə Ali Sovetin 360 deputatından 258-si iştirak etmişdi. Adbaad səsvermədə "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul olundu.

Konstitusiya Aktının preambulasında 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycanın Rusiya tərəfindən ilhaq edildiyi, 70 il ərzində sovet rejimi tərəfindən Azərbaycan Respublikasına qarşı müstəmləkəçilik siyasətinin yeridildiyi vurğulanırdı. Konstitusiya Aktının Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə əsaslandığı qeyd edilirdi.

6 fəsil, 32 maddədən ibarət Konstitusiya Aktı ümumilikdə sanballı sənəd olsa da, bir sıra nöqsanlardan xali deyildi. Xüsusilə 1-3-cü maddələrdə hüquqi-siyasi nöqteyi-nəzərdən o qədər də mükəmməl olmayan, sonralar beynəlxalq müstəvidə ermənilərin çeşidli spekulyasiyalarına rəvac verən təsnifat yer almışdı.

Həmin maddələrə əsasən, Azərbaycan Respublikası 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin varisi hesab olunurdu. Azərbaycan SSR haqqında isə heç nə deyilmir, Azərbaycanın 71 illik tarixi hüquqi müstəvidə təsbit olunmurdu.

Qeyd edək ki, ermənilər Dağlıq Qarabağın Azərbaycana mənsubluğunu şübhə altına qoymaq üçün məhz bu məqamdan özlərinə uyğun şəkildə bəhrələnərək davamlı olaraq möhtəkirlik edirlər. Çünki Dağlıq Qarabağı Azərbaycanın muxtar inzibati ərazisi kimi birmənalı təsbit edən və beynəlxalq hüquq baxımından mühüm fakt olan qərar 1923-cü ildə, yəni Azərbaycan SSR vaxtında qəbul edilib.

Müstəsna önəmli olan Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi idi.

Azərbaycanın dövlət müstəqilliyini birinci olaraq qardaş Türkiyə Cümhuriyyəti tanıdı. 1991-ci il noyabrın 9-da Türkiyənin baş naziri Məsud Yılmaz Bakıya telefon açaraq Türkiyə hökumətinin qərarını Azərbaycan rəhbərliyinə çatdırdı.

Dekabrın 3-də Ali Sovet Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması xahişi ilə BMT-yə və dünya dövlətlərinə müraciət etdi. Dekabrın 8-də Belovejskdə SSRİ-nin fəaliyyətinə xitam veriləndən sonra beynəlxalq təşkilatlar və dünya dövlətləri digər müttəfiq respublikalar kimi, Azərbaycanın da müstəqilliyini tanımağa başladılar. Dekabrın 9-da İKT Azərbaycanı sıralarına qəbul etdi.

Dekabrın 11-də müstəqilliyimizi tanıyan 2-ci ölkə isə Rumıniya oldu. Dekabrın 13-də Pakistan analoji bəyanat verdi.

Nəhayət, dekabrın 29-da Konstitusiya Aktı ümumxalq səsverməsinə çıxarıldı və 95 faiz seçicinin iştirak etdiyi referendum müstəqillik faktını rəsmiləşdirdi. Beləliklə, Azərbaycan Respublikası, 1992-ci ilə müstəqil dövlət kimi qədəm qoydu.

Daim vətənimizin, xalqımızın gələcəyini düşünən ümummilli liderin əvəzsiz xidmətlərindən biri də onun zamanı qabaqlayan parlaq siyasi zəkası və böyük uzaqgörənliyi sayəsində Azərbaycanı uğurla idarə edən xarizmatik lider yetişdirməsi oldu. Heydər Əliyev siyasətinin layiqli davamçısı İlham Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 12 il ərzində ictimai-siyasi həyatın bütün sahələrində böyük uğurlar əldə olunmuş, xalq və dövlət üçün taleyüklü layihələr həyata keçirilmişdir. Azərbaycanın iqtisadi və hərbi potensialı güclənmiş və əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Odur ki, Azərbaycan iqtisadi inkişaf sürətinə görə son illərdə dünyanın lider dövlətləri sırasında addımlayır.

Reallıq göstərir ki, Prezident İlham Əliyev ötən 12 il ərzində Azərbaycanın inkişafı və güclənməsi üçün bütün addımları atıb. Dövlət başçısının əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu ötən dövrdə respublika iqtisadiyyatında böyük uğurlara zəmin yaradıb, hər bir vətəndaşın həyatında irəliləyişlərə səbəb olub. Azərbaycan iqtisadiyyatının 3 dəfə, dövlət büdcəsinin isə təxminən 20 dəfə artmasının təmin edilməsi, bir milyondan artıq yeni iş yerinin açılması və yoxsulluq səviyyəsinin 50 faizdən 6 faizə düşməsi bunun bariz təsdiqidir. Bütün bu uğurlar Prezident İlham Əliyevə ümumxalq etimadını əhəmiyyətli dərəcədə gücləndirib və ona görə bu siyasətin davamı cəmiyyətin bütün təbəqələrinin istək və arzusudur.

**Vüqar ORXAN**

# “Arşın mal alan” filminin 70 illiyi

## və ya Hollivudu geridə qoymaq barədə Stalinin göstərişi

Şirin MANAFOV

**❍ “Arşın mal alan” filmi 1945-ci ildə Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında çəkilib. Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə bərpa edilən və rənglənən film indi yeni ekran həyatını yaşayır, dünyanın dörd bir yanında özünə tamaşaçı rəğbəti qazanmaqda davam edir.**

1944-cü il. Qızıl Ordu Avropanı azad edir. Stalin kinematoqrafçılardan qalib obrazını—faşizm üzərində qələbə çalmış, ölkələri azad etmiş cazibədar, qüdrətli Sovetlər ölkəsinin tərənnümünü tələb edir. Həm də necə?! Bir sözlə, Hollivudu kölgədə qoymaq lazımdır! Tapşırıq həmişəki kimi qısa və qeyri-müəyyən idi. Çəkiləcək film Hollivudu geridə qoymalı idi. Ölkənin bütün kinostudiyaları rəhbərin əmrini yerinə yetirmək üçün səfərbər olsa da, 1945-ci ildə bu işi yalnız “Azərbaycanfilm” bacardı.

“Arşın mal alan”-ın parlaq uğuru Avropanın SSRİ-yə marağının artmasına səbəb olmuşdu. Film 140 ölkədə nümayiş olunaraq, Sovet İttifaqına inanılmaz dərəcədə böyük mənfəət gətirdi. Rəhbərin tapşırığı uğurla yerinə yetirilmiş, Avropa, Asiya və Amerikanın nəhəng kino bazarının qapıları sovet filmləri üçün açılmışdı. Doğrudan da, gətirdiyi gəlirə və şöhrətinə görə “Arşın mal alan” filmi Hollivudun ən məşhur filmlərini kölgədə qoymuş və SSRİ-ni nəhəng əsir düşərgəsi kimi təsəvvür edən Avropa tamaşaçısını heyrətləndirmişdi.

Film 1945-ci ildə ekranlara çıxdı.

“Arşın mal alan” ekrana çıxdığı elə ilk ildən dünya şöhrəti qazandı. Film 86 dilə, operettanın özü isə 80 dilə tərcümə edildi. Film, 140-a yaxın ölkədə yayımlandı. SSRİ-də isə filmə təkcə ilk altı həftə ərzində 16 milyon tamaşaçı baxdı. Həmin dövrdə filmin Azərbaycan və rus versiyasının büdcəsi ümumilikdə 5 milyon 807 min sovet rublu təşkil edirdi. Yalnız ilk iki ildə film ölkəyə 5 milyard rubl gəlir gətirdi. Bu vəsait 1947-ci ildə metallurgiya zavodu üçün xaricdən avadanlıq alınmasına imkan verirdi. Bu beş milyarddan əlavə, “Arşın mal alan” hələ neçə illər xarici prokatdan ölkəyə külli miqdarda valyuta axınını da təmin etmiş oldu.

Sovet İttifaqının tarixində ən gəlirli ixrac təklifləri sırasında olan “Arşın mal alan” müharibədən sonrakı illərdə sovet kinosunun sürətli inkişafına da təkan verdi. Filmin prokatından əldə olunmuş beş milyard rubl sayəsində SSRİ studiyalarında onlarla yeni film istehsal olundu.

“Arşın mal alanı”-ın uğuru xaricdə digər sovet filmlərinin də yüksək səviyyədə qəbul edilməsini təmin etdi. Film Sovet kinosuna “əvəzolunmaz xidmət” göstərmiş oldu—onu dünyaya optimist filmlərin istehsalçısı kimi tanıtdı. Filmə Avropada o qədər böyük tələbat yaranmışdı ki, Sovet kinosu Polşa, Şərqi Almaniya, Rumıniya, Macarıstan, hətta kino sahəsində artıq öz sözünü demiş İtaliyada belə, kinematoqrafiyanın gələcək inkişaf istiqamətlərinə təsir etdi. Çində “Arşın mal alan”ın uğurunu görən Mao Tszedun Azərbaycan operettasının Çin versiyasını çəkmək barədə göstəriş verdi və “Örtük altında məhəbbət” filmi ekranlara çıxdı (çinlilər “çadra”ya “örtük” deyir).

### Dahi imicmeyker

Filmin böyük potensiala malik olduğunu ilk olaraq Stalin qeyd etdi.

Bədii Şura filmi qəbul etmədi, kino tənqidçilərinin fikrincə, guya film sovet həqiqətlərinə zidd idi, burjua həyat tərzini təbliğ etdiyinə görə sovet xalqı tərəfindən qəbul edilməyəcəkdi.

Bədii Şuranın üzvləri öz mülahizələrini belə əsaslandırırdılar: “Biz bu filmin bütün qəhrəmanlarını inqilab zamanı və 1937-ci ildə güllələdik. Filmdəki obrazların hamısı bizim düşmənlərimizdi. Amma filmdən belə çıxır ki, onlar mehriban, xeyirxah, şən və ağıllı adamlar olub. “Arşın mal alan”-ın ekranlara gəlməsinə izn vermək o deməkdir ki, bolşeviklər yanılıblar, inqilabaqədərki elit təbəqənin təqib edilməsi isə cinayət imiş, Sovet hakimiyyəti bu gözəl insanların həyatını məhv edib”. Əslində, elə məhz bu cür idi.

Təkcə dahi rejissor Sergey Eyzenşteyn Bədii Şuranın qərarına etirazını bildirir və təkid edir ki, onun xüsusi rəyi barədə ən böyük sovet kinotənqidçisi olan Stalinə məlumat verilsin. Həmçinin, qeyd edək ki, rejissor bütün müzakirə boyu Bədii Şura üzvlərinin şarjlarını çəkərək, sonradan bu karikatura silsiləsini “Vəba zamanında eyş-işrət” adlandırmışdı.

Məşhur “Potyomkin zirehli gəmisi» filminin rejissoru bildirdi ki, “bu film bütün dünyanı fəth edəcək” və tələb elədi ki, onun Bədii Şuranın qərarı ilə razılaşmadığını Stalinə çatdırsınlar. Təbii ki, Bədii Şuradakı qalmaqalı Stalinə çatdırdılar. Bir müddət sonra, Oktyabr inqilabının ildönümü ərəfəsində, Stalin “Arşın mal alan” filmini onun bağ evinə gətirməyi tapşırır. Kinolenti bağ evinə Jdanov və Dövlət Kinematoqrafiya Komitəsinin o vaxtkı sədri Bolşakov gətirdi.

“Arşın mal alan” filminə ard-arda üç dəfə baxan rəhbər, öz heyrətini gizlətmir, yanındakılara bildirir ki, “çox yaxşı, bu, xalqa lazım olan filmdir və qəhrəmanlar da əladır”. Stalinin reaksiyası məşhur rejissorların daxil olduğu Bədii Şura üçün nəzərdə tutulmuşdu. Yalnız Eyzenşteyn, Stalinin bu filmdən nə gözlədiyini dəqiq oxuya bilmişdi, - ixrac üçün film lazımdır. Hələ 1943-cü ildə - faşist Almaniyası ilə müharibədə dönüş baş verdiyindən və Sovet Ordusunun qələbəsindən sonra Stalin kinematoqrafçılara Hollivudu kölgədə qoya biləcək filmlər çəkməyi tövsiyə etmişdi. Bütün məşhur moskvalı rejissorların çalışdığı Daşkənd kinostudiyasında da Hollivud filmlərini geridə qoyacaq və tamaşaçını arxasınca aparacaq filmlər istehsal olundu. Amma uğur yalnız “Arşın mal alan”ın üzünə gülümsədi.

Sergey Eyzenşteynin hörməti bir anın içində göylərə qalxdı, “anti-sovet” filminə iftiralar yağdıran Bədii Şuranın üzvlərini isə dəhşət bürüdü. Onlar nümayiş üçün tövsiyə etdikləri filmin yeni yozumu barədə mülahizələrini bölüşməyə tələsdilər. Sən demə, filmə, yoldaş Stalin kimi, ard-arda üç dəfə baxmaq lazım imiş. Yalnız bu zaman 1945-ci ilin ən yaxşı Sovet filminin bütün məziyyətlərini layiqincə qiymətləndirmək olardı. “Arşın mal alan” üçün yaşıl işıq yanmışdı, amma film özünün dünya şöhrətinə bu kiçik əhvalat sayəsində deyil, yüksək bədii keyfiyyətlərinə və əla aktyor oyununa görə nail olmuşdu. Qeyd etmək lazımdır ki, Əsgər rolunu Rəşid Behbudov və Gülçöhrə rolunu Leyla Cavanşirova-Bədəlbəyli ifa edirdi.

### Stalin filmi necə gördü

Stalinin gənclik illəri Bakıda keçmişdi, elə “Arşın mal alan” filmi də bu ərəfəni təsvir edirdi. Rəhbər həmin dövr Bakısının ab-havasına, insanlarına yaxşı bələd idi. O ilk dəfə Bakıda 1904-cü ilin iyununda olmuşdu. Sonralar -1907-1910-cu illərdə Bakıdakı Bayıl həbsxanasında cəza çəkmiş, həbsxanadan çıxdıqdan sonra iki il Bakıda yaşamışdı.

Stalin “Arşın mal alan”dakı səhnələri dəfələrlə izləyib. Çünki 1925-ci ildə Tiflisdə pyes altı dildə - gürcü, Azərbaycan, erməni, rus, aysor və ivrit dillərində səhnələşdirilmişdi. Mövzu və qəhrəmanlar hamıya tanış idi. Film isə hər yerdə anşlaqla nümayiş olunurdu, insanlar dəfələrlə, həm də əlavəi filmə baxmağa gəlirdilər. Mövzu bütün dövrlərdə aktual olduğuna görə, müxtəlif zamanlarda, müxtəlif quruluşlarda tamaşaçılara təqdim edilib.

Filmin həm özü, həm də onu yaratmış cəmiyyət rəğbətlə qarşılanırdı. Bədii Şura üzvlərinin heç cür anlaya bilmədiyi ikinci amil Stalin üçün olduqca önəmli idi. S.Eyzenşteynin filmə peşəkarcasına yanaşmasından fərqli olaraq, Stalini Sovet cəmiyyətinin heyratamiz obrazının yaradılması maraqlandırırdı.

Bədii Şura üzvləri Eyzenşteynin “Film bütün dünyanı fəth edəcək” sözlərini düzgün başa düşməyərək, filmi tənqid etmişdilər. Stalinə isə dünya ictimaiyyətinin filmə göstərəcəyi reaksiya maraqlı idi.



“Arşın mal alan” Stalinə bir oxla bir neçə hədəfi vurmağa imkan verirdi.

Bədii Şurada təcrübəli rejissorlar, gözündən heç nə yayınmayan yaradıcı insanlar təmsil olunsa da, Eyzenşteyn istisna olmaqla, onların heç biri Stalinin nə istədiyini anlaya bilməmişdi. Ancaq 1943-cü ildə Üzeyir bəy özü də filmdə o dövrün mövcud problemlərinin açılmasına, Əsgərin öz istəyi ilə taleyinə sahib çıxmasına anlaşıqlı yanaşdığını vurğulamaqla, “Ellər atası”nın nə istədiyini düzgün hesablaya bilmişdi.

Bəs, film Qərb ölkələrində necə qarşılandı? Tamaşaçılar kino zalından yüksək əhvali-ruhiyyədə çıxır, artıq onlar SSRİ-ni xoşbəxt həyat sürən nikbin insanlar ölkəsi kimi tanımağa başlayırdılar. Film Stalinin şəxsiyyətinin, ölkəsinin, hakimiyyətinin parlaq obrazını təcəssüm etdirirdi.

*(Davamı gələn sayımızda)*

**Tərcümə edən: FEYZİYYƏ**

# Adam eyni çaya neçə dəfə girə bilər?

**Qəribə zamanda yaşayırıq. Kimi dindirirsən, fəlsəfədən danışır, filosoflardan sitat gətirir. Bu sitatların demək olar ki, hamısı artıq əzbərimizdir, amma çifayda, onlardan bəhrələnə bilirikmi? Onlardakı məntiqi həyatın ən həssas anlarında tətbiq edib ağır dilemmalar arasında seçim edə bilirikmi? Məncə, yox. Elə buna görə də, bu silsilədə yeniyetmələrimizə fəlsəfə və filosoflardan söhbət açacağıq. Qoy, bəziləri sitat gətirib ağıllı görünmək istəyəndə, bizim övladlar adıçəkilən filosofun başqalarından nə ilə fərqləndiyini də bilsin. Bu yazıları 14-17 yaş arasında olan uşaqlarınız mütəmadi oxusa, düşünmək, təhlil etmək öyrənərlər. Amma böyüklərin də oxumasında fayda var, çünki diletantlıq əslində, böyüklərdən kiçiklərə keçir... Silsiləmiz filosoflardan, onların yaratdığı fəlsəfi sistemlərdən söz açır. Bizə bəlli olan ilk fəlsəfi təlimlər çox qədim zamanlarda – eramızdan əvvəl VI əsrdə yaranıb. Maraqlısı budur ki, fəlsəfənin konkret harada yarandığını söyləmək mümkün deyil. O, təxminən eyni dövrdə bəşəriyyətin bütün sivilizasiya mərkəzlərində, yəni həm Hindistanda, həm Çində, həm də Yunanıstanda yaranıb.**

**"Fəlsəfə" sözünün özü yunan mənşəlidir. Özünü "filosof", yəni "müdrikliyi sevən insan" adlandıran ilk şəxs məşhur yunan mistiki və riyaziyyatçısı Pifaqor olub. Bu söz Qədim Yunanıstanda qısa bir zamanda çox populyar olub və "filosof" rütbəsi cəmiyyət içində ən hörmətli, müdrik adamlara aid edilib. Amma məşhur Sokrat bu məqamı özünün şəxsi nümunəsiylə populyarlaşdıran, müdrikliyi dillər əzbəri olmuş ilk şəxs kimi tarixə düşüb.**

**İllər, əsrlər keçir, qədim sivilizasiyalar tarix səhnəsindən bir-bir çıxırdı, lakin elmin və incəsənətin çox qədimlərdə yaranmış bütün sahələri kimi, fəlsəfə də yaşayır, inkişaf edir, təkmilləşirdi. Həmin bu təkmilləşmə prosesi bizim günlərədək davam etməkdədir.**

**İlqar ƏLFİ**

Efesli Heraklit (bizim eradan əvvəl 540-480-ci illər) Sokrataqədərki dövrün ən sirli və ən çətin anlaşılan yunan filosoflarındandır. Onun həyatı haqda bəlli olan budur ki, alim Efes çarlarının nəslindən idi və hakimiyyətə gəlməli olduğuna baxmayaraq, taxt-tacdan imtina edərək, onu qardaşına vermişdi.

Heraklit bir insan kimi çox çılğın idi, dildən iti və son dərəcə məntiqli natiq sayılırdı. Bir dəfə dostu Hermodorun şəhərdən qovulmasına etiraz edərək həmvətənlərinə belə demişdi: "Bizim aramızda kimsə yaxşı ola bilməz; əgər beləsi varsa da, o burda yox, yad diyarda, yadlar arasında yaxşı olacaq". Bundan sonra isə doğma şəhərinin mənfi təsirlər altında olduğunu əsas gətirərək sakinlər üçün yeni qanunlar yazmaqdan imtina etmişdi. Bu hadisədən dərhal sonra Heraklit Artemida məbədinə yollanmış, orda oğlanlarla aşıq-aşıq oynayaraq təəccüb qalmış efeslilərə demişdi: "Nəyə təəccüblənirsiniz, ay əclaflar? Bəyəm belə oynamaq sizin dövləti idarə etməkdən daha yaxşı deyil?"

Bu narazılıqların məntiqi sonu olaraq axırda Heraklit Efesi tamam tərk edir, bir müddət dağlarda yaşayaraq, mer-meyvə, bitki kökləri ilə qidalanır, amma az sonra qarnına gələn sudan dünyasını dəyişir.

Heraklit bütün həyatı ərzində yalnız bir fəlsəfi kitab yazıb. Adı "Təbiət haqda" olan həmin kitabı Sokrat oxuyanda belə demişdi: "Anladıqlarım əladır; yəqin, elə anlamadıqlarım da əla olmalıdır. Amma belə bir kitabın içində qərq olmamaq üçün gərək Delos qəvvası olasan!" İran Dara onun kitabını oxuyandan sonra Heraklitı yunanların ən müdrik adamı kimi qiymətləndirdiyini söyləmiş, onu fəlsəfi söhbətlər aparmaq üçün öz yanına dəvət etmiş, lakin alim bu dəvəti ciddi qəbul etməmişdi.

Heraklitin kitabı çox mürəkkəbdir. Deyimlərinin çoxunu anlamadıqlarına görə yunanlar onun "Təbiət haqda" kitabını hətta qaranlıq adlandırırdılar. Heraklit alov stixiyasını aləmin ilkin əsası sayırdı: "Alov əsas elementdir; hər şey alovun növüdür və hər hadisə sıxılma-boşalma nəticəsində baş verir". Atəş filosof üçün dünyanı hərəkətə gətirən "ilkin materiya" (arxe) sayılır və bu arxe "oddan yaranaraq, bütün həyatı boyu, müəyyən zamanlarda yenə yanır və bu, taleyin hökmü səbəbindən baş verir". Heraklitin bu deyimində dünya hərəkətinin dövriliyi, labüdlük və qaçılmazlıq anlayışları, dünyada baş verənlərin ilkin mənbəyi olan tale haqda fikirlər öz əksini tapıb.

Dünyanın dəyişkənliyi barədə təsəvvürlər Heraklit tərəfindən özünün məşhur prinsipində ifadə edilib: "İki dəfə eyni çaya girmək olmaz". Filosof bu deyimində ilkin materiya və dünyanın mövcudiyyət qanunlarını insan və onun ruhu problemi ilə əlaqədə nəzərdən keçirməyə çalışır. "Biz eyni çaylara həm giririk, həm də girmirik; biz həm varıq, həm də yox" deyən alim bununla vurğulamaq istəyirdi ki, insan şüurlu bir məxluq kimi həmişə var ola bilməz – onun varlığı fikrən "Heraklit çayı" adlandırdığı, amma əslində təbiətin mahiyyəti olan şeylərlə təmasda təzahür edir. Yəni insan yalnız təbiət haqda fikirləşəndə yaşayır.

Heraklit eynən beləcə fikirləşirdi ki, insanlara verilən qanunlar öz-özünə icra edilə bilməz – onların yerinə yetirilməsi üçün daim mübarizə aparmaq lazımdır: "Qanun naminə xalq özü vuruşmalıdır, elə vuruşmalıdır, sanki qala fəth edir". Heraklit bu fikirdə idi ki, dünyada hər şeyi zərurət (nike), qanunauyğunluq (loqos), yəni dünya yaranışı, "əksliklərin razılığa gəlməsindən" doğan həddi anlayışları idarə edir.

Heraklit loqos anlayışıyla insan ruhu (psixe) anlayışını sıx şəkildə bağlayırdı. Ruh da şüur kimi loqosa tabedir, onun məqsədi isə idrakdır: "Hansı yolla getməyindən asılı olmayaraq, ruhun sərhədlərini tapa bilməzsən o, o dərəcədə dərindir". Loqosu dərk etmədən əxz olunan istənilən təsəvvürlər səthi və faydasızdır: "Çoxbilmişlik insanı ağıllandırmaz". Heraklit belə deyir və əlavə edirdi: "İnsanın ruhu vəhşidirsə, gözləri və qulaqları şahid kimi pis olacaq", yəni söhbət loqosu dərk etməmiş ruhlardan gedir.

Tanrının mahiyyəti nədədir?

Məşhur Eley fəlsəfə məktəbinin əsasını qoyanlardan biri olan Ksenofan (eramızdan əvvəl 565-470-ci illər) Yunanıstanın Şərqində olan Kolofon şəhərindəndir. O, farsların istilası ucbatından doğma yerləri tərk etmək məcburiyyətində qalmışdı. Filosof və şair olan Ksenofan demək olar ki, 67 il ərzində Böyük Yunanıstan ərazisini qarış-qarış gəzərək öz əsərlərini – epik dastanlarını, elegiyalarını, təmsillərini xalqa təqdim edirdi. Axırda İtaliyanın cənubundakı Eley şəhərində məskunlaşır və 95 yaşına - düz ömrünün sonuna kimi orada yaşayır. Özünün kifayət qədər uzun həyatı barədə Ksenofan belə deyirdi:

***Günəş artıq altmış yeddi dövrəsini***
***vurub bitirdi,***
***Mənsə Ellada ellərinə fikir daşımaqdan***
***usanmadım.***
***Düşüncələrimi paylaşmağa***
***başlayanda isə,***
***Əgər səhv etmirəmsə cəmi***
***iyirmi beş yaşım vardı.***

Ksenofan antik fəlsəfə tarixində ilk dəfə tanrılar barədə təcəvvürləri köklü şəkildə dəyişməyə cəhd edən ilk alimdir. O, mifləri, Gesiodun "Teoqoniya", Homerin "İliada" və "Odisseya" əsərlərini oradakı tanrıların təsvirinə görə kəskin tənqidə məruz qoyurdu: "Homerlə Gesiodun tanrılarının hamısı insanlar üçün günah və biabırçılıq sayılan şeylərin hamısına - oğurluğa, zinakarlığa, bir-birini aldatmağa çox asanca yol verirlər". Ksenofan tanrılar haqda antripomorf təsəvvürləri, yəni insana xas olan zahiri cəhətlərin və günahların tanrılara da aid edilməsi ilə barışmır, çoxdan qüvvədə olan bu təsəvvürləri mübahisə obyektinə çevirirdi. Filosofun fikrinə görə, belə təsəvvürlər yaranışın, onun başlanğıc və ilkin səbəblərinin ən ali gücləri olan tanrıların mahiyyətini təhrif edirdi. Ksenofan kinayə ilə deyirdi: "Həbəşlər öz tanrılarını yastıburun və qara dəriyə malik; trakiyalılar göygöz və sarısaç sayırlar. Əgər öküzlər, şirlər və atların da əli olsaydı və onlar insan kimi şəkil çəkə bilsəydilər, onlar da öz tanrılarını özləri kimi təsvir edərdilər".

Ksenofanın özü isə Tanrını ideal bir mahiyyət kimi təsvir etməyə, bunun üçün ideal həndəsi fiqurdan istifadə etməyə cəhd göstərib. Və bununla da əslində fəlsəfə tarixində ilk dəfə Tanrının abstrakt, konkret nəilsə əlaqəsi olmayan təyinini vermiş olub: "Tanrının mahiyyəti kürəşəkillidir və insana qəti bənzəmir; o başdan-ayağa görmə, eşitmədən ibarətdir, amma nəfəsi yoxdur və o başdan-ayağa zəka, şüur və əbədiyyətdir".

Ksenofan ilk olaraq insan idrakını iki tipə ayırıb: şüur vasitəsiylə dərk və hissiyyat vasitəsiylə dərk. O, düşünürdü ki, yalnız şüur həqiqi bilik verə bilər, hissiyyatlar isə aldadıcı olur və səhv biliklərin toplanmasına gətirib çıxarır.

Ksenofan deyirdi: "Hər şey ağıl qarşısında gücsüzdür". Başqa bir filosof – Empedokl bir dəfə ona deyəndə ki, insanlar arasında müdrik tapmaq mümkün deyil, Ksenofan belə cavab vermişdi: "Əlbəttə, axı müdrik insanı tanımaq üçün özün də gərək müdrik olasan".



Aydın YOL
N 39(48) 16.10.2015


# Su və torpaq - həyatın qoşa sütunu

**Mütəxəssislər haqlı olaraq deyirlər ki, su həyatdır. Canlıların yaranması, inkişafı üçün su qədər qiymətli nemət yoxdur. Ancaq ani bir paradoksla üz-üzə gəlirik: bəs torpaq?! Sadə bir məntiqlə yanaşsaq, torpaq olmasa, bəs su harada qərar tutacaq? Beləliklə, həyatımızın varlığı üçün bu qoşa qanadın-su və torpağın əvəzedilməz təbii sərvət olduğunun şahidi oluruq. Son nəticədə belə qərara gəlmək olar ki, obrazlı desək, su və torpaq bir qəlbdə iki candır. Lakin bu mehrin əks münasibətləri həyatımız üçün fəlakətdir. Yəni torpaq və su harmoniyasının insan və ya təbiətin şıltaqlığı hesabına pozulması böyük dağıntılara meydan açır.**

Son illərdə planetimizdə ekoloji münasibətlərin intensiv pozulması torpağın fəaliyyət ritmini pozur, nəticədə insan təbiətlə- sanki qəfəsindən qaçmış ramedilməz aslanla əliyalın üz-üzə qalır. Ekologiyaya qarşı yönəlmiş hər bir kiçik təbii və texnogen təsirlər həyatımızı təbii axardan çıxarır. Dünyada baş verən qlobal ekzogen-geoloji proseslər, sunamilər, torpaq sürüşmələri alimləri sual qarşısında qoyur. Baş verən proseslər, fəlakətlər, həyəcanlar bizi diqqətli olmağa çağırır.

Qeyd edildiyi kimi, həyatımızın məhvəri olan torpağı qorumaq hamımızın borcudur. Aşınmalar, eroziyalar, xüsusilə Azərbaycan kimi nisbətən aztorpaqlı ölkəmizə böyük ziyan yetirir. Son illərdə baş verən torpaq sürüşmələrinə, onun gətirdiyi fəsadlara diqqət yetirək. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çox böyük səylərlə, qayğıkeşliklə Respublikamızın abadlaşdırılması, iqtisadi inkişafına çalışır. Nəticə xalqımızın gözəl, xoşbəxt həyatına hesablanıb. Ölkəmiz buna sürətlə nail olur. Xüsusilə yol infrastrukturunun yenilənməsi firavanlıq və rahatlıq üçün əvəzsiz impuls verir. Yolların salınması, ən çox da yeni yolların tikintisi təbiətlə insan arasında münasibəti pozmamalıdır. Ekologiya mütəxəssisləri bu sahədə öncül olmalı, ölkəmizin mənafeyinə xidmət edən infrastrukturların qurulmasında daim diqqətli olmalıdırlar. Şamaxı, Lerik, Ağsu, Astara, Yardımlı yollarında baş verən sürüşmələr, bu günlərdə paytaxtımızda- Masazırda, avtovağzalda müşahidə olunmuş çökmələr, sürüşmələr mütəxəssisləri daim diqqətli olmağa sövq edir.

Bizim fikrimizcə, torpaq sürüşmələrinə daha böyük diqqət yetirilməlidir. Çünki torpaq ekosistemdə əsas amildir. Torpaq təbii-tarixi kütlə kimi Yer kürəsinin məhsuldar üst qatıdır. Onun qalınlığı orta hesabla 18-20 sm-dir. Lakin bəzi rayonlarda, bölgələrdə 1,5-2,0 m-də ola bilər. Deməli, sürüşmələr yerin üst qatını- torpağı yuyub aparır. 18 sm-lik məhsuldar qatın əmələ gəlməsi üçün təbiətə 1400-7000 il vaxt lazımdır. Bir santimetr torpaq qatının yaranması üçün yerindən asılı olaraq 100-300 il zaman tələb olunur. Bu qatın məhv olması üçün isə ən qısa zaman kəsiyi belə kifayət edir. Bu isə yerin ən məhsuldar qatının - millyon illər boyu formalaşmış qatının qorunması zərurətini təsdiqləyir.

Respublikamızın dağlıq və dağətəyi zonalarında təsərrüfat obyektlərinə təhlükə törədən əsas proseslərdən ən mühümü sürüşmələrdir. Sürüşmə- dağ yamaclarında, yarğanlarda, sututarların, çayların sahillərində təbii və texnogen amillərin təsiri, sürüşən kütlənin öz ağırlığı, yamacların, ümumən torpağın alt qatının yuyulması səbəbindən baş verir.

Yuxarıda qeyd edildiyi kimi, son illərdə sürüşmə prosesinin aktivləşməsi və onların iqtisadiyyatımıza vurduğu ziyanlar, digər mənfi ekoloji amillər qabaqlayıcı tədbirlərin vaxtında görülməsini aktuallaşdırır. Bölgələrdə yerli hakimiyyət orqanları sürüşmə riski olan ərazilərdə məskunlaşmaya rəvac verməməli, mütəxəssis rəylərinə həssas yanaşmalıdırlar. Şəhərlərin, kənd və qəsəbələrin ərazilərində baş verən sürüşmələr yalnız təbiətin şıltaqlığından bəhrələnmir. İnsanlar sürüşmənin qarşısını almaq əvəzinə, təbiətə kor-təbii müdaxilənin fərqinə varmırlar, bununla da özlərini, övladlarını, qohum-qəbilələrini təhlükə altına qoyurlar.

Meşə massivlərinin qorunması nəinki ölkəmizdə, bütün dünyada qlobal faciələrin qarşısını almaq üçündür. Nəhəng Amazonka meşələrinin başına gətirilən və gətirilməkdə olan müsibətlər bütövlükdə Yer kürəsinin iqliminə, ekosistemin pozulmasına təsir göstərir.

Qeyd edək ki, suvarma əkinçiliyinin elmi prinsiplər üzrə qurulmaması da mənfi rol oynayır. Eroziyanın təsərrüfatlara, digər subyektlərə ümumən mənfi təsirlərinin qarşısını almaq, baş vermiş fəsadları aradan qaldırmaq üçün çəmən və otlaqlardan səmərəli istifadə edilməli, ot örtüyünün torpaqqoruyucu xassələrinin zəifləməsinə yol verilməməlidir.



***İnsanın həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. İnsanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su - bütün bunlara biz çox böyük diqqət göstərməliyik.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

Qrunt kütlələrinin sürüşməsi yaşayış və istehsalat binalarının dağılmasına və çökməsinə, mühəndis və yol qurğularının, magistral kəmərlərin, elektrik ötürücülərinin sıradan çıxmasına səbəb olur. Bu da son nəticədə ölçüyəgəlməz iqtisadi ziyan, insan itkisi deməkdir.

Sürüşmə prosesinin geniş miqyas almasını qabaqlamaq üçün ölkəmizdə ardıcıl işlər görülür, tədqiqatlar aparılır. Araşdırmalar, elmi-iqtisadi, təsərrüfat təhlilləri qarşıya çıxacaq daha külli ziyanların qarşısını almağa kömək edir. Aparılan tədqiqatlar, verilən proqnozlar mühüm əhəmiyyət kəsb edir.

Eroziyalar sürüşmə üçün ən qorxulu faktordur. Axar sular, hətta küləklər, yağışlar torpağın üst qatını sürtüb aparır. Bu sovrulma nəticəsində torpaq dağılır. Su axınları toprağı mexaniki parçalayır. Su eroziyası, külək eroziyası, hətta yağış eroziyası torpağın yuxarı üst qatını, möhkəm qatını zəiflədir. Torpağı müqavimətsiz şəklə salır. Nəzərə almaq lazımdır ki, eroziya ölkəmizdə kifayət qədər geniş yayılıb.

Dağ ərazilərində - yamaclarda meşələr qırıldıqca sürüşmələrə yol açılır. Yamaclar çılpaqlaşdıqca otlaqlara; otlaqlar da normasız otarıldıqca səhralara çevrilir, sürüşmələr tüğyan edir. Otlaq sahələrindən sistemli istifadə edilməli, otarma norması və hər torpaq vahidində otarılan mal-qaranın sayı normaya uyğun olmalıdır. Meşələrin sıxlığı normadan aşağı olmamalı, qırılmalar normalara uyğun təşkil edilməlidir; dik yamacların şumlanmasına yol verilməməlidir. Suvarmada irriqasiya və meliorasiya qaydalarına riayət edilməlidir. Kommunikasiya xətlərinin çəkilişində, qurğuların tikintisində torpaq sahələri mümkün qədər zədələnməməli, korlanmamalıdır. İstifadəsiz qalan suvarma, kanalizasiya və digər izafi suların xaotik axınına yol verilməməlidir. Bununla biz insana xidmət edən ekosistemin mümkün fəsadlarını aradan qaldırmış oluruq.

Həyəcan təbillərinə etinasız yanaşmaq olmaz. İnkişaf üçün, abadlıq-tikinti işləri üçün məcburən bəzən təbiətə müdaxilə etməli oluruq.

Cənab Prezident İlham Əliyev hətta ən iri mühüm yol tikintisi layihələrini belə ekologiyaya, ağaclara zərər vurarsa, dəyişməyi tapşırır. Ağdaşda çəkilən yolun təbiətə, yaşıllığa ziyan vuracağını eşidəndə layihəni dəyişdirməyi, hətta dayandırmağı əmr edir. Budur təbiətə canıyananlıq, budur əsl Prezident münasibəti.

Bu günlərdə ölkəmizdən İrana qaçan yerdə bir bəbirin sərhəddə brokonyer tərəfindən vəhşicəsinə vurulduğunun şahidi olduq. Bu cinayət faktı ilə müvafiq orqanlar məşğuldur. Özümüzə sual verək: Bu bəbir, digər nadir heyvanlar niyə bizdən qaçırlar? Çünki biz insanlar ekosistemin incəliklərini nəzərə almadan təbiətə hücum edirik.

İnsanlara sədaqətlə xidmət edən ekozənciri qırmaq olmaz. Torpaq, su, meşə (oksigen) – bunlar insanlığın varlığıdır. Hələ digər təbii resurslara antropogen təsirlərdən danışmırıq.

Son illərdə ölkəmizdə yaşıllaşdırma tədbirlərinə geniş yer verilir. Dövlətimizin, hökumətimizin təbiətə qayğısını hər yerdə hiss edirik. Yenilərini yaradarkən, gərək mövcud olanları da qoruyaq, inkişaf etdirək. Dövlətlə yanaşı, biz insanlar- ayrı-ayrı fərdlər də təbiətə qayğıkeş münasibət bəsləməlidir.

Biz torpağın qədrini bilməliyik. Torpağı qorumağın bir şərti də qeyd etdiyimiz kimi, sürüşmələrin qarşısını almaqdır. Erməni vandalları təbiətimizə, o cümlədən torpaqlarımıza sağalmaz yara vurarkən, biz Beynəlxalq aləmdə səsimizi daha gur çıxarmalı, Vətənimizin bütün ekosistemini bir tam halında qorumağı bacarmalıyıq.

Ölkəmizdə yaşıllaşdırma işlərinə dövlət tərəfindən böyük qayğının, dəstəyin olduğunu qeyd etdik. Yeni meşələr salınır, magistral yollar boyu göz oxşayan yaşıl zolaqlar, paytaxtımızda, digər şəhərlərimizdə salınan kütləvi yaşıl massivilər, parklar ümid doğurur. Hər problemin həllində dövlətdən dəstək istəmək ədalətli deyil. Dövlət üzərinə düşən vəzifəni yerinə yetirərkən hər bir vətəndaş da bu məsuliyyəti bölüşməlidir. Bu, ümumvətəndaş, ümumbəşəri məsuliyyətdir.

Dövlət başçımız İlham Əliyevin ölkəmizin ekoloji durumuna göstərdiyi gündəlik qayğı, bizdə təbiətimizə qarşı nikbin ümidlər doğurur. Dövlət siyasətini həyata keçirən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətində Prezidentin tövsiyə və tapşırıqlarının məsuliyyəti dərindən hiss olunmaqdadır. Nazirlik bütün qurumları ilə torpaqlarımızın sağlam şəkildə vətəndaşlarımıza xidmət etməsi üçün var qüvvəsini əsirgəmir. Görülmüş əyani işlərdən başqa, müəssisələrdə, ali və orta məktəblərdə aparılan təbliğat və maarifləndirmə işləri sahəsində yaxşı nəticələr əldə edilir.

Gələcəyimizə ümidlə baxdığımız kimi, təbiətimizə də sədaqətlə bağlı olmalıyıq. Çünki təbiət həyat mənbəyi olaraq əbədidir.

**Bəxtiyar HÜSEYNOV,**
**Ekoloq-jurnalist**



# Azərbaycan Gəncənin tarixi

**Azərbaycan Xalq Cümhuriyyətinin quruculuğunda və ikinci dəfə bərpa edilən Dövlət Müstəqilliyinin möhkəmlənməsində Gəncə fəal rol oynayıb.**

1918-ci ilin Mart faciəsindən sonra hərbi üstünlüyü ələ keçirən bolşeviklər siyasi hakimiyyətlərini möhkəmləndirmək üçün bir sıra tədbirlər gördülər. Bolşevik və erməni siyasi partiyalarının mətbu orqanlarından başqa, bütün qəzet və jurnallar bağlandı. Şəhər təsərrüfatı bütövlüklə Bakı Sovetinin tabeliyinə keçirildi. 1918-ci il, aprelin 20-də Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Bakı şəhər Duması buraxıldı. Erməni milli şurası istisna olmaqla, bütün milli şuraların fəaliyyəti qadağan edildi.

Aprelin 25-də S.Şaumyanın sədrliyi ilə Bakı Xalq Komissarları Soveti yaradıldı. Onun rəhbərliyinə daşnakpərəst bolşevik-ermənilər daxil idilər. Bakı komendantlığının, hərbi birləşmələrin başçıları, mətbuat işçiləri, əsasən, bolşevik və daşnak partiyalarının erməni millətindən olanlar bu təşkilatın üzvləri idilər. Məhz buna görə də, o zaman Ermənistanın liderlərindən biri olan A.Xatisov S.Şaumyanın başçılıq etdiyi Bakı XKS-ni "Erməni sovet hökuməti" adlandırmışdı. Bu "hökumət"in tərkibində cəmi üç nəfər azərbaycanlının olması (Nəriman Nərimanov-şəhər təsərrüfatı komissarı, Məşədi Əzizbəyov-quberniya komissarı, Mirhəsən Vəzirov-torpaq komissarı) onun milli dayaqlara nə dərəcədə malik olduğunu göstərir.

Özünü Sovet Rusiyasının ayrılmaz tərkib hissəsi hesab edən Bakı XKS-nin rəhbərliyi Azərbaycana nəinki müstəqillik, heç muxtariyyət vermək ideyasını da qəbul etmək istəmirdi.

Sovet Rusiyası Bakı XKS-nə hərtərəfli, xüsusilə də hərbi yardım göstərirdi. 1918-ci ilin mayında Bakı XKS-nin əsgərlərinin sayı 18 minə çatdırıldı. Onların da əksəriyyətini ermənilər təşkil edirdi. Q.Karqanov Moskvaya, XKS-nə göndərdiyi bir məlumatda yazırdı: "Əsgərlərin böyük hissəsi, yəni 13 minə qədəri, zabitlərin isə, demək olar ki, hamısı ermənilərdir". Bakı XKS-nin ordusuna rəhbərlik mart soyqırımında azərbaycanlı əhaliyə qarşı xüsusi qəddarlığı ilə fərqlənən Z.Avetisyana, N. Qozoryana və Homozaspa tapşırılmışdı.

1918-ci ilin yazında Cənubi Qafqazda ictimai-siyasi vəziyyət gərgin olaraq qalırdı. Zaqafqaziya seyminin və hökumətinin daxilində ziddiyyətlər getdikcə artırdı. May ayının 26-da Zaqafqaziya seyminin sonuncu iclası keçirildi. Gürcüstanın Federasiyadan çıxmaq haqqında bəyanatından sonra Zaqafqaziya seymi özünün buraxıldığını elan etdi.

Mayın 27-də Seymin Azərbaycan fraksiyasının keçirdiyi iclasda Müvəqqəti Milli Şuranın yaradılması haqqında qərar qəbul edildi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri, Həsən bəy Ağayev və Mirhidayət Seyidov sədrin müavinləri seçildilər. Milli Şura Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqında qərar qəbul etdi. Beləliklə, 1918-ci il, mayın 28-də Azərbaycanın dövlət müstəqilliyi elan olundu.

Həmin gün Milli Şura Fətəli xan Xoyskinin başçılıq etdiyi Müvəqqəti hökumətin tərkibini təsdiq etdi: Nazirlər şurasının sədri və Daxili işlər naziri Fətəli Xan Xoyski, Hərbi nazir Xosrov paşa Sultanov, Xalq maarifi və maliyyə naziri Nəsib bəy Yusifbəyli, Xarici işlər naziri Məmmədhəsən Hacınski, Poçt, Teleqraf və Yollar naziri Xudayat bəy Məlikaslanov, Əkinçilik və Əmək naziri Əkbər ağa Şeyxülislamov, Ədliyyə naziri Xəlil bəy Xasməmmədov, Ticarət və Sənaye naziri Məmməd Yusif Cəfərov, Dövlət Nəzarəti naziri Camo bəy Hacınski oldu.

Mayın 30-da Müvəqqəti hökumətin başçısı F.Xoyski müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında məlumatı radio-teleqrafla xarici dövlətlərin başçılarına bildirdi. Azərbaycan bütün Şərq aləmində ilk dəfə olaraq, demokratik respublika idarə üsulunu bərqərar etdi. XIX əsrin əvvəllərində itirilmiş milli dövlətçilik bərpa edildi. Bu, millətin taleyində böyük bir tarixi hadisə idi. Ancaq Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra Bakı XKS nəinki milli hökuməti tanımadı, hətta ona qarşı müharibə də elan etdi.

Azərbaycanın yaranan təhlükədən vətəni qoruyacaq, istiqlaliyyəti davam etdirəcək hərbi gücü yox idi. Çünki illər boyu Rusiyanın tabeliyində yaşayan türklərin elmi, mədəni, iqtisadi və hərbi sahədə inkişaf etmələrinə qəsdən maneçilik törədilmişdi. Çar Rusiyası türkləri hərbi xidmətə çağırmamış, onlara silah verməyərək uzun illər hərb peşəsindən uzaqlaşdırmışdı. Hərbi sahədə vəziyyət belə ikən, dövlət idarəçiliyi və rəhbərlikdən də türklər mümkün qədər uzaqlaşdırılmışdılar. Bunun müqabilində isə, erməni və gürcülər hərbi xidmətə çağırılır, bu sahədə inkişaf etdirilirdilər.

Sovet Rusiyasının Qafqazda fövqəladə vəziyyət komissarı olan erməni Şaumyanın təhriki ilə ermənilər Mart soyqırımından sonra da Qarabağda və Gəncə ətrafında terrorlar törədib günahsız, silahsız əhalini qətlə yetirirdi. Şərq və Qərb istiqamətində istilaya məruz qalan Azərbaycan hökuməti Gəncədə çox az bir qüvvə ilə erməni terrorçularından qorunmağa çalışırdı.

Azərbaycan torpaqlarını işğaldan yalnız döyüş qabiliyyətli münəzzəm hərbi qüvvələr xilas edə bilərdi. Bu gerçəklər qarşısında Osmanlı dövlətindən hərbi yardım istəmək bir məcburiyyət halını almışdı. 1918-ci ildə Batumidə Ənvər paşa ilə görüşən Azərbaycan nümayəndə heyəti hərbi yardım üçün ona müraciət etdi və Ənvər Paşa yardım olunacağına söz verdi.

29 dekabr, 1917-ci ildə VI Ordu komandanı Xəlil Paşa ilə görüşən avstriyalı bir polkovnik-leytenant hərbi əməliyyat üçün Qafqazdakı vəziyyətin çox əlverişli olduğunu bildirdi. İstanbulda Ənvər Paşa ilə də görüşən zabitin danışdıqları Ənvər paşanı çox təsirləndirmişdi. Belə ki, onun 16 fevral, 1918-ci ildə Xəlil Paşaya vurduğu teleqramda deyilirdi: "Görüşdüyüm avstriyalı zabitin Bakının vəziyyəti ilə bağlı verdiyi məlumatlara görə, azəri türklərinin düşmənə qarşı döyüşmək istəyinin olduğuna rəğmən, ancaq onları təşkilatlandıracaq və idarə edəcək hərbçi liderlərin olmadığından hərəkət edə bilmədikləri qənaətindəyəm".

Ənvər Paşa Azərbaycanda həyata keçirmək istədiyi əməliyyat barədə iki yaxın adamına tapşırıq verdi. Bunlardan biri əmisi Xəlil Paşa, digəri isə ögey qardaşı, polkovnik-leytenant Nuru bəy idi.

Xəlil Paşa vəzifədən istefa verən Şərq orduları qrupuna komandan təyin olunmuşdu. Ənvər Paşa Azərbaycanı işğaldan xilas etmək məqsədilə qurmaq istədiyi Qafqaz İslam Ordusu komandanlığına Nuru bəyi təyin etdi. Bu məqsədlə Nuru bəyə dərhal general rütbəsi verildi. Eyni zamanda, Sultan V Mehmet Rəşad tərəfindən ona Qafqaz İslam Ordusunun komandanı olması və Qafqazda sultanın adından siyasi fəaliyyətlər apara biləcəyi haqqında bir fərman da verildi.

Nuru Paşa 25 mart, 1918-ci ildə 20 zabitlə birgə Mosula gəldi. Mosulda olarkən, türklərə qarşı Bakıda ermənilərin vəhşiliklər törətdiyi barədə həyəcanlı xəbərlər gəlirdi. Artıq Azərbaycandakı vəziyyət Türk ordusundan çevik hərəkət etməyi tələb edirdi. Türk ordusunun Azərbaycan torpaqlarını xilas etmək məqsədi ilə gəlişinin qarşısını almağa çalışan Bakı XKS Leninin göstərişi ilə iyunun 6-da Gürcüstan hökumətinin başçısı N.Jordaniyaya məktubla etdiyi müraciətində türkləri Gürcüstan ərazisindən Azərbaycana buraxmamağı xahiş edir, əvəzində isə Sovet Rusiyasının Gürcüstanın muxtariyyətini tanıyacağını vəd edirdi.

Türk ordusunun Gəncəyə gəlişinin qarşısını ala bilməyən Gürcüstan hökuməti Azərbaycan Milli Şurasına qarşı münasibətini dəyişdi. Gürcüstan hökumətinin tələbi ilə 1918-ci il, iyunun 16-da Azərbaycan Milli Şurası və hökuməti Gəncəyə köçürüldü.

Nuru Paşa isə bir qrup zabitlə bərabər 8 aprel, 1918-ci ildə artıq Mosuldan Gəncəyə yola düşmüşdü.

# yaddaşı

Azərbaycan torpaqlarına daxil olarkən xalq tərəfindən sevinc və coşqu ilə qarşılanan Nuru Paşa 25 may, 1918-ci il tarixində Gəncəyə gəldi. 1918-ci il, iyunun 15-də isə Mosuldakı VI Ordu qərargahından Qafqaz İslam Ordusunun qurulmasına kömək məqsədilə 149 zabit, 488 çavuş, gizir, əsgər göndərildi. Lakin Gəncədə Nuru Paşanın yeni hökumətə etimadsızlıq göstərməsi ilə əlaqədar olaraq, kabinet böhranı yarandı, Azərbaycanın müstəqilliyi təhlükə altına düşdü.

Gərgin danışıqlardan sonra türk komandanlığı Milli Şura tərəfindən yeni hökumət kabinetinin təşkil olunmasına, Milli Şuranın isə səlahiyyətlərini yeni təşkil olunmuş hökumətə verməklə özünü buraxmasına razılıq verdi. İyunun 17-də F.Xoyskinin başçılıq etdiyi ikinci hökumət kabineti yaradıldı. 12 nəfərdən ibarət olan hökumət kabinetinə əvvəlki hökumətin altı üzvü və altı yeni nazir daxil oldu. Onlardan F.Xoyski Nazirlər Şurasının sədri və Ədliyyə naziri, Məmmədhəsən Hacınski Xarici işlər naziri (müvəqqəti olaraq dövlət müfəttişi),

Azərbaycanın hər tərəfində türklərlə ermənilər arasındakı mövcud gərginlik Gəncədə də hiss edilirdi. Şəhərin qərb hissəsində türklər, şərq hissəsində isə ermənilər yaşayırdı. Şəhərin iki tərəfi arasındakı əlaqələr kəsilmişdi. Gəncə çayı ermənilər və türklər arasında sərhəd rolunu oynayırdı.

Nuru Paşa Gəncə ermənilərini itaət altına almaq üçün onların silahlarını toplamaq əmrini vermişdi. Ancaq ermənilər silahlarını vermək istəmirdilər. Onların müqavimətini ancaq güc tətbiqi ilə qırmaq olardı. Buna isə imkan yox idi. V Qafqaz diviziyasının Gəncəyə gəlməsi gözlənilirdi. Mayor Zehni bəyin komandanlığındakı II süvari alayı 6 iyun, mayor Cəmil Cahid bəyin komandanlığındakı IX Qafqaz alayı 10 iyun günü Gəncəyə daxil oldu. Bu iki alaydan ibarət birliyə “Gəncə qarnizonu” adı verildi.

Gəncə qarnizonu 11 iyunda ermənilərin silahlarını toplamaq, onları itaət altına almaq məqsədilə hərəkətə başladı. Bu vaxt ön dəstədən ayrılaraq ermənilərə əsir düşən 15 piyada süvari əsgər ermənilər tərəfindən parça-parça doğranaraq şəhid edilmişdi.

Qafqaz İslam Ordusu ilk şəhidlərini Gəncə şəhərində verdi. Möhtəşəm dəfn mərasimindən sonra şəhidlərin cənazəsi şəhərin Cümə məscidinin həyətində torpağa tapşırıldı. Nuru Paşa ermənilərin qan tökülmədən təslim olmasını tələb edən bir məktub göndərmiş və onların can və mal toxunulmazlığının türk ordusu tərəfindən qorunacağını bildirmişdi. Ancaq ermənilər müqavimətdən əl çəkmədilər.

Nəhayət, Nuru Paşanın əmri ilə topların köməyi ilə mühasirə halqası daraldıldı. 12 iyunda müqavimətin mənasız olduğunu görən ermənilər silahlarını təhvil verməklə təslim oldular. Qafqaz İslam Ordusu komandanı Nuru Paşa ermənilərin silahlarının alınması əməliyyatında qan tökülməsinə mümkün qədər yol verməməyə çalışdı.

Ancaq Bakı XKS öz fəaliyyəti ilə Qafqazda mürəkkəb siyasi vəziyyəti daha da kəskinləşdirərək “ Vətəndaş müharibəsini ” yenidən alovlandırdı. Bakı Sovetinin hərbi və dəniz işləri üzrə komissarı T.Korqanov iyunun 6-da Gəncə üzərinə yürüş əmri verdi.

Ümumiyyətlə, kommuna dövründə, demək olar ki, bütün siyasi və iqtisadi məsələlər yalnız silah gücünə həll edilirdi.

Bakı XKS-nin Gəncə üzərinə yürüşünün məqsədi türk hərbi dəstələri toplanana qədər Azərbaycan istiqlaliyyətinin beşiyi olan Gəncəni dağıtmaq idi.

İyun ayının 12-də S.Şaumyan teleqraf vasitəsilə Leninə və Stalinə Bakı hərbi hissələrinin Gəncəyə hücumu barədə məlumat verdi.

Gəncə üzərinə hücumla bağlı azərbaycanlılara qarşı soyqırımı müharibəsi qəzalarda yenidən təkrar olmağa başladı. Hərbi əməliyyatların getdiyi ərazilərdə müsəlman əhali yeni talanlara məruz qalmağa başladı. Bu, Bakı Soveti ordusu əsgərlərinin 70 faizinin, zabit heyətinin isə bütünlüklə ermənilərdən ibarət olması ilə bağlı idi.

Məhz bunun nəticəsi idi ki, Gəncə üzərinə yürüş yolboyu erməni əsgərlərinin müsəlman əhaliyə qarşı qarətçilik və zorakılığı ilə müşayiət olunurdu. Buna görə də, Azərbaycan kəndlərinin əhalisi onlara yaxşı münasibət bəsləmir, öz din qardaşlarını – türkləri gözləyirdilər.

# dövlətçiliyində rolu

Xudadat bəy Məlikaslanov Yollar naziri (müvəqqəti olaraq poçt və teleqraf naziri), Xosrov Paşa Sultanov Əkinçilik naziri, Nəsib bəy Yusifbəyli Xalq maarifi və Dini etiqad naziri, Ağa Aşurov Ticarət və sənaye naziri (müvəqqəti olaraq ərzaq naziri), Xudadat bəy Rəfibəyli isə Səhiyyə və Himayədarlıq naziri təyin olundu.

Beləliklə, “İyun böhranı” Milli Şuranın fəaliyyətinin müvəqqəti olaraq dayandırılması ilə nəticələndi. Bununla Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanıldı. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətdə ilk uğurlu addımı isə 1918-ci il, iyunun 4-də Türkiyə ilə sülh və dostluq müqaviləsinin imzalanması oldu.

Azərbaycan hökumətinin qarşısında duran ən mühüm vəzifələrdən biri Bakını erməni-bolşevik zülmündən azad etmək və Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi. Bu məqsədlə, yaranmış gərgin vəziyyəti nəzərə alan hökumət iyun ayının 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. Nuru Paşa Gəncədə olduğu müddətdə öz hərbi qərargahını qurub Azərbaycan Xalq Cümhuriyyətinin istiqlaliyyətini qoruyub saxlamaq üçün əməli addımlar atmağa başladı.




V Qafqaz Diviziyasının tamamının cəbhəyə çatdığı bir dövrdə rus-erməni qüvvələri iyun ayının 10-da Cənubi-Qafqaz dəmir yolu xətti boyunca hücuma keçərək, Hacıqabul - Kürdəmir – Müsüslü istiqamətində irəlilədilər. İyun ayının 12-də Kürdəmir işğal olundu. Bolşeviklərin Qafqaz İslam Ordusunun yerləşdiyi Gəncənin 150 kilometrliyindəki Göyçay qəsəbəsinə qədər irəliləməsi böyük bir təhlükə yaratmışdı. Şimal yolu ilə Göyçaya yaxınlaşan bolşevik rus və erməni qüvvələri keçdikləri erməni yaşayış məntəqələrindən də canlı qüvvə toplayaraq 28-30 minlik bir orduya çevrilmişdi. Qeyri-bərabər döyüşdə 29-cu türk taburu ilə üz-üzə gələn düşmən bu taburun 200 əsgərini şəhid etdi. İslam Ordusunun komandanlığı bolşeviklərə qarşı əsas hücumu 28 iyun tarixində başlamağı qərarlaşdırmış , bu tarixə kimi toplana bilən süvari və piyada köməkçi birliklər cəbhəyə cəlb edilmiş , V Qafqaz Diviziyasının arxada qalan birlikləri Göyçaya çataraq hücum üçün silah və sursat təminatı aparmışdı. 28 və 29 iyunda döyüşlər, xüsusilə səhər və axşam vaxtı bütün şiddətilə davam etdi. Ancaq bu bölgədə havanın hərarətinin yüksək olması hər iki tərəfi günorta vaxtı döyüşə ara verməyə məcbur etdi. Susuzluq isə son həddə çatmışdı.

30 iyun günü V Qafqaz diviziyasının sol cəbhəsi boyunca erməni məntəqələrindən irəliləyən bolşevik qüvvələri, diviziyanın arxasında qalmış Göyçay qəsəbəsinə səhərə yaxın basqın edərək çox təhlükəli bir vəziyyət yaratmışdı. Dərhal ehtiyatda olan əsgərlərdən köməkçi qüvvə təşkil edilərək, mayor Əhməd Həmdi bəyin komandanlığı altında Göyçaya cəlb olunmuşdu. Eyni zamanda, Gəncədə olan 25-ci tabur ilə Göyçay yaxınlığında -- Qaraməryəmdəki və Ağdaşdakı birliklərin bir qismi də Göyçaya göndərildi.

Lazımı qüvvə toplandıqdan sonra top və pulemyotların köməyi ilə hücuma keçən türk qoşunları düşməni mühasirəyə aldı və bolşeviklərin şimaldan irəliləyən bu qanadının böyük bir hissəsini məhv etdi.

Göyçay məğlubiyyətindən sonra Qaraməryəmə çəkilməyə çalışan bolşevik birlikləri 13-cü Qafqaz alayı tərəfindən təqib olunaraq, cəbhədə üstünlüyü ələ keçirən V Qafqaz Diviziyasının digər birliklərinin birgə hücumu nəticəsində Qaraməryəmdə də dayana bilmədilər.

Beləliklə, Göyçay məntəqəsində ermənilərin itaət altına alınmasından əlavə, Göyçay və Qaraməryəm əraziləri bolşeviklərdən türkün al qanı ilə təmizləndi.

Göründüyü kimi, V Qafqaz Diviziyasının Gəncəyə çatdıqdan dərhal sonra Göyçayın yaxınlığına qədər irəliləyən bolşeviklərə qarşı cəbhə xəttini tutması təmin edilmişdi. Bu ağır şərtlər altında V Qafqaz Diviziyasının Azərbaycana göndərilməsində vaxt itkisinə yol verilsəydi, bolşeviklərin Gəncəni işğal etmələri qaçılmaz bir reallıq idi, əgər Azərbaycana Osmanlı köməyi olmasaydı, bolşeviklərin bu əməliyyatı ilə Bakı ilə Ermənistan arasındakı maneə ermənilərin xeyrinə birdəfəlik aradan qaldırıla bilərdi.

**Mahmud MAHMUDZADƏ**


Con Perkins

**Xəzinədarlıq MAİN-i ilkin mərhələdə məsləhətçi kimi işə cəlb etmişdi. Məni çağırıb dedilər ki, qarşıda görməli olduğum çox mühüm bir iş var, bütün öyrənəcəklərim, edəcəklərim çox məxfi qalmalıdır. Mənim nöqteyi-nəzərimdən bütün bunlar məxfi əməliyyatı daha çox xatırladırdı. Əvvəlcə elə bilirdim ki, MAİN aparıcı məsləhətçidir, lakin ora gedib çıxandan sonra başa düşdüm ki, biz işə cəlb olunmuş çoxsaylı ekspert təşkilatlarından yalnız biriyik.**

## Con Perkins "İqtisadi killerin etirafları" sənədli romanından

# "Səudiyyənin pullarını necə mənimsədik"

*(Əvvəli ötən sayımızda)*

Hər şey çox məxfi saxlandığından, mən xəzinədarlığın digər məsləhətçilərlə danışıqlarından xəbərdar deyildim və bu misilsiz tədbirlərdə öz rolumu qiymətləndirə bilmirdim. İndi isə bilirəm ki, bu əməliyyat EK-lər üçün yeni standartları müəyyənləşdirdi və imperiya maraqlarının yeridilməsi sahəsindəki ənənəvi yanaşmalarda innovativ alternativlər yaratdı. Mən həm də bunu bilirəm ki, gördüyüm iş sayəsində işlənib-hazırlanan ssenarilərin əksəriyyəti son nəticədə həyata keçirildi və MAİN öz mükafatını ilk alanlardan oldu – Səudiyyə Ərəbistanında çox sərfəli müqavilələr qazandıq, şəxsən mən özüm isə həmin il mükafat aldım.

Mənim işim ölkənin infrastrukturuna nəhəng vəsaitlərin investisiya edilməsi nəticəsində meydana çıxacaq dəyişikliklərin proqnozlaşdırılması və investisiya ssenarilərinin planlaşdırılması idi. Qısasını desəm, məndən xahiş etdilər ki, Səudiyyə iqtisadiyyatının inkişaf etdirilməsinin nəzərdə tutulduğu bu prosesdə Amerika layihə və inşaat şirkətlərinin mənimsəyəcəyi yüz milyonlarla dollar vəsaitin əsaslandırılması üçün bütün yaradıcı təxəyyülümü səfərbər edim. Məndən onu da xahiş etdilər ki, bu işi şəxsən özüm, əməkdaşlarımın köməyi olmadan görüm. Mən departamentimizdən bir neçə mərtəbə yuxarıda, kiçik yığıncaq salonunda yerləşdirilmişdim. İşimin milli təhlükəsizliklə əlaqədar olduğunu, MAİN-ə böyük potensial gəlirlər gətirəcəyini də mənə söyləmişdilər.

Mən başa düşürdüm ki, əsas hədəf ölkəni həmişə olduğu kimi, heç vaxt çıxa bilməyəcəyi borc girdabına salmaq deyil. Burda əsas məqsəd Birləşmiş Ştatların xəzinəsindən çıxmış neft dollarlarının çox böyük bir hissəsini geri qaytarmaqdan ibarət idi. Bu prosesin gedişi ərzində Səudiyyə Ərəbistanı oyuna daxil edilməli, onun iqtisadiyyatı bizimki ilə elə dərindən çulğaşmalı idi ki, Qərbə meyillənməsi, bizə simpatiyası və sistemimizə inteqrasiyası əbədilik təmin olunsun.




Mən işə başlayan kimi anladım ki, Ər-Riyad küçələrində dolaşan keçilər simvolik bir açardır, səudiyyəlilərin müasir dünyaya girişi üçün başlanğıc nöqtəsidir. Bu keçilər sanki dil açıb yalvarırdı ki, onları həmin bu inkişafa can atan krallığa az-çox layiq olan başqa bir şeylə əvəz edək. Mən həm də bundan xəbərdar idim ki, OPEK iqtisadçıları neft çıxaran ölkələri inandırmağa çalışırlar ki, xam neftdənsə, ondan istehsal olunan məhsulların ixracına keçsinlər. Onlar öz ölkələrini neft emalı sənayesini gücləndirməyə həvəsləndirir, nisbətən ucuz olan xam neft yerinə bahalı neft məhsullarını bütün dünyaya satmağın başlıca məqsəd olduğunu söyləyirdilər.

Bu amil elə bir strategiyaya yol açırdı ki, onu həyata keçirsək, hamı udacaqdı. Keçilər təbii ki, yalnız bir çıxış nöqtəsi idi. Neft gəlirləri Amerika şirkətlərinin inşa etdiyi ən müasir zibiltoplama və emal müəssisəsinin yaradılmasına yönəldilə bilərdi. Elə bir müəssisə qurulmalı idi ki, səudiyyəlilər onunla haqlı olaraq qürurlana bilsinlər.

Mən tənliyin bir tərəfi olan keçilər barədə fikirləşdim. Amma kral nəslinin, Xəzinədarlığın və MAİN bosslarının gözündə bir uğur formulu kimi görünən eyni modeli ölkə iqtisadiyyatındakı tamam başqa sahələrə də tətbiq etmək mümkün idi.

Bu formul vasitəsilə pullar, xam neftin eksport məhsullarına çevrilməsi sahəsində ixtisaslaşan sənaye sektoruna yönəldilərdi. Səhralarda texnoparklarla əhatə olunmuş nəhəng neft-kimya kompleksləri inşa edilməliydi. Təbii ki, bunun üçün çox güclü, neçə giqavattlıq elektrik stansiyalarının, elektrik xətlərinin, şosse yollarının, neft kəmərlərinin, telekommunikasiya və nəqliyyat sistemlərinin, təyyarə meydanlarının, limanların, xidmət sferasının və bütün təkərləri birdən hərlətməyə imkan verən başqa infrastruktur elementlərinin inkişafı təmin olunmalı idi.

Biz ümid edə bilərdik ki, bu plan bütün dünyada bir təqlid obyektinə çevrilsin. Dünyanı gəzən səudiyyəlilər bizə mədhiyyələr oxuyar, başqa ölkələrin liderlərini Səudiyyə möcüzəsinə baxmağa çağırar, əksəriyyəti OPEK üzvü olmayan həmin liderlər isə eyni möcüzəni onlarda da yaratmağımız üçün bizə müraciət edərdilər. Biz də işə Dünya Bankını cəlb edər, cürbəcür borclandırma mexanizmlərini işə salardıq. Qlobal imperiya xeyli qazanardı...

Bu ideyalar üzərində işləyərkən keçilər barədə düşünürdüm, səudiyyəli diplomatın sözləri beynimdən çıxmırdı: "Səudiyyəlilərin qüruru onlara imkan vermir ki, zibil yığışdırmaq səviyyəsinə ensinlər". Bu ifadəni dəfələrlə, müxtəlif kontekstlərdə eşitmişdim. Aydın görünürdü ki, səudiyyəlilər öz adamlarından qara işdə, məsələn, sənayedə, istənilən layihədə fəhlə kimi istifadə etmək fikrində deyillər. Əvvəla, onlar sayca çox az idi. Üstəlik Səud ailəsi öz üzərinə belə bir öhdəlik götürmüşdü ki, təəbələrini fiziki əməklə bağlı olmayan həyat səviyyəsi ilə təmin edəcək. Səudiyyəlilər idarə edə bilərdilər, amma sənaye, inşaat fəhləsi kimi çalışmağa heç meyilli deyildilər. Odur ki, işçi qüvvəsini onun ucuz olduğu, buna ehtiyac duyan başqa ölkələrdən idxal etmək lazım idi. Fəhlələr imkan dairəsində digər Yaxın Şərq, ya da islam ölkələrindən gəlməli idi. Məsələn, Misir, Fələstin, Pakistan və Yəmən kimi ölkələrdən.

Bu layihədən mümkün inkişaf üçün daha bir hiylə, fırıldaq, biclik çıxdı. Fəhlələrin yerləşməsi üçün nəhəng komplekslər, ticarət mərkəzləri, xəstəxanalar, yanğınsöndürmə və polis məntəqələri, su təchizatı və kanalizasiya sistemləri, nəqliyyat şəbəkəsi tələb olunacaqdı. Faktiki olaraq, səhranın ortasında müasir şəhərlər yaradılmalı idi. Orda həm də texnologiyaların inkişaf etdirilməsi üçün məsələn, suyu duzsuzlaşdıran müəssisələr, qısadalğalı sistemlər, səhiyyə və kompüter texnologiyaları üzrə elmi mərkəzlər yerləşdirmək lazım idi.

Səudiyyə Ərəbistanı, hər bir layihə şirkətinin çin olmuş arzusu idi – bunu layihələndirmə və inşaat biznesində olan hər kəs başa düşərdi. O, tarix boyu görünməmiş iqtisadi imkanlar yaradırdı: qeyri-məhdud resurslara malik, zəif inkişaf etmiş və müasir dünyaya sürətlə daxil olmaq arzusu olan bir ölkə.

Etiraf etməliyəm ki, bu işimdən zövq alırdım. Səudiyyə Ərəbistanı haqda etibarlı məlumatlar nə Boston kitabxanasında, nə də başqa yerdə var idi – deməli, bu kontekstdə ekonometrik modellərin tətbiqini əsaslandıran bir şey tapmaq mümkün olmayacaqdı. Əslində, işin həcmi - bütöv bir millətin əvvəllər görünməmiş miqyasda sürətli və tam transformasiyası - onu nəzərdə tuturdu ki, hətta belə məlumatlar olsa belə, bura üçün keçərli sayılmazdı.

Amma kimsə bizdən həcmin təhlilini gözləmirdi - ən azından, oyunun bu mərhələsində. Mən, sadəcə, öz təxəyyülümü işləməyə məcbur etdim və ortaya krallığın misilsiz gələcəyini əks etdirən bir məruzə qoydum. Elektrik enerjisinin bir meqavattının, şossenin bir milinin, hər bir fəhlə üçün su təmizlənməsinin, kanalizasiyanın, yaşayış məskənlərinin, ərzağın, kommunal və sair xidmətlərin dəyərini təxmini hesablayarkən havadan götürdüyüm rəqəmlərdən istifadə etdim. Nəzərdə tutduğum kimi, mən bu smetaları dəqiqləşdirmir, heç bir dəqiq nəticə göstərmirdim. Mənim vəzifəm planların sadəcə təsviri idi - daha dəqiqi, planların özünü yox, onları necə gördüyümü, yaxud nələr edə biləcəyimizi və bütün bunlar üçün lazım olacaq maliyyənin təxmini dəyərləndirilməsini çıxarmaq idi.

Həqiqi hədəflərimiz bir an olsa belə beynimdən çıxmırdı: Amerika şirkətlərinə ödəmələri maksimallaşdırmaq və Səudiyyə Ərəbistanını Birləşmiş Ştatlardan hər mənada asılı olan bir ölkəyə çevirmək. Həmin vəzifələrin bir-birilə necə sıx bağlandığını anlamaq çətin deyildi: bütün layihələr daimi modernləşdirmə və xidmət tələb edirdi; bütün layihələr son dərəcə mürəkkəb idi ki, bu da onları həyata keçirən şirkətlərə məşğulluqları və gələcək inkişaf üçün geniş imkanlar yaradırdı.

Öz işimi irəli aparanda nəzərdə tutulan hər layihə üçün iki siyahı formalaşdırmağa başladım: biri icra olunacaq müqavilələrin, ikincisi onların xidmət və təminat müqavilələrinin siyahısı. MAİN, "Bechtel", "Brown amp; Root", "Halliburton", "Stone amp; Webster" və Amerikanın bir çox başqa layihə və podratçı şirkətləri onilliklər boyu qazanc əldə edəcəkdilər.

*(Davamı gələn sayımızda)*

Aydın Yol
N 39(48) 16.10.2015


# Kamerası ilə tarixi sənədləşdirən ustad



**Oktyabrın 7-də Sovet kinosunun korifeylərindən biri, görkəmli rejissor-operator Cavanşir Məmmədovun anadan olmasından 100 il keçir...**
**O, dövrünün ən nüfuzlu mükafatı olan Lenin mükafatına layiq görülmüş yeganə azərbaycanlı ekran ustasıdır...**
**Cavanşir Məmmədovun filmləri peşəkarlıq səviyyəsinə görə tamaşaçılar və sənətşünaslar tərəfindən indi də yüksək qiymətləndirilir...**
**Babası dabbaq Fərhad Məmi (Məmməd) Şuşanın Hacıyusifli məhəlləsində yaşayır, ailəsinin güzəranını elə məhəllədəki kiçik emalatxanasında gön aşılamaqla təmin eləyirdi. İlk övladı Musa (1893) başqa yol seçmiş, az müddətdə xanəndə kimi şöhrət qazanmışdı; tarzən Məşədi Cəmil Əmirov və kamançaçı Böyükkişi ilə üçlük yaratmışdılar, tez-tez Şuşanın və Qarabağın toy məclislərində iştirak edirdilər.**

## "Qaçaq Nəbi" mahnısına görə sürgün

Xanəndə Musa Şəkinskinin oğlu Cavanşir Birinci Dünya müharibəsinin davam etdiyi ağır günlərdə, 1915-ci il, oktyabrın 17-də dünyaya gəldi. Amma ailənin sevinci uzun sürmədi, körpənin bir yaşı olmamış Türkmənistana sürgün məşəqqəti yaşamalı oldular. Səbəb də toy məclislərinin birində Musanın "Qaçaq Nəbi" mahnısını oxuması oldu.

Musa Şəkinskinin ailəsi çar hökumətinin istəyinə görə Aşqabadda məskən saldı. Az keçmədi ki, tarixin təkəri döndü, çar imperiyası dağıldı, müstəqil dövlətlər yarandı, ardınca da zor gücünə Sovet hakimiyyəti bərqərar edildi. O çətin illərdə Musa kişi ailəsinin güzəranını çətinliklə də olsa təmin edir, Aşqabad məclislərində xalq mahnılarımızı və muğamlarımızı vətən nisgili ilə oxuyurdu.

1932-ci ilin yayında böyük bəstəkarımız Üzeyir Hacıbəyli uşaqlıq illərindən tanıdığı Musa Şəkinskinin Azərbaycana dəvət edilməsi üçün icazə ala bildi. Xanəndə "Şərq konsertləri" proqramında "Bayatı-Şiraz", "Zabul", "Çahargah" muğamlarını ifa etdi. Onda cəmi 17 yaşı olan Cavanşir bir aya qədər Bakıda qonaq qaldı, hətta sürgünə göndəriləndə çox kiçik olduğundan xatırlamadığı Şuşaya da baş çəkdi...

## Kinodan cəbhəyə

Üzeyir bəyin məsləhəti və köməyi ilə Musa Şəkinskinin ailəsi Vətənə qayıtsa da, Cavanşir Aşqabadda qalmaq qərarına gəldi. Səkkizinci sinfi bitirəndən sonra kinostudiyada işləməyə başlamışdı, operator köməkçisi, operator assistenti, ikinci operator kimi sənət pillələrini bir-bir qalxırdı. 1935-ci ildə Aşqabad Kino Texnikumuna qəbul olması ekran sənətinə daha ciddi münasibətinin nəticəsi idi. Cəmi iki ildən sonra isə texnikumu bitirib müstəqil xronika materialları çəkməyə başlamışdı. Onun "Türkmənfilm"də lentə aldığı "Sovet vətənpərvərləri" (1939), "Cigitin oğlu" (1940) sənədli filmləri gələcəkdə gənc kinooperatorun daha böyük uğurlara imza atacağından xəbər verirdi. Amma müharibə hamı kimi, onun da həyatının yönümünü dəyişdi.

Şübhəsiz, kino sənəti də müvəqqəti olaraq, dövrün tələblərinə uyğun şəkildə yenidən qurulurdu. Müharibənin elə ilk aylarında Mərkəzi Sənədli Filmlər Studiyası cəbhə xronikası yaratmaq məqsədi ilə operatorlar qrupu yaratdı. Qrupun tərkibinə bütün müttəfiq respublikaların kinostudiyalarından sənədli kino ustaları daxil edilmişdi. Onlardan biri də 26 yaşlı kinooperator Cavanşir Məmmədov idi.

Çavanşir Məmmədov azərbaycanlılardan ibarət 416-cı Taqanroq diviziyasının tərkibində Avstriyaya qədər döyüş yolu keçdi, "Qırmızı ulduz" ordeninə layiq görüldü, onun lentə aldığı "416-cı" (1943), "Vyana"(1944) sənədli filmləri isə sovet kino salnaməsinin sanballı əsərləri sırasında yer tutdu.

## Bir daha Azərbaycana qayıtmaq üçün getdi...

1944-cü ildə artıq çiyinlərində kifayət qədər həyat və sənət təcrübəsi olan gənc kino ustası ordudan tərxis olunub dinc yaradıcılıq sahəsinə qayıtdı. Onun ilk işi həmin il Bakı kinostudiyası ilə Mərkəzi sənədli filmlər studiyasının birgə çəkdiyi "Xəzərlilər" sənədli filmi oldu (ssenari müəllifləri G. Aleksandrov və N. Bolşakov). Kollektiv yaradıcılıq fəaliyyətinin nəticəsi olan bu ekran əsəri müharibə illərində Xəzər donanmasının qəhrəmanlığından, dənizçilərin vətənpərvərliyindən bəhs edirdi.

1945-ci ildə Bakı kinostudiyasında rejissor Hüseyn Seyidzadənin lentə aldığı, Sovet Azərbaycanının 25 illiyinə həsr olunmuş "Əbədi odlar ölkəsi" (ssenari müəllifləri İmran Qasımov, Sabit Rəhman) bədii-sənədli filmində operator kimi çalışdı. Baş operator Seyfulla Bədəlov, operatorlar Vladimir Yeremeyev, Mirzə Mustafayev, Arif Nərimanbəyov, bəstəkar Tofiq Quliyevlə birgə işi ondan ötrü əsl yaradıcılıq məktəbi oldu.

Daha sonra Aşqabada qayıdan Cavanşir Məmmədov "Türkmənfilm" kinostudiyasında çalışmağa başladı. Onun 1947-ci ildə lentə aldığı "Türkmənistan göylərində" filmi yüksək qiymətləndirildi. Məhz bunun nəticəsi idi ki, 1948-ci ildə təcrübəli ekran ustasına "Türkmənistan SSR-in əməkdar incəsənət xadimi" fəxri adı verildi.

Amma qismətində bir daha Azərbaycana qayıtmaq varmış Cavanşirin. Həmin dövrdə ölkənin hər yerində olduğu kimi, Bakı kinostudiyası da yeni sənədli və bədii filmlərin çəkilişinə hazırlaşırdı...

## Bakı kinostudiyasında uğurlu on il

1950-ci ildə Bakı kinostudiyasında işləməyə dəvət olunan Cavanşir Məmmədovun qarşısında geniş yaradıcılıq üfüqləri açılmışdı. O, həmkarları ilə birgə lentə aldığı "Sovet Azərbaycanı" (Muxtar Dadaşov və Əlisəttar Atakişiyevlə, 1950), "Respublika stadionu" (Xan Babayev və başqaları ilə, 1951) filmlərindən sonra, nəhayət, sərbəst şəkildə "Azərbaycan zeytunu" (1951) və "Azərbaycan kəhərləri" (1953) sənədli lentlərini çəkdi.

Şübhəsiz, o dövrün ən böyük uğurlarından biri görkəmli sənədli kino ustası Roman Karmenlə yaradıcılıq münasibətləri idi. R.Karmen yazıçı N.Osipovun 1951-ci ildə yazdığı "Yeddi gəmi adası" oçerki əsasında sənədli film çəkməyə hazırlaşırdı. Ssenari üzərində rejissorla yanaşı, yazıçı İmran Qasımov da iştirak edirdi. R.Karmen operatorlar A.Zenyagin, S.Medınski, F.Leontoviç (sualtı çəkilişlər üzrə) ilə yanaşı, Cavanşir Məmmədovu da dəvət etmişdi. Məşhur neftçi Mixail Kaveroçkinin başçılıq etdiyi briqadanın dalğalarla, təbiətin nəhəng qüvvələri ilə mübarizəsi və qələbəsi "Xəzər neftçiləri haqqında dastan" (1953) filmində tamaşaçılara sərt və poetik üslubla təqdim olunurdu.

Film 1954-cü ildə Beynəlxalq Kann kinofestivalında münsiflər heyətinin xüsusi diplomuna layiq görüldü. Bu, sovet kinosu ilə yanaşı, Azərbaycan ekran sənətinin də böyük uğuru hesab olunurdu.

O illərdə Cavanşir Məmmədov "Mahnı bayramı" (1954) kimi sənədli film çəksə də, onun bədii kinoda görkəmli ekran ustaları rejissor Tofiq Tağızadə və operator Teyyub Axundov ilə yaradıcılıq əməkdaşlığı da maraqlıdır. T.Tağızadənin "Görüş" (1955) və "Mahnı belə yaranır" (1957) filmlərində T.Axundovla birgə Cavanşirin quruluşçu-operator kimi çalışması nə qədər cəlbedici olsa da, sənədli ekrana olan sevgisini azalda bilmədi. İki film arasında çəkdiyi "Keçmişin şahidləri" və "S.M.Kirov adına körfəzdə" lentləri onun yaradıcılıq meyilinin nəticəsi idi. Təsadüfi deyil ki, "S.M.Kirov adına körfəzdə" filmi 1957-ci ildə Beynəlxalq Venesiya kinofestivalında münsiflər heyətinin xüsusi diplomuna layiq görülməklə, ona daha bir uğur gətirdi...

## Bir daha Roman Karmenlə... və Vətəndən uzaqlarda

1958-ci ildə "Ağ qızıl ustası" və "Təbiətin dostları" sənədli filmlərini lentə alan Cavanşir Məmmədovun sənət taleyində sən demə, həmin il bir daha R.Karmenlə işləmək, daha böyük yaradıcılıq uğuru qazanmaq varmış...

R.Karmen tammetrajlı "Dəniz fatehləri" sənədli filminin ssenarisini İmran Qasımovla birgə yazmış, çəkilişləri aparmaq üçün operatorlar S.Medınski və C.Məmmədovu dəvət etmişdi. Neft Daşlarında lentə alınan həmin ekran əsəri sovet kinosunun böyük uğuru kimi qəbul olundu. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə nümayiş etdirildi, 1960-cı ildə isə hər iki filmin yaradıcılarına Lenin mükafatı verildi, Cavanşir Məmmədov isə, üstəlik, "Azərbaycan SSR-in əməkdar incəsənət xadimi" fəxri adına layiq görüldü.

Bu, artıq onun həyatında yeni bir dövrün başlanğıcı idi...

"Azərbaycan mədəniyyətinin baharı" (1959), "Yeddiilliyin öncülləri" (S.Ələkbərovla birgə, 1960), "İlk müjdələr" (1960) filmləri Cavanşir Məmmədovun Bakı kinostudiyasında son işləri oldu. O, 1960-cı ildə Moskvaya köçdü, taleyini Mərkəzi Elmi-Kütləvi Filmlər Studiyası ilə bağladı.

Amma Azərbaycan mövzusu yaradıcılığının ana xətlərindən biri olaraq qaldı. Onun "Azərbaycan elmi" ( 1969), "Lənkəran" (1970), "Lahıc dağlarında əks-səda" (1971), Abşeron ışıqları" (1974), "Oktyabrın şəfəqləndirdiyi yol" (1977), "Naxçıvan" (1979) sənədli lentləri, eləcə də yaradıcılarından biri olduğu "Kinosəyahət" almanaxı üçün çəkdiyi "Zaqatala etüdləri", "Kür boyunca", "Şuşa", "Bakı", "Şamaxı – buludlar altında şəhər", "Qobustan" süjetləri yüksək peşəkarlıq cəhətdən fərqlənirdi.

Cavanşir Məmmədovun lentə aldığı filmlərin coğrafiyası çox genişdir. O, təbiətlə təmasda olmağı, təbii gözəllikləri ekrana gətirməyi sevirdi. Onun "Qumlar, göllər və dağlar üzərindən" (1967), "Udokanın mis dağları" (1974), "Varşava" (1975), "Ulan-Bator (1976), "Şuşenskoye kəndi" (1978) sənədli, "Bakuriani", "Bir il Ryazanda" və s. elmi-kütləvi filmləri görkəmli ekran ustasının bu sevgisini duymağa imkan verir.

Cavanşir Məmmədovun Azərbaycan sevgisi unudulmadı. Görkəmli ekran ustası 1982-ci ildə "Azərbaycan SSR-in Xalq artisti" fəxri adına layiq görüldü.

Cavanşir Məmmədov 1997-ci ildə dünyasını dəyişdi.

**Nəriman ƏBDÜLRƏHMANLI**

**Sözə, bədii mətnlərə tarixin bütün dönəmlərində ehtiyac olub. Söz – zamanın biləyindən yapışan, onun nəbzini yoxlayan bir təbib olub həmişə. Gərdişin əli hər yerdən üzüləndə, dünya qələmin gücünə, bədii sözə söykənib. Bunu zaman-zaman sınaqlardan keçən ədəbiyyatımız da təsdiqləyir. Təəssüf ki, yazılan gözəl əsərlərlə yanaşı, bu günün mənzərəsi fonunda yaşanan xaotik bir söz bumuna da şahid oluruq. Bu, əsl sözə qiymət verən oxucularda bir xəyal qırıqlığı yaradır. Ədəbi mühitdə yaşananlar, məsələn, yaşından, təcrübəsindən, istedadından asılı olmayaraq, romançılığa aludə olmağın bu gün bir dəb halını alması, nəticədə sözün urvatdan düşməsi ədəbiyyatsevərləri məyus edir. Belədə klassiklərimizin tarixin dolanbaclarından keçib gəlmiş əsərlərinə bir daha üz tutmağa dərin ehtiyac duyulur. Bu baxımdan, böyük sənətkarlarımızın əsərlərindən örnəklər verməyi planlaşdırmışıq. Azərbaycan ədəbiyyatının görkəmli ədiblərindən olan Şıxəli Qurbanovun "Telefon zəngləri" hekayəsi ilə missiyamızı davam etdiririk.**



Şıxəli QURBANOV

# Telefon zəngləri

## (hekayə)

Necə deyərlər, hər adamın bir şeydən xoşu gəlir.

Mən də iki il olardı ki, telefon dəlisi idim. Evə telefon çəkdirmək həvəsi bütün planlarımı alt-üst eləmişdi.

Desəm ki, hətta bu arzu evlənmək məsələmi də təxirə salmışdı, inanın. Fikirləşirdim ki, telefonum olsa, daha mənə zaval yoxdu.

O ki qaldı evlənmək, yəqin ki, bu məsələ nə qədər çətin olsa da, telefon çəkdirməkdən asan olar.

Hələ indiyədək bir kişiyə zaqsda deyən olmayıb ki, "siz texniki səbəblərə görə evlənə bilməzsiniz".

Başınızı nə ağrıdım, nəhayət, bir gün arzuma çatdım. Usta telefonu danışmaq xəttinə qoşub gedən kimi dəstəyi götürdüm.

Məndən olsaydı, hər yerə zəng çalıb car çəkərdim ki, telefonum var! Amma tərs kimi ha çalışdım, bir dənə də telefon nömrəsi yadıma sala bilmədim.

Dəstəyi yerinə qoyub rahatlıqla şam elədim və belə qərara gəldim ki, bir balaca dincəlim, canımın ağrısı çıxsın.

Sözün düzü, bu vaxta qədən mən çimir almağın ləzzətini bilmirdim. Taxtın üstünə uzanan kimi elə bildim ki, məni beşikdə yırğalayırlar, kirpiklərim çoxdan bəri bir-birinin həsrətində olan dostlar kimi qovuşdular.

Yuxuda gördüm ki... Yəqin, fikirləşəcəksiniz, bu iki daşın arasında nə yuxu?! Mənim yerimdə olsaydınız, əlbəttə, belə deməzdiniz. Yuxuda bədheybət bir telefon gördüm.

Bəli, bəli, telefon! O qədər nəhəng idi ki, onu güclə tanıya bildim. Zənginin səsi aləmi bürümüşdü.

Qulaqlarımı tıxadım, səs kəsilmədi ki, kəsilmədi. Yuxudan hövlnak ayıldım, ayılan kimi də yuxum çıxdı.

Mizin üstündəki telefon elə çığırırdı ki, uzaqdan baxan olsaydı, deyərdi, yəqin, bu yazığın aylarla haqqı verilmir. Heç bilmirəm dəstəyi nə vaxt qapıb qulağıma yapışdırdım.

- Bəli!
- Ququş, sənə qurban olum! Nə olar, bu dəfə də sən gəl!
- Bağışlayın, siz hara zəng...
- Kimsə cır səsi ilə qulağıma çığırdı, elə bil bədənimə elektrik cərəyanı buraxdılar.
- Vətəndaş, mane olma, qoy işimizi görək! Alo, alo..
- Hi... hi...
- Axı siz hara zəng?..
- Sənə nə var?
- Necə yəni... Mən bilməyim ki...
- Ə kişi, mədəniyyətin olsun, çıx telefondan bayıra!

Dəstəyi yerinə qoyub, özümü taxtın üstünə saldım. Mənə elə gəldi ki, telefon zənginin üstünə oturdum. Çünki oturmağımla telefonun haray salmağı bir oldu. Rezin kimi dik atıldım.

- Alo!
- Zivulyanı, zəhmət olmasa.
- Zivulya kimdir?
- Alo!
- Saxlamışam, tez gəl apar!
- Nəyi?
- Sən deyən qarnituru.
- Qarnitur nədir?
- Mən ölüm, zarafatı boşla, özün də tez gəl, min göz baxır.
- Ay yoldaş!..
- Dud... dud... dud...

Dəstəyə elə tərs-tərs baxdım ki, dili olsaydı, bəlkə mənə ağır bir söz də deyərdi. Hə, nə başınızı ağrıdım, taxtın üstündə yenicə yerimi rahatlamışdım ki, telefon bir də zəng çaldı. Öz-özümə – durmayacağam, - dedim. Amma bu zəng o biri zənglərə oxşamırdı. Ardıarası kəsilmədən çalırdı. Əlacım kəsildi, yenə ayağa qalxdım.

- Alo!!!
- Zınq, zınq... zınq...
- Alo?!
- Tbilisini qoşuram. Alo, Tbilisi! Danışın, Tbilisi!

Qulaqlarıma inanmadım. Dayan görüm... Yox canım, bu ola bilməz. Bəlkə... yox, bu da ola bilməz...

- Alo, Tbilisini qoşuram. Danışın, vətəndaş!
- Hi... hi... yazıq Zivulya deyirdi ki, atamda yaman yumor var, inanmırdım.
- Bacı, siz...
- Xahiş eləyirəm, qızınızı bir dəqiqə...
- Nə qız? Məni narahat eləməyin. Mən evlənmişəm ki, qızım da ola?
- Siz ki, bu mədəniyyətin sahibisiniz, heç inanmıram ki, evlənəsiniz!..
- Bura bax.
- Dud... dud... dud.

Dişim bağırsağımı kəsə-kəsə dəstəyi yerinə qoydum. Mizdən yenicə aralanmışdım ki, telefon elə öyrənmiş çağa kimi otağı başına götürdü...

- Alo, alo, alo!!!
- Vətəndaş, imkan verin, nə alo-alo salmısınız?! Tbilisi, Tibilisi, alo, Tbilisi!..

Vətəndaş, dəstəyi yerinə qoyun!

Dəstəyi qoymağımla təzədən götürməyim bir oldu.

- Bəli!
- Zəhrimar bəli, dərd bəli! İndi mən bildim, sən niyə bizi gətirib bura atmısan. Bircə onu görməyəcəksən, cüvəllağı!
- Alo, alo!!!
- Qulaq as, alo-alo salma, vicdansız!
- Bacı, siz hara zəng çalırsınız?
- Öz xarabama!
- Siz axı başqa yerə düşmüsünüz!..

Deyəsən, bu axşam mənimki danlamaqdan gəlib.

- Zınq... zınq.
- Alo!
- İki maşın əla taxta göndərdim bağınıza.
- Bura bax!
- Arxayın olun. Bu rübdə xeyli qənaətimiz var, sabah da fəhlə göndərərəm, qoy hovuzu qurtarsınlar, sonra...

Telefon dəstəyini hirslə yerinə qoydum. Amma, deyəsən, yeri narahat oldu, heç əlimi ondan ayırmamış bir ağız zingildədi.

- Alo!!!
- Deyəsən, bayaq adboy oldu. Yadımdan çıxdı soruşam. Rüblük planın 3-4 faizi kəsirdə qalır, yenə planı girdələyək, ya necə?

Deməli, belə... Bundan sonra mənim işim-peşəm yanlış zənglərə cavab vermək olacaq?! Gözüm yazı stolunun üstündəki sanatoriya vərəqəsinə sataşanda sevindim ki, heç olmazsa bir ay bu telefon zənglərini eşitməyəcəyəm.

- Zınq...
- Nə var, nə istəyirsiniz?
- Vallah, bizi öldürsəniz də haqqınız var. Heç cür mümkün eləyə bilmədik. Kurorta nə vaxt gedirsiniz?
- İki gündən sonra.
- Söz verirəm ki, xəcalətinizdən teleqrafla çıxım. Bir həftəyə çatar.
- Nə çatar?
- Haqqınız... Ötürməyə gələcəkdim, amma qorxdum, söz-söhbət olar. Alo... alo... yoldaş Haramzadə, yoldaş Haramzadə...

Dəstəyi yerinə tulladım. Amma sonra özüm də tutduğum işə peşman oldum. Axı yazıq telefonun nə təqsiri?..

Bu dəfə artıq taxta yox, paltarasana yaxınlaşdım. Papağımı götürüb qapıya yönəldim. Mən qapını açana qədər telefonun növbəti zəngi özünü yetirdi.

- Alo!
- Sizi doğum evindən narahat edirlər. Bağışlayın, mümkünsə, yoldaşınız bir azca da dözsün; narahat olmayın, ona yer hazırlamışıq. Təsəvvür edə bilərsiniz ki, o artıq xəstəxanadadır.
- Bura bax, siz...
- Xahiş eləyirəm hirslənməyin, niyə hirslənirsiniz? Təcili yardım maşını gedib inventar gətirməyə, gələn kimi göndərərik, xəstəni gətirər. Di sağ olun. Məni o biri telefona çağırırlar. Dud... dud... dud...

Dəstəyi mizin üstünə atıb evdən çıxdım. Nədənsə küçədə də özümü çox narahat hiss edirdim. Telefon zəngləri hələ də qulağımda zingildəyirdi.

# Qori müəllimlər seminariyasında
## (Memuardan bir parça)

**Əli TEREQULOV**

**...Xatirimdədir, yoldaşlarımızdan V. Vəliyev adlı birisi not əlifbasından, ton və qammalardan baş açmadığı üçün bütün qammaları eyni tonda oxuyur, do-dan si-yədək notlarda oxuduğunu güman edərək, tədricən səsini yüksəldirdi. O qədər cəhd göstərirdi ki, si notunda artıq səsi xırıldamağa başlayırdı. Müəllim ona nə qədər izah edirdisə, başa sala bilmirdi ki, iş səsə güc verməkdə deyil, mahnının tonunu qaldırmaqdadır...**

**Oxumaq, Avropa musiqi alətlərində çalmaq, orkestrlərdə iştirak etmək və arabir Tiflisə gedib opera tamaşalarına baxmaq Avropa musiqisini, onun nəzəriyyə və praktikasını mənimsəməkdə bizim üçün ilk təcrübə məktəbi oldu.**

Şərq musiqisi və oxumağı sahəsində isə yoldaşlarımız arasında Üzeyir ən bilici və gözəl ifaçı idi.

Bayram axşamlarında, bazar günlərində tələbkar seminariya rəhbərləri bizi bir neçə saatlığa şəhər kənarına gəzməyə buraxdığı zaman azərbaycanlı dostlar və həmyerlilər Üzeyirin və yaxşı muğamat ifaçısı olan Balabəy Məmmədbəyovun oxumasından böyük zövq alırdılar.

Seminariyada təhsilimizin son illərində, məşğələlərdənkənar saatlarda, yemək salonunda Üzeyir yaxın yoldaşlarının iştirakı ilə «Şəbi-hicran» havasını xorla oxumağa səy göstərirdi. Pis alınmırdı və bu iş yoldaşlarının çox xoşuna gəlirdi. Sonralar «Şəbi-hicran»dan Üzeyir Hacıbəyov «Leyli və Məcnun» operasının müqəddiməsində istifadə etdi.

Üzeyirə, Müslümə və yoldaşlarımızdan bəzilərinə qış və yaz tətillərində evə getmək həmişə müyəssər olmurdu. Belə vaxtlarda onlar pansionatda qalırdılar. Bəzən bir neçə günlüyə Tiflisə, mənim yanıma gəlirdilər.

Gələndə, əlbəttə, skripkalarını da özləri ilə gətirirdilər və biz günlərimizi çox şən keçirirdik. Operalardan duetlər, triolar və ayrı-ayrı parçalar bir-birini əvəz edirdi. Operaya getmək bizim üçün ən böyük sevinc olurdu. Tamaşa bizə ləzzət verir, həyəcanlandırırdı. Sonra uzun müddət opera tamaşasının müxtəlif parçaları, ariyaların ifası, aktyorların ustalığı müzakirə edilirdi.

Operaya belə gedişlərdən birində aktrisa Qaşinskayanın Traviata rolunda çıxışı bizə dərin təsir bağışladı. Bunun üstündən xeyli illər keçəndən sonra belə, onu xatırlayıb vəcdə gəlirdik.

Çox zaman boş vaxtlarımızda ucadan kitab oxuyur, təhlil edir, nə vaxtsa oxuduğumuz kitablar haqqında söhbət aparırdıq. Bu sahədə böyük mübahisələrimiz də olurdu. Biz rus və Qərbi Avropa klassiklərinin çox əsərlərini oxumuşduq, özü də həmin əsərləri növbə ilə ucadan, ifadəli oxumaq sənətində bir-birimizi üstələməyə çalışırdıq.

Üzeyir daha çox Qoqolla, onun yumoru ilə maraqlanırdı. Ümumiyyətlə, yumor Üzeyirə xas idi və hələ seminariya illərində özünü büruzə verirdi. Qori seminariyasında təhsilimizin son illərində yazdığı yumoristik şeir uzun müddət gülüş və zarafat mənbəyinə çevrilmişdi.

Şeirin yazılmasına aşağıdakı hadisə səbəb olmuşdu: yuxarı sinif şagirdi olduğumuz zaman artıq ikinci sinifdən seminariya nəzdindəki ibtidai məktəbə təhkim edilmişdik. Burada biz azyaşlı uşaqlarla tərbiyəvi iş aparmalı, geri qalanlara kömək etməli, müəllimin nəzarəti altında ümumqrup məşğələləri keçirməli, məktəbdə növbə çəkməli idik və s...

Bir dəfə bizim tatar şöbəsinin çox xəsis olan inspektoru şagirdlərin başını qırxdırmaq haqqına qənaət etmək məqsədilə (biz şəhər bərbərxanasında məktəbin hesabına başımızı qırxdırırdıq) evini axtarıb, paslanmış bir dəllək maşını tapdı. Onu mənə verib dedi ki, bununla uşaqların saçını qırxım. O vaxtadək heç zaman baş qırxmaqla məşğul olmamışdım.

Buna baxmayaraq, intizamlı bir şagird kimi ciddi görkəm alıb, mənə verilən tapşırığı yerinə yetirməyə başladım. Uşaqların öz iştirakı ilə sadə «dəlləkxana» düzəldib, işə girişdim.

Paslanmış maşın işləmək istəmirdi. Tükləri tutub saxlayır, qırxmır və geri də buraxmırdı. Çox səy göstərməyimə baxmayaraq, bir uşağın belə, başını qırxa bilmədim. Lənətə gəlmiş maşın cırıldayır, tükləri əzib dartır, zavallı uşaq isə ağrıdan inildəyirdi. Maşını uşağın tükündən birtəhər qoparan kimi, uşaq əlimdən çıxıb, qışqıra-qışqıra həyətə qaçırdı.

Xülasə, bu qayda ilə bir neçə uşağın başını korlayıb, mənim işimi maraqla izləyən yoldaşlarımın gülüşü altında inspektorun yanına gedib dedim ki, uşaqlardan bir neçəsinin başını korlamışam və onların arasında hörmətdən düşmüşəm. İnspektor uşaqların saçlarını düzəltmək üçün onları şəhər bərbərxanasına göndərməli oldu.

Çoxlu gülüşə və zarafata səbəb olan bu hadisə Üzeyirin yumoristik şeri üçün mövzuya çevrildi. Şer yoldaşlarımız arasında böyük rəğbət qazandı. Azərbaycanca yazılmış bu şer yadımda, təəssüf ki, bütövlüklə qalmayıb. İlk sətirlərini xatırlayıram:

***Ülgücü verdi Məmməd Əliyə***
***ol kafir,***
***Dedi: - Get uşaqları***
***bir-bir çağır:***
***Qırxginən başlarını,***
***ol bizə parikmaxir,***
***Yaz adını o kəsin,***
***gör desə aman olmaz.***

Seminariyada təhsil illəri sona çatırdı. Bizim sinfin şagirdləri əvvəldən axıradək yaxşı oxumuşdular. Qabaqcıl şagirdlərin ön sırasında Üzeyir və Zülfüqar Hacıbəyovlar, Müslüm Maqomayev, Azad Əmirov gedirdilər. Mən də onlardan geri qalmırdım. Sinif jurnallarında adımız əvvəldə yazılırdı (seminariyada qəbul edilmiş qaydaya görə şagirdlərin familiyası jurnalda əlifbaya görə yox, əlaçı olduqlarına görə yazılırdı).

Buraxılış mərasimində seminariya direktoru bizim sinif haqqında tərifli sözlər deyib bildirdi ki, müəllim seminariyalarında işlədiyi uzun illər ərzində ilk dəfədir belə qüvvətli, həm nəzəri, həm də praktiki cəhətdən yaxşı hazırlıqlı gənc müəllimlər dəstəsi buraxır.

1904-cü il iyunun əvvəllərində biz Zaqafqaziya müəllimlər seminariyası ilə vidalaşıb evlərimizə qayıtdıq və təyinat aldığımız xalq məktəblərinə işləməyə getdik.

1906-cı ildə Bakıda Üzeyirlə yenidən görüşdüm və uzun illər boyu davam edən dostluğumuz başladı. Xüsusilə 1907—1908-ci illərdə, Üzeyir «Leyli və Məcnun» operasını yazmağa başlayanda daha tez-tez görüşürdük.

Azərbaycan operası yaratmaq və onu səhnəyə qoymaq ideyası o zaman o qədər də çox olmayan Azərbaycan ziyalıları, xüsusən gənclər arasında (şübhəsiz ki, Üzeyirin keçmiş məktəb yoldaşları olan dostları arasında) görünməmiş marağa səbəb oldu. Hər kəs ona bacardığı köməyi etməyə hazır idi. Mən skripkada pis çalmırdım, operanın artıq hazır hissələrini yoxlamaqda, həmçinin xor nömrələrinin öyrənilməsində ona kömək edirdim.

İlk Azərbaycan operasını tamaşaya qoymaq üçün o zaman nə artist, nə də professional musiqiçilər var idi. Musiqiçi tapılanda da vəsait, pul olmurdu.

Beləliklə, operanı yenicə fəaliyyətə başlayan gənc həvəskar artistlər Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Hənəfi Terequlov və o zamanadək heç vaxt səhnədə çıxış etməmiş gənclərin iştirakı ilə tamaşaya qoymalıydıq.

Orkestrin heyəti, əsasən, birtəhər skripkada çalmağı bacaran keçmiş seminaristlərdən və Qurban Pirimovun başçılığı ilə şərq alətlərində çalan musiqiçilərdən ibarət idi. Mənə birinci skripka çalmaq şərəfi nəsib olmuşdu.

Operanın tamaşasına hazırlıq işləri (rolların öyrənilməsi, xorun və orkestrin məşqləri) əvvəl ayrı-ayrı parçalarla, sonra isə bütöv pərdələrlə «İslamiyyə» mehmanxanası nömrələrinin birində keçirildi. Çox vaxt günortadan sonra xor oxuyanlar, musiqiçilər və solo nömrələrinin ifaçıları buraya toplaşırdılar.

Bəzən toplaşanların hamısı bir otağa yerləşmirdi. Onda mehmanxana sahibindən ikinci nömrəni də xahiş etməli olurduq.

İş çox, özü də çətin idi, əsəb tələb edirdi, xüsusən Üzeyir üçün. Lakin o, həmişə olduğu kimi, həyəcanlanmadan, tələsmədən, ona xas təmkinlə işi yoluna qoyurdu, tamaşanın iştirakçıları da öz rollarını gündən-günə təkmilləşdirirdilər.

Tədricən hər kəsin yeri müəyyənləşirdi - kim hansı işi görməlidir. Rejissorluq Hüseyn Ərəblinskiyə, dirijorluq isə yazıçı-dramaturq Əbdürrəhimbəy Haqverdiyevə həvalə edilmişdi. Səhnədə və orkestrdə ümumi rəhbərliyi Üzeyir öz öhdəsinə götürmüşdü.

Azərbaycan dilində yeni operanın tamaşaya hazırlandığından xəbər tutan bakılılar böyük maraq və səbirsizliklə ilk tamaşanı gözləyirdilər. Biz isə bu böyük hadisəyə həyəcanla hazırlaşır və operanın camaat tərəfindən necə qarşılanacağını öyrənməyə tələsirdik.

Nəhayət, çoxdan gözlədiyimiz gün gəlib çatdı. 1908-ci il, yanvarın 12-də «Leyli və Məcnun» operasının tamaşasını bildirən afişalar Bakıda göründü.

Tağıyev teatrının kassası önünə çoxlu adam toplaşmışdı. Biletlər dərhal alındı.

Axşam ağzınadək dolu olan salonda tamaşa başlandı. Tamaşanın həvəskar iştirakçılarının böyük qorxu və həyəcanla öz rollarını ifa etməsinə, musiqiçilərin isə vəziyyətdən birtəhər çıxmasına baxmayaraq, tamamilə yeni musiqi əsəri olan bu opera tamaşaçılar tərəfindən hərarətlə qarşılandı. Gurultulu alqışların, müəllifin və baş rolları oynayan artistlərin dönə-dönə səhnəyə çağırılmasının, çiçəklər təqdim edilməsinin sonu yox idi.

Azərbaycan xalqı Sovet hakimiyyəti illərində görünməmiş dərəcədə inkişaf edib çiçəklənmiş Azərbaycan musiqi incəsənətinin gələcək inkişafının təməlini qoymuş ilk böyük milli musiqi əsərinin yaranmasını bayram edirdi.



**Qədim vaxtlardan insanlar ayrı-ayrı bitkilərin xüsusiyyətlərinə bələd olmuş, onların köməyi ilə tutulduqları azarlardan xilas olmağa çalışmışlar.**
**İllər, əsrlər ötdükcə, xalq təbabəti ilə məşğul olan mütəxəssislər yetişdi və yazı mədəniyyəti ortaya çıxdıqdan sonra təbabətin təcrübələri qələmə alındı.**
**Müxtəlif müalicə üsullarına həsr edilmiş əsərlər yüzilliklər boyunca katib və xəttatlar tərəfindən köçürülür və kitabxanalarda saxlanılırdı.**
**Təbabət sahəsində yazılmış risalələr digər xalqların dillərinə tərcümə edilir və beləliklə, təbabət barədəki biliklər zənginləşirdi.**
**Orta əsrlərdə təbabətə aid çoxsaylı dəyərli əsərlər yazılıb.**
**Onlar ayrı-ayrı xəstəliklər, onların əlamətləri və müalicə üsulları, insan bədəninin xüsusiyyətləri, dərmanlar, ədviyyələr, sürtmə məlhəmləri, otlar, meyvələr, təbiblərə verilən məsləhətlərdən ibarət idi.**
**Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda elmin müxtəlif sahələrini əhatə edən əlyazmalar arasında təbabətə həsr edilmiş çoxlu sayda abidələr qorunub saxlanılır.**
**Onların arasında Zeynəddin bin Əbu İbrahim İsmail ibn Həsən ibn Əhməd ibn Məhəmməd Əl-Hüseyni Əl-Qorqaninin "Xəfi-əlayi" ("Xəstəliklər və onların müalicəsinin müxtəsər şərhi") əsəri xüsusi yer tutur.**
**Qeyd etmək lazımdır ki, Qorqani öz vaxtının tanınmış və müdrik şəxsiyyətlərindən olub. Mənbələrin verdiyi çoxsaylı məlumatlara görə, olduqca savadlı və dərin elmi biliyə malik olan Zeynəddin Əl-Qorqani ərəb və fars dillərini mükəmməl bilib, dünyanın bir çox alim və təbiblərinin əsərləri ilə yaxından tanış olub.**
**Tibbi dərindən bilən Qorqani dərmanlar hazırlayır, xəstələri müalicə edirdi.**
**Müasir tibb elminin yüksək səviyyədə inkişaf etdiyi bir zamanda xəstəliklərin təbii bitkilərlə müalicəsinə xüsusi diqqət yetirilir.**
**Belə bir zamanda "Xəfi-əlayi" kimi əlyazmaların əsaslı öyrənilməsinə ehtiyac artır.**
**Odur ki, qədim və zəngin keçmişi olan tibb tarixini öyrənib, gələcək nəsillərə çatdırmaq bizim müqəddəs borcumuzdur.**

# Xəfi-Əlayi

## (Xəstəliklər və onların müalicəsinin müxtəsər şərhi)

**Zeynəddin Əl-QORQANİ**

*(Əvvəli ötən saylarımızda)*

### Çiçək və yatalaq xəstəlikləri

Hər iki xəstəlik qanqaynayan vaxt baş qaldırır.

Çiçək xəstəliyini törədən qanlı maddələr isti və rütubətli olur.

Yatalaq xəstəliyini törədən qanlı maddələr isə səfralı və quruluğa meyilli olur.

Bu səbəbdən, çiçək xəstəliyinin sızanaqları kiçik olur və tez keçib gedir.

Yatalaq xəstəliyi zamanı qan pozulmuş olduğundan sızanaqlar daha uzunmüddətli olur.

Uşaqların qanqaynayan vaxtı qanı, tam yetişməmiş üzümün suyuna, cavanların qanı, dəymiş üzümün suyuna, yaşlı insanların qanı isə yetişib ötmüş üzümün sirkəsinə bənzəyir.

Uşaqların əksəriyyəti çiçək xəstəliyini keçirir.

Lakin buna təsir göstərən amillər də çoxdur: insanın məzacı, bədən quruluşu, yaşadığı yerin havası və sair.

Bundan başqa, aybaşı qurtarandan sonra uşağa qalan qadının uşağı daha sağlam olur və onun çiçək xəstəliyinə tutulma ehtimalı daha azdır.

Başqa bir zamanda hamilə olan qadının uşağı bir o qədər sağlam olmur və bu xəstəliyə tutulmaq ehtimalı onda daha çoxdur.

Uşaqlıqda çiçək xəstəliyini keçirməyən insanlar cavan vaxtlarında da bu xəstəliyə tutula bilərlər.

Yaşlı insanların çiçək xəstəliyinə tutulma ehtimalı çox azdır.

Xəstəlik şəhərdə yayılarsa və hava orada çox pis olarsa, yaşlı insanlara da çiçək xəstəliyi yoluxa bilər.

Çiçək xəstəliyinin əlamətləri kəskin narahatlıq hissi: belağrısı, başağrısı, ümumi zəiflik və halsızlıq, yuxuda səksənmə, gözün qaralması və yaşarması, burunun qaşınması və bəzi hallarda öskürək, boğazda ağrı və susama, nəfəsin və səsin tutulmasından ibarətdir.

Bu xəstəlik zamanı dəridə ağ, sarı və ya qırmızı sızanaqlar əmələ gəlir.

Tez üzə çıxan səpki tez yetişir.

Gec üzə çıxan səpki gec yetişir və daha təhlükəlidir.

Səpkinin qızdırmadan əvvəl meydana çıxması və ya qızdırma zamanı səpkinin olmaması xəstəliyin daha kəskin olmasının əlamətləridir.

Çiçək xəstəliyi şəhərdə yayılarsa, sağlam adamlar qan verməli, yaxud həcamət etməlidirlər.

Xəstəliyə tutulan şəxslər ət, şirniyyat və isti xörək yeməməlidirlər.



Xəstənin yatdığı otağın havası mötədil, geyimi yüngül olmalıdır.

Gün ərzində ona qurtum-qurtum soyuq su vermək lazımdır.

O, səndəl və kafur ağacının kitrəsini iyləməli, burnuna sirkə və gülab çəkməlidir.

Belə xəstələrin gözünə keşniş suyu, suynan qarışdırılmış sumaq, mazı və gülab qarışığını damızdırmaq məsləhətdir.

Sürməni gülaba qatıb gözə çəkmək də faydalıdır.

Xəstənin boğazı ağrıyarsa, o xartut şərbəti ilə qarqara etməlidir.

Bundan başqa, qovrulmuş arpa və mərci ununu turunc (sifron) suyu, yaxud turş narın şirəsi, qora suyu və ya sirkə ilə qarışdırıb içmək bu baxımdan faydalıdır.

Boğazda quruluq olarsa, bu qarışıqları gülaba qatıb içmək lazımdır.

Bu xəstəlik zamanı qurutlu, arpalı keşkab yemək məsləhətdir.

Yatalaq xəstəliyinə düçar olmuş xəstələrə bağayarpağı toxumunun həlimli suyu, heyva tumunun həlimli suyu, duru keşkab, kudu suyu, hind yemişinin suyu verilməlidir.

Bundan başqa, qora suyu, rəvənd kökünün suyu və turş nar suyuna pərpərəng toxumunu qatıb vermək də xeyirdir.

### Dördüncü fəsil şişlər, yanıqlar və yaralar haqqındadır

İsti şiş özünü qanlı maye, istilik və zoqqultu kimi əlamətlərlə büruzə verir.

Əlacı qan almaq, həcamət etmək, xəstəni mirobalanlar və bənövşə dərmanı vasitəsilə sifraq etdirməkdir.

Bundan başqa, qırmızı səndəl, ağ səndəl və arek palmasının toxumlarını quşüzümü suyuna, yaxud rus itüzümü, zəfəran və mirranı (kommiforanın qurumuş şirəsi) təzə keşniş suyu və qızılgül yağı ilə qarışdıraraq, şişin üzərinə qoyurlar. Şiş yara və ya zərbə nəticəsində əmələ gələrsə, hərəsi eyni miqdarda olmaqla, onları təzə keşniş suyuna qatıb şiş nahiyəsinə qoyurlar.

Qızılgül yağında isladılmış yun parçanı qoymaq ağrını aradan qaldırır.

Soyuq şişin istiliyi olmur və onun rəngi dərinin rəngindən fərqlənmir.

Soyuq şişin əlacı yəmən şüyüdünün sirkədə həll edilmiş məhluluna su əlavə edərək, kətan parçanı alınan mayedə isladıb, şişin üzərinə qoyub bağlamaqdır.

Üzüm çubuğunun və ya palıd ağacının çubuğunun külünü su ilə qarışdıraraq, həmin mayedə kətan parçanı isladıb qoymaq da xeyirlidir.

Ehtiyac yaranarsa, belə xəstələri sifraq etdirmək məsləhətdir.

Xərçəng xəstəliyinin əlacı qara sövda (melanxoliya) xəstəliyinin müalicəsi ilə oxşardır.

Bu növ xəstəlik zamanı əmələ gələn şişin üzərinə həqiqi əzvay, qurğuşun oksidi və keşniş suyunun qarışığından hazırlanmış dərmanı da çəkmək xeyirdir.

Sıraça (qızılca) xəstəliyinə tutulan insanları sifraq etdirərək, bədənlərini bəlğəmdən təmizləməli və müvafiq sürtkü dərmanlarından istifadə edilməlidir.

Taun xəstəliyi zamanı dərinin üstündə qırmızı, göy və ya qara rəngli şiş meydana çıxır. Belə xəstələrdə ürək yanğısı, ürək çırpıntısı və qəşşetmə halları müşahidə olunur.

Əlacı xəstənin ürəyini kafur dərmanı ilə səndəl şərbətinin qarışığı və ya ürək xəstəliklərinin müalicəsinə aid bölmədə adıçəkilən turş şərbətlər vasitəsilə qüvvətləndirməkdir.

Bu növ xəstələrdən az miqdarda qan alınmalı və onlara münasib olan sürtkü dərmanları çəkilməlidir.

Örə xəstəliyi qan və səfra, yaxud qan və bəlğəm çoxluğu nəticəsində meydana çıxır.

Əlacı bilək nayihəsində yerləşən damarlardan qan almaq, qora suyu, meyvə şirələri və hind xurması, turş ayran, nar şirəsi və kafur dərmanı içməkdir.

Xəstəliyin müddəti uzanarsa, 2 dirhəm sarı mirobalanlar, 2 dirhəm acı iyarəc dərmanı, türbəd ipomeyası, aqarik göbələyi, hind duzu və tiryəki qarışdıraraq xəstəyə vermək lazımdır.

Belə xəstələrə hamamda yuyunmaq xeyirlidir.

Dolama (dırnaq altının iltihabı və irinləməsi) dırnağın mayasında əmələ gələn şişdir. Onun ilk əlacı qan almaq və arsen, tiryək və sirkəni qarışdırıb barmağın üzərinə qoymaqdır.

Sonra parçanı soyuq suda isladaraq, ağrıyan nahiyəyə qoymaq və bir saatdan bir onu dəyişmək lazımdır.

Belə xəstələrin gün ərzində bir neçə dəfə barmaqlarını soyuq suya qoymaqları məsləhətdir.

Ağrı kəsməzsə, barmağı isidilmiş yağa qoymaq məsləhətdir.

Çibandan əziyyət çəkən insanlardan qan almaq, onları həcamət etmək və bişmiş sarı mirobalanlar vasitəsilə sifraq etdirmək lazımdır.

Sonra bitli bağayarpağının toxumlarını sirkəyə qarışdırıb çibanın üstünə qoyurlar.

Daha sonra buğda, quru çörək, su və yağı qarışdıraraq bişirir və həmin qarışığı 3 gün ərzində çiban çıxan nahiyəyə qoyurlar.

Buğda və quru çörəyi qızılgül yağına qatıb hamamda, yaxud günün altında çibanın üzərinə çəkmək də xeyirdir.

Ekzema (dəri xəstəliyi) zamanı səpki quru olarsa, xəstənin qulaq arxasındakı damarından qan almaq, quru keşniş, qoz qabığı və xınanı döyüb, sirkə və qızılgül yağı ilə qarışdıraraq, səpki nahiyəsinə çəkmək lazımdır.

Səpki yağlı olduğu təqdirdə, hərəsindən 1 dirhəm olmaqla, mis və qalaydan hazırlanmış sürtkü dərmanı, qırmızı toz (mallotus ağacının meyvələrindən əmələ gəlir), uzun zərəvənd, sarı kuporos (dəmir kuporosu) və yabanı qozu sirkə və qızılgül yağına qatıb çəkmək lazımdır.

Dəmrov xəstəliyi zamanı kitrə və sarı mirobalanları döyərək, sirkəyə qarışdırıb üzərinə çəkirlər.

Xəstəlik ağır keçərsə, deşilməmiş mazını yumşalanadək sirkədə bişirib çəkirlər.

Od nəticəsində yanıq baş verərsə, dərhal həmin nahiyəyə toyuq yumurtasının ağını və qızılgül yağını sürtmək lazımdır.

Sonra qurğuşun oksidi məlhəmi çəkirlər.

Daha sonra hərəsindən 3 dirhəm olmaqla, qalay və qurğuşun oksidi, 1 dirhəm mirra (kommiforanın qurumuş şirəsi), 2 dirhəm uzun zərəvənd və qızılgül yağını qarışdıraraq, yara sağalana qədər çəkmək lazımdır.

Əmələ gələn yara təmiz olarsa, xəstədən qan alıb, ona qora şərbəti, adi zirinc şərbəti, rəvənd kökü şərbəti, limon şərbəti və kafur dərmanı içizdirmək münasibdir.

Yara çirkli (irinli) olarsa, hərəsindən eyni miqdarda olmaqla zeytun yağı, bal və şüyüdü qatıb, alınan məlhəm vasitəsilə yaranı təmizləyib qurudarlar.

Yaraların əlacı.

Təzə yaranı toz, yağ, tük və digər zərərli amillərdən qorumaq üçün quru sarıq ilə sarımaq lazımdır ki, bitişsin.

Hamar olmayan didilmiş yaranı kəsib açmaq və üzərinə quru toz dərmanı səpmək lazımdır.

Toz dərmanını hazırlamaq üçün qurğuşun oksidi, qurğuşun, mirra və mazını döyüb qarışdırırlar.

Yara insanın baş nahiyəsində meydana çıxarsa, zərəvəndi şərbətdə bişirir, qurudur və toz şəklinə salıb yaraya səpirlər.

Həqiqi əzvay, buxur kolunun qatranı, əjdaha ağacının qatranı və gəvən qatranını qarışdırıb bişirsələr, əldə edilən dərman qanaxmanı kəsər.

Yandırılmış at və uzunqulaq peyini də bu baxımdan faydalıdır.

Döyülmüş zərəvəndi bala qatıb tikan batan nahiyəyə qoysalar, tikanın çıxmasına kömək olar.

*(Davamı gələn sayımızda)*

**Farscadan tərcümə edən:**
**Zemfira MƏMMƏDOVA**

Aydın Yol
N 39(48) 16.10.2015


# Atamın dostları

**Azərbaycan əsilli görkəmli türk yazıçısı, siyasətçi və dövlət xadimi Səməd Ağaoğlu (1909-1982) çağdaş Türkiyədə memuar ədəbiyyatın görkəmli nümayəndələrindən biri kimi tanınır. Onun oxuculara təqdim olunan "Atamın dostları" kitabında atası, XX əsrin ilk onilliklərində Azərbaycanın və Türkiyənin fikir həyatında müstəsna xidmətlər göstərmiş Əhməd Ağaoğlunun (1869-1939) türkçülük hərəkatında, sənət və siyasət aləmində, yeni Türkiyənin qurulması uğrunda mübarizədə çiyin-çiyinə addımladığı bir sıra görkəmli şəxsiyyətlərin portretləri yaradılıb. Müəllifin ad çəkmədən son dərəcə səciyyəvi cizgilərlə rəsm etdiyi bu portretlər özlərinin, eləcə də Əhməd Ağaoğlunun həyatının, mübarizə və ideallarının bir sıra xüsusiyyət və keyfiyyətlərini aşkara çıxarır.**





Səməd AĞAOĞLU

*(Əvvəli ötən saylarımızda)*

İttihad və Tərəqqi liderləri ümmət, yəni islamçılıq, millət və milliyyət fikirlərinə, təmayüllərinə gərəklilik amili baxımından fərqli baxsalar da, hər üçünə eyni iltifatla yanaşmırdılar. Prinsiplərin ikisinə də düşmən kəsilən dinsizlərə isə heç zaman üz vermirdilər. Məhz həmin səbəbdən atamın bu dostu onların nəzərində həmişə şübhəli adam kimi qalmışdı. Belə münasibət qarşısında o da İttihad və Tərəqqi liderlərinə aramsız hücumları, tənqidləri özünə peşə seçmişdi. Amma ən müxtəlif fikir cərəyanlarını geniş qanadları altında himayə edən Ziya Göyalp ittihadçıların dilimizə Qərbin Qustav Lebon[1], Ernest Renan[2] kimi böyük mütəfəkkirlərindən əsərlər çevirən, cəmiyyətə yeni fikirlər gətirən, özünü bir az da Pobespyerə[3] bənzədərək Böyük Fransa inqilabının İnsan Haqq və Hüquqları prinsiplərini həyəcanla anladan bu həmyerlisinə bir zərər toxunmasına imkan vermədi.

İnsanlar təsadüfün əlində iradələrinin nə dərəcədə qüvvətli və ya zəif olması nisbətində oyuncağa çevrilə bilirlər. Atamın dostu da zəif iradəli adam idi, ətrafında baş verən dəyişikliklərin qarşısında açdığı fürsət və imkanlardan yalnız kiçik miqyaslarda yararlanmağı bacarırdı.

Mütarikədə[4] ittihadçıların məğlubiyyətə uğramaları ona irəli çıxmaq, parlamaq imkanı yaradan şans oldu. Amma yeni idarəçilərin dinlə bağlı təəssübkeş münasibəti qarşısında Mütarikənin şərtləri ilə meydana çıxmış səviyyəsiz bir işə baş qoşdu. Bu dəfə dostları heyrətlər içində, düşmənləri isə sevinərək onu Sait Mollanın[5] yanında, "Kürd Yüksəliş Cəmiyyətinin" sıralarında gördülər. Dinsizliklə bağlı görüşlərini dəfələrlə açıq bildirməsinə, müdafiə etməsinə baxmayaraq Qərbin fikir və ədəbiyyat xəzinəsindən bir çox böyük şəxsiyyətlərin əsərlərini kitablar və məqalələr halında Türk mədəniyyətinə qazandırdığı üçün hələ də xətrini əziz tutan sonuncu çevrə də bu hərəkət müqabilində onunla birdəfəlik üzülüşməyi daha məqbul saydı.

İndi ən səviyyəsiz bir siyasi həyat içərisində vurnuxur, Mütarikənin türk tarixindəki yerlərini "məşum" sifəti ilə müəyyən etdiyi insanların arxasından əl çəkmirdi. Anadolunun zəfəri, fəaliyyətinin bu dövrünü də həmişəlik qapatdığı zaman əvvəlcə müxaliflərlə birlikdə məmləkətdən qaçmağı düşündü. Amma nə buna yetəcək parası var idi, nə də mühacirətə elə böyük lüzum görürdü. Məmləkətdə qalması nəticə etibarı ilə onu Yüzəllilərin[6] sırasına düşməkdən qurtardı. Bir müddət demək olar ki, kimsənin gözünə görünmədən mətbəəsinin qaranlıq künclərində yaşadı.

Ürəyi unudulmasının acıları ilə, beyni özünü yenidən hamıya göstərmək hikkəsi ilə dolub-daşırdı. Cəmiyyətdə mədəni inqilabların başlaması yenidən meydana çıxmaq, varlığını ortaya qoymaq baxımından ona ən münasib imkan kimi göründü. Amma latın əlifbasının qəbulu üçün hələ ittihadçıların zamanında dör-dör döyüşməmişdimi? Əlifba ilə bağlı fikirləri şöhrətini birdən-birə artırmış, Qərb mədəniyyəti tərəfdarlarının atəşin heyranlığını qazanmışdı. İndi yenə oxşar bir sıçrayış edə, yeni dövrün məşhurları arasında yerini ala bilərdi.

Bir gün altında onun imzası olan və nəslimizi qüvvətləndirmək, köhnə ibarə ilə desək, istifasına (daha da təmizlənməsinə - V.Q.) nail olmaq məqsədi ilə Avropa və Amerikadan "damazlıq kişilər" gətirilməsi təklifini irəli sürən məqaləni oxuyan hər kəs öncə şaşırdı. Sonra isə dəhşət içərisində başını tutdu. Yalnız Babi-Alidə[7] deyil, məmləkətin alim, cahil bütün təbəqələri arasında sanki bir tufan qopdu. Atatürk həyata keçirmək istədiyi ictimai inqilabların bu tipli sərsəm fikirlərlə sarsılacağı, yanlış anlaşıla biləcəyinin üzərində ciddi düşündü. Ən yaxınlarından biri, həm də şöhrətini yazı və fikirləri ilə deyil, Atatürkün "bir işarəsi ilə gözünü qırpmadan hər şey etməsi" ilə qazanan birisi bu məqalədəki "əxlaq, milliyyət, din, heysiyyət, şərəf məhfumlarına zidd mülahizələrə" kəskin etiraz bildirən yazı yazdı. Bu, sözün həqiqi mənasında dinsiz mütəfəkkirin inanc və qənaətlərinə endirilən dəhşətli zərbə idi. Verəcəyi ən kiçik, əhəmiyyətsiz cavabın qarşılığı çox qorxunc ola bilərdi. Odur ki, qələmini bir daha əlinə almamaq şərti ilə qırmaqdan başqa çarəsi qalmamışdı.

## Hərbiyyə nazirinin qardaşı

Ailənin bütün üzvləri böyük oğulun qanadı altında ən yüksək mövqelərə yiyələndilər. Böyük oğul Osmanlı imperatorluğunun son illərinə hakim olan ən gözəl üz, ən cəsur hərəkətlər, ən mütəvazi həyat idi. O zamana qədər adı-sanı heç yerdə bilinməyən iyirmi beş yaşlı qaimməqam qardaşını Türk birliyinin, Turan - Qızıl Alma xülyasının gerçəkləşməsi naminə irəli çəkməsi, məhz yuxarıda sadaladığım bu üç özəlliyi sayəsində heç bir etirazla qarşılanmadı. Hələ Osmanlı ordusunun Şərq hüdudlarını aşıb, erməni soyqırımına məruz qalan böyük bir türk kütləsini (azərbaycanlılar nəzərdə tutulur - V.Q.) Qafqaz İslam Ordusunun gənc komandanı haqqında danışılan hekayətlər, yazılan şeirlər, bəstələnən şərqilər dillərdə dolaşırdı. Milyonlarla insan - qadın, kişi, uşaq qurtuluşla bağlı ümidlərini yalnız ona bağlayırdılar.

Atam bu gənc komandanın siyasi müşaviri təyin edilib, onunla bərabər Qafqaza getmişdi. Millət vəkilliyi də qorunub-saxlanırdı. Bu surətlə həm də Osmanlı Məclisi-Məbusanın əsarətdən qurtarılan bir türk məmləkətində ilk təmsilçisi olurdu. Vaxtı ilə istila altındakı türk yurdundan hür və müstəqil türk məmləkətinə köçüb gələn atamdan ötəri indi əsarətdən qurtaran yurdunun xilaskarları arasında olmaq çox böyük səadət idi. Bu səbəbdən də gənc komandana heç zaman üzülməyəcək, qopmayacaq bağlarla daha çox bağlanırdı. Xatirə dəftərlərində ondan bəhs edən səhifələr hənuz iyirmi beş yaşındakı ordu başçısının əxlaq və ruh sağlamlığını həyəcanlı şəkildə anlatmaqdadır. Özü hələ çox gənc olan bu adamın əmri altındakı zabitlərin, rəhbərlik etdiyi ordunun ayaqları dəyən hər yerdə buraxdıqları yeganə təəssürat sonsuz heyranlıq hissi idi. Ona bəzi ehtiyaclarının ola biləcəyini xatırlatdıqları zaman verdiyi cavab belə olmuşdu:

"Dostlarım və ordum mənə baxır. Onların da arzuları, ehtiyacları var. Hətta bir dəfə də olsun, tək özümü düşünmək yolunu tutsam, bu xəstəlikdən bir də heç zaman xilas ola bilmərəm. Mənim yanımda bundan sonra belə məsələlərdən bəhs açmayın".

fəlakət günü ərəfəsində xilas etməsi xəbəri İstanbula gəlib çatınca başqa cəbhələrdəki məğlubiyyətlərin acısı unudulmuş, məmləkət yeni bir həyat eşqi ilə canlanmışdı. Amma heyhat! Bu müvəqqəti, çox müvəqqəti bir nəşə idi. İmperatorluğun müəzzəm çöküşünün son gurultuları lap yaxın zamanlarda eşidiləcəkdi. Nəhayət, həmin gün gəlib çatdı. Ailənin böyük oğlu gözdən qeyb olub əfsanə və macəraların qəhrəmanına çevrildi. Səsi hər gün bir diyardan eşidildi. İndi tutduğu yolda tək deyildi. Kiçik qardaşı da onun türk aləmində qazandığı şöhrəti çətinlik çəkmədən paylaşırdı.

Sülh anlaşması oldu[8]. Yeni hökumət Qafqaz İslam Ordusuna geri dönmək əmri verdi. Gənc komandan zabit dostlarını toplayıb "Mən geri qayıtmayacağam, - dedi, - siz isə sərbəstsiniz". Sonra onunla qalmaq qərarı verənlərlə birlikdə Qafqazın işğalına başlayan ingilislərə qarşı mübarizəyə qoşuldu. Bu, gənc komandan üçün yepyeni bir sərgüzəştlər dövrəsinin başlanğıcı idi. İstəsəydi, orada Azərbaycan hökumətinin başına keçə bilərdi. Xalq bunu nəinki təklif, hətta israr edirdi. Lakin ingilislərin şəxsini əldə bəhanə tutub müstəqil bir türk dövlətinin - Azərbaycan Cümhuriyyətinin qurulmasına mane olacaqlarını düşündü. Komandası altındakı qüvvələrlə bir yandan yeni Türkiyə Cümhuriyyətinin qurulmasını əngəlləməyə çalışan ermənilər və ingilislərlə döyüşürkən o biri yandan da Cümhuriyyət ordusunun hazırlanması ilə bağlı tədbirlər görməyə başladı.

Həyatının bu səhifəsi şeirlərə, şərqilərə, əfsanələrə mövzu olacaq macəralarla doludur. İngilislərə əsir düşdü, həbsxanadan qaçıb İrana keçdi. Sonra təkrar Azərbaycana qayıtdı. Nəhayət, ortalıqda heç bir ümid yeri qalmadığını biləndə, böyük qardaşı Ənvərin Türküstanda şəhid olması xəbərini alanda üzünü Avropaya tərəf çevirdi.

---

*[1] Qustav Le Bon (1841-1931) – fransız antropoloqu, tarixçi, psixoloq və sosioloq.*

*[2] Ernest Renan (1823-1892) – fransız filosofu və yazıçı, din tarixçisi, semitoloq. Fransa Akademiyasının üzvü (1878). Sorbonnada təhsil alan Əhməd Ağaoğlunun fikri inkişasında, elmi marağının müəyyənləşməsində mühüm rolu olmuşdu.*

*[3] Maksimillian Robespyer (1758-1794) – fransız inqilabçısı, Böyük Fransa inqilabının ən çox tanınan və nüfuzlu siyasi liderlərindən biri.*

*[4] Birinci Dünya müharibəsindən məğlub durumda çıxan Osmanlı imperiyası ilə Müttəfiq dövlətlər arasında 1918-ci il oktyabrın 30-da Mudros müqaviləsi imzalananandan sonrakı dövrə türk siyasi tarixində verilən ad. Burada barışıq mənasında anlaşılmalıdır.*

*[5] Sait Molla (1880-1930) – Osmanlı dövlət adamı, imperatorluq dövründə Şurayi-Dövlət üzvü və Ədalət nazirliyi müstəşarı. İngilis casusu olub. Qurtuluş savaşından sonra Yunanıstana qaçıb.*

*[6] Yüzəllilər – Türkiyə Qurtuluş Savaşının qələbəsindən sonra düşmənlə işbirliyində təqsirli bilinərək Türkiyədən sürgün edilən və əksəriyyəti dövlətin ən yüksək məqamlarında çalışmış türk vətəndaşlarına verilmiş ümumi addır. Bu siyahıya Sultan VI Mehmet və məiyyəti, Nazirlər kabinəsi üzvləri, Sevr anlaşmasını hazırlayanlar və s. daxil idilər.*

*[7] Babi-Ali - Osmanlı hakimiyyəti dönəmində sədrəzəm sarayına verilən addır.*

*[8] 1918-ci il oktyabrın 30-da imzalanan Mudros sülh müqaviləsi nəzərdə tutulur.*

*Davamı gələn sayımızda*

**Tərcümə edən:
Vilayət QULİYEV, professor**

**XVIII əsrin birinci yarısı – Səfəvilər sülaləsinin son dövrü və Nadir Şah Əfşar imperiyasının mövcud olduğu qısa müddət Azərbaycan tarixinin ən gərgin və maraqlı dövrlərindən biridir. Bu da təsadüfi deyil ki, həmin dövrdə yazılı və şifahi ədəbiyyat, xəttatlıq, miniatür sənəti inkişaf edib, baş verən hadisələri əks etdirən salnamələr qələmə alınıb. Nadir Şahın münşisi Mirzə Mehdi xan Astrabadi məhz həmin dövrün ən etibarlı salnaməçisi sayılır. Onun mətbuatda tam şəkildə ilk dəfə işıq üzü görəcək tarixi sənədlər toplusundan ibarət "İnşa" əsərini qəzetimizin oxucularına təqdim edirik.**

# Mirzə Mehdi xan Astrabadi və onun "İnşa" əsəri

*(Əvvəli ötən saylarımızda)*

### Yenə də Mirzə Mehdi xanın adıçəkilən təbibə yazdığı məktub

Dil açmış şirin sözlü qələmin xoruzgülü kimi gözəl fikir mübadiləsindən yazdığı məktub yetişdi. Ürəyəyatan ağ təbaşir ayrı qalmağın ümidsizliyini yarıb uğursuzluğun dadına xoşbəxtlik axtarışında olmağın qəndini və xoşbəxtliyə varmağın şəkərini qatdı. Könlü yaralıların duyduqları kafur kimi ağ kağızın üzərindəki müşk, səbr edənlərin Ay ilə Pərvin[1] dairələrində gördükləri hərflər, ürəkləri arzularla dolu olanların məhəbbətin pak südü ilə çəkilmiş ünvanların bəyazlığı və sevginin dayağı olan cana dəyən hikmətli ibarələr könlün ən dərin nöqtələrinə qədər nüfuz edir. Həqiqətən, ürək genişliyinin rahatlandırıcı və sevindirici mülayimliyinin nəticəsidir ki, təbibin qələmi ənbərsaçan kəlamları, bənövşə və reyhan kimi xoşətirli xətləri, sözləri və mahiyyəti dərman cövhəri qismində olan ifadələri və könülə yol açan dərinmənalı incəlikləri dostların qəlblərini fərəhləndirmək üçün tərtib etmişdir. Cəvahir kimi qiymətli mənaların ləllərindən, rəngarəng yaqutlar dəstindən və bəlağət elminə xas məcazların mərcanları ilə mirvaridlərindən dərdçəkən qəlblərin qüvvətləndirilməsini təmin edən incivari ləzzətli şərab yoldaşı Əflatun olan bir zəvvar üçün hazırlanmışdır. Taleyin gətirdiyi əhvalı pozan və sağalması çətin olan mərəzin müalicəsi üçün əta mecnu və dinar şərbəti yarayacaqdır. Bədəndəki bəlğəmlə çirki əflasi-fülusun[2] vasitəsilə təmizləməkdən ötrü hesablanmış və göstərilmiş filan məbləğ möhürlənmiş kisədə xahiş olunan əlavə dərmanların alınması üçün şərafətli xidmətinizə göndərilmişdir.

### Mirzə Mehdi xanın Molla Məhəmməd Bağır Astrabadinin dilindən Bağdad alimlərinə yazdığı məktub

Bu sətirlərin müəllifi paytaxt İsfahanın müəllimi, məxluqların ən kiçiyi Məhəmməd Bağır Astrabadi dost məhəbbəti dualarını izhar edəndən sonra darülislamın həqiqət yayan biliklər bilicilərinin və ali rütbəli fəzilət sahiblərinin nəzərinə bu xəbəri çatdırıb bəyan etməyə keçir. Abidlərin ən dəyərsizi ərəfə gününə və şərafətli yerləri tavaf etməyə yaxınlaşdığı bu xoşbəxt məqamda hazırkı xoşniyyətli yazını ərz etdi. Kəskin aclıq səbəbilə qaladan qaçıb gələn dəstənin sözündən oranın sakinlərinin əhvalı tam aydınlıqla məlum oldu. Hər gün qalada böyüklərdən-kiçiklərdən və cavanlardan-qocalardan çoxsaylı camaat taqətsizlikdən məhv olub sələflərinə qovuşur. Qala əhli iki kəlmeyi-teyyibeyi-şəhadət deyənlərdən və Rəsuli-səqleynin ümmətindən və [bizə] qiblə ilə kitabda müvafiq və din ilə şəriətdə mütabiq olduğuna görə "əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın"[3] dəlilini və "əgər əl çəksəniz bu sizin xeyrinizə olar"[4] ifadəsini əsas tutaraq məntiqi hökmlərə söykənib qoşun başçıları ilə Allahın ehkamları haqqında danışıqlar aparıb onların arasında bizimlə həmrəy olanların hamısını ölkənin aliməqam xanın bəndələrinin xidmətinə gətirmək səadətinə çatdırmaq və ağlın dəlilləri ilə şəriətin mənalarından yararlanıb onları "onlarla ən gözəl surətdə mübahisə et"[5] fərmanına əsaslanaraq və "biz onların ürəklərindəki kin-küdurəti çəkib çıxardarıq"[6] məntiqi işarələrindən faydalanaraq təmizə çıxartmaq üçün əl bu səhifəni yazmağa uzandı.



zəiflər bu iki haldan günahsız və yerinə yetirilməsi vacib olan əmrə hazır və itaət durumunda dayanarlar və bu arada onların təqsiri deyil ki, dərd ordusunun hədəfinə çevrilib fitnə sipahı tərəfindən qarətə məruz qalarlar. Heç nəyə baxmayaraq, bu hökmranlıq işi "sən mülkü istədiyin şəxsə verər, mülkü istədiyin şəxsdən alarsan; istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan"[7] ifadəsinə uyğun olaraq Sultani-ləmyəzəlin[8] iradəsinə bağlıdır və İsgəndər kimi şanlı xan Allahdan yardım alan və Allah ordusuna güvənəndir. Bu da bəllidir ki, dövlətin iki sahibi bir-birinə düşmən kəsilsə, böyüklük namusu əldən gedər və onlar bir-birini qurban verərlər, amma acizlərlə rəiyyətlər bu yolda bələdçisiz qalıb hadisələr ordusunun ayağı altına düşərlər. "Əgər onlar verilən nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu onlar üçün daha xeyirli olardı"[9]. Adıçəkilən alicah bu mənanı qəbul etməyəndən sonra nümunəsi "evlərin ən zəifi hörümçək yuvasıdır"[10] olan o köhnə viranəyə görə müsəlman qanının axıdılmasını boynuna alacaqlarsa – ixtiyar sahibidirlər.

### Nadir şahın Rum padşahı Sultan Mahmud xana yazdığı məktub

**Bismillahir-rəhmanir-rəhim**

"Onları orada xeyir-dua və salamla qarşılayırlar"[11] ayəsinin ürəkaçan gülzarından yayılan müstəcab, müşksaçan və sevgi ilə dolu rayihələr üst aləmdə müqəddəs adamların burunlarını öz qoxusu ilə qıcıqlandırır və "[Allahın] görüşünə çatdıqları gün onların sözləri salamdır"[12] ayəsinin bərəkət bağlarından Həzəratın duyğulu könüllərindən gizli qalmaz ki, əgər fələk kimi uca xan Tanrının köməyi və xoşbəxt taleyin dəstəyi ilə ölkəni ələ keçirib var-dövlət yiyəsi olmağa iddialı və ölkəni bəzəyən rəy ilə qayda sahibi hörmətli vəzir Əhməd paşa hökmdarlıq və fərman verməyə həvəsli olsalar, həmin karxanaya sərmaya qoyan acizlər ilə

Madam ki, bu din xadimi xan həzrətlərinə bəzi məsələləri çatdırıb və onlar mübarək qulaqları ilə dinləyiblər, o aliməqam həzrətlər də adıçəkilən alicah cənabı və izzət ilə şan-şöhrət sahibləri olan paşaları Həzrət Barinin göstərdiyi dindarlıq və təsəlli yolu ilə həmin mətləblərdən xəbardar edib özlərinə bəraət qazanmalıdırlar və bir daha o yazıq miskinləri təhlükəli uçuruma atmamalıdırlar.

səmimi və gözəl sənaların qızılgül ətrini gətirən nəsimlərin əsməyindən ülfət qönçələri açılmağa başlayır. İrəmvari, ruhlandırıcı yığıncağın hədiyyəsini və cənnətəbənzər, ruhoxşayan məclisin töhfəsini qüdrətli əlahəzrət, padşahlıq və xilafət taxtına başucalığı gətirən, İsgəndər həşəmətli, Süleyman şanlı, şahlıq aləminin mənasını göstərən güzgü, dünyaya hökmranlıq edən və onu qoruyan bürcün aləmi isindirən günəşi, şanlı-şöhrətli Osmanlı nəsli fələyinin böyük alovu, səltənət ilə cəlalət məhkəməsinin Dara kimi ədalətli hakimi, əzəmət ilə tale dünyasının fərman buyuranı, əmin-amanlıq şəhərinin möhkəm divarı, zəmin ilə zaman asayişinin və qayda-qanunun təməli, dağ kimi uca, ürəyi dəniz kimi geniş olan padşah, göydəki ulduzlar mərtəbəsinə yüksəlmiş Xosrov, dünya sultanlarının sığınacağı, dövran xaqanlarının ümid yeri, islam ilə müsəlmanların köməkçisi, kafirlər ilə müşriklərin qənimi, qurunun xaqanı, dənizlərin sultanı, ikinci İsgəndər Zülqərneyn, Allahın kölgəsi olan padşah və islampənah xəlifə, əs-sultanül-qazi Mahmud xan bin Sultan Mustafa xana ("Allah onun dövlətinin əsaslarını Yerin göylərində təsbit etsin və onun uca işlərini uzununa və eninə artırsın!") bu naməni göndərib qayda-qanunları qorumaq yolu ilə və Yaradanın nur şüalarının düşdüyü yeri olan dünyanı bəzəyən humayun fikrə sadiq qalmaq adəti ilə qeyd edirik ki, əvvələn[13], birinci təkliflərdən və saniyən[14], ikinci diləklərdən dinin əsaslarını və müsəlmanlar arasında dostluq ilə mehribanlığı möhkəmləndirməkdən, iki həzrət arasında hərtərəfli ittifaqın zəruriliyini ifadə etməkdən və iki dövlət arasında olan şübhələrin təsirini aradan qaldırmaqdan başqa heç bir məqsədimiz olmamışdır. Millət və dövlət səviyyəsində olan bəzi maneələr bu tərəfin yolunda bir səddə və istənilən nəticəni əldə etməkdə ayaqaltı palazın daşına çevrilsələr də, həmin məsələnin qardaşlıq və ittifaq yolu ilə çözülməsini və bahar cənnətinin hökmdarı Dördüncü Sultan Murad xanın zamanına aid sülhün imzalanmasını təvəqqe və xahiş buyurmuşduq.

---

[1] *Pərvin - Ülkər (Yeddiqardaş) ulduzu.*

[2] *Əflasi-fülus – pul.*

[3] *Hücürat. 9*

[4] *Ənfal. 19*

[5] *Nəhl. 125*

[6] *Əraf. 43*

[7] *Ali-İmran. 26 (əlyazmada bu ayə dəqiq göstərilməyib)*

[8] *Sultani-ləmyəzəl – əbədi, ölməz hökmdar, Allah.*

[9] *Nisa. 66*

[10] *Ənkəbut. 41*

[11] *Fürqan. 75*

[12] *Əhzab. 44*

[13] *Əvvələn – birincisi.*

[14] *Saniyən – ikincisi.*

*(Davamı gələn sayımızda)*

# Erməni işğalında olan Azərbaycan rəqsləri

**Azərbaycanın tarixi torpaqları ilə yanaşı olaraq, ermənilər mədəniyyətimizə də təcavüzü davam etdirirlər. Xalq və bəstəkar mahnılarımız "oğurlanır". Xalq rəqsimiz olan "Novruzu" rəqsinin melodiyasını vaxtilə Armen Tiqranyan "Anuş" operasında xəyalpərvər rəqs kimi işləmişdi, biz isə bu rəqsi tamamilə unutmuşuq. İkinci oğurlanmış rəqsimiz A.Spendiarovun istifadə etdiyi "Ənzəli" rəqsidir. Ümumiyyətlə, ermənilər tərəfindən 40-dan çox musiqi nümunəmiz və rəqslərimiz mənimsənilib. Kor Tiqran, Konitas, Spendiarov, Tiqranyan, Xaçaturyan və Babacanyan bizim muğam və musiqimizi alt-üst ediblər.**

XIX əsrdə Kor Tiqran bütün muğamlarımızı nota köçürüb, indi onların "Rast"ı, "Şur"u, ümumiyyətlə, bütün muğamları var. Belə ki, A.Spendiarov "Heydəri" muğamının ritmik hissəsini, həmçinin Hicaz muğamının girişini "Erivan etüdləri" əsərində simfonik orkestr üçün işləyib.

İndi isə, mütəmadi olaraq oğurlanan mahnılarımızın bəzilərinə nəzər salaq:

❶ "Köçəri" – "Bir yerdə qərar tutmayan, tez-tez yerini dəyişən" deməkdir. Bu amil rəqsin də gedişində özünü göstərir. Belə ki, rəqs edənlər bir-birilərinin kəmərlərindən tutaraq, dairəvi yallı gedirlər. Bu ritmik rəqs, əsasən balaban və nağarada ifa edilir. 2/4 ritmində oynanılan bir rəqsdir. 1940-cı ildə erməni bəstəkarı Aram Xaçaturyan konsert verərkən Azərbaycanın "Köçəri" rəqsindən istifadə edib. "Köçəri" rəqsi yallının bir hissəsidir və Azərbaycan rəqsidir. Bunun erməni rəqsinə heç bir aidiyyəti yoxdur. Bu qədim xalq rəqsi Azərbaycanın folklor nümunəsidir.

❷ "Uzundərə"- olduqca cazibəli, zərif və lirik ifadəli rəqsdir. Onu təkcə Azərbaycanda deyil, Qafqazda da ən sevilən rəqslərdən biri hesab edirlər. Qarabağda Ağdam ilə Göytəpə arasında bir dərə var. Adına "Uzundərə" deyilir. Deyilənə görə, bu rəqs məhz həmin dərəyə həsr olunub. Rəvayətə görə, Uzundərə tərəkəmələrin düşərgəsi olub, onlar dağlar qoynundakı yaylaqlara köçərkən, yolüstü burada əylənib rəqs edər, şənlənər və dincəlrmişlər. "Uzundərə" el arasında qadın rəqsi kimi tanınır. Bu rəqsi ifa edən zaman qadın rəqslərində uzun ətəklər ayaqların süzgün hərəkətini müəyyənləşdirir, rəqqasələrin bütün diqqəti əl və bədənin yuxarı hissəsinin (çiyinlər, baş, üzün mimikası və s.) hərəkətinə yönəlir.

❸ "Şalaxo" və ya "Şələqoy" – Azərbaycanda da vaxtilə ayı oynadan qaraçılar şəhər və kəndləri dolaşaraq, "Şələküm-Mələküm" deyə-deyə, ayıları oynadardılar. Azərbaycan rəqs musiqisi bilicilələri bu rəqsi "Şələqoy" adı ilə təqdim edirlər. Meşədən bir şələ odun gətirən şəxsə müraciətlə "şələni qoy, rəqs edək", – deməklə "Şalaxo" yox, "Şələqoy" adını rəsmiləşdiriblər. Böyük Azərbaycan yazıçısı Əbdürrəhim bəy Haqverdiyevin "Marallarım" əsərində bu rəqs "Şələküm-Mələküm" adlanır.

❹ "Halay" – "Yallı" (Halay), türk və Altay xalq mədəniyyətində mərasim rəqsidir. Kökləri eramızdan əvvəlki dövrlərə gedən bir oyundur. Özündə həyatın enerjisini, həmrəyliyi, hərəkəti, dayanıb-davam etməyi və ritmi ehtiva edir. Odla, yəni həyati enerji ilə bağlı olması bu oyuna verilən əhəmiyyəti göstərir. Primitiv formasının adı tarixi mənbələrdə "Allı" şəklində yazılır. Qobustan qayalarında çəkilən şəkillərdə bu oyunun təsvir edildiyi görülməkdədir. Yallı rəqsi oxuma və əlçalma ilə də müşayiət oluna bilər. Bu rəqs əvvəllər əmək xarakteri daşıyardı.

"Yallı" böyük bir dəstənin birgə iştirakı ilə ifa olunur. Dəstənin başında əlindəki yaylığı (dəsmalı) yellədərək qabaqda gedən "yallıbaşı" durur. Başqa iştirakçılar isə qollarını açaraq bir - birilərinin çeçələ barmağından tutur, ya da əllərini bir - birilərinin çiyninə qoyurlar. Yallı gedərkən çox vaxt yallıbaşı kamanı bir əlində tutub silkələyərək, həm səsləndirir, həm də rəqsin ölçüsünü oynaya - oynaya qeyd edir. Bu rəqs üç hissədən ibarətdir: əvvəlcə təntənəli və aram addımlarla başlanır, getdikcə sürəti artmağa başlayır və texniki cəhətdən mürəkkəb tullanma hərəkətlərilə davam etdirildikdən sonra, əvvəlki təntənəli və aram yürüşlə tamamlanır.

❺ "İnnabı" – Azərbaycanın məşhur qədim qadın rəqslərindən biridir. Ermənilər tərəfindən "Unabi" kimi qələmə verilir. "İnnabı" bir rəqs forması kimi, varlı və zadəgan qadınların evində meydana gəlib. Bu rəqsin əşyaları kələğayı, alına taxılan qızıl pullar, habelə kəhrəba, mirvari və qızıl boyunbağları sayılır.

Rəqsin ölçüsü 6/8 (3/4) nisbətindədir; hərəkətləri aram və süzgün, tempi isə ortadır. Qadın-qız yığıncaqlarında, toylarda, şənliklərdə oynadı. Bir və bəzən iki qız tərəfindən ifa edilir. Məzmunca çox sadədir. Burada ifaçılar qadınların nazqəmzəsini göstərməyə çalışırlar. Rəqsi qızlardan biri başlayır. Sonra ikinci qız guya könülsüz olaraq ona qoşulur və daim nazlanaraq kənara çəkilmək istəyir, ancaq rəfiqələr razılığa gəlib şən, coşqun hərəkətlərlə rəqsi davam etdirirlər. "İnnabı"nı ifa edərkən bəyaz rəqs paltarı heç də yerinə düşmür.

Ona görə də, keçən əsrin 30-50-ci illərində rəqqasələr zər-xaranı imitasiya eləyən paltarlar geyinirdilər. Hətta Əminə Dilbazi xatırlayır ki, o, adi sovet üç qəpiklərini parıldadıb sinəsinə, alnına taxırdı və qızıl pul illüziyası, qədimilik illüziyası, boyunbağı, cütqabağı illüziyası yaradırdı.

❻ "Ceyranı" (Ceyran balası) — qədim Azərbaycan milli rəqslərindən biridir. Şuşada yaranıb. İncə, xoşagələn lirik rəqsdir. Burada ceyranın qəddi-qaməti və hərəkətlərinin mülayimliyi qabarıq göstərilir. Rəqs orta tempdə gedir, əsasən qadınlar tərəfindən ifa olunur. Lakin bəzi rayonlarda, məsələn, Şəkidə onu kişilər də oynayır. Bu rəqs indi də məşhurdur.

❼ "Tərəkəmə" – Azərbaycan xalq oyun havası. Adından da məlum olduğu kimi, tərəkəmə köçəri maldarların bayram şənliklərində, toy - büsatında ifa etdikləri rəqsləri müşayiət edən diringilərdən biridir; segah muğamı kökündə olan oyun havasıdır.

❽ Cəngi - qəhrəmanlıq və cəngavərlik ruhunu ifadə edən gümrah və şən musiqi əsəridir. Cəngi pəhləvanlar yarışında da (pəhləvani), cıdır düzündə də çalınır. Bir qayda olaraq, zurnaçılar dəstəsi tərəfindən ifa olunur. Ölçüsü 2/4 nisbətindədir. Bəzi mütəxəssislər "Cəngi" sözünün "zəngi"dən törədiyini deyirlər. Zəngi qədim Oğuz türk tayfaları olub: "Zəngilan", "Zəngibasar" toponimləri bu tayfalarla bağlıdır.

Biz bu siyahını çox uzada bilərik. Ermənistan, BMT-nin əqli mülkiyyət sahəsində ixtisaslaşmış bir qurumu olan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının üzvü olduğundan, bütün ölkələr kimi, əqli mülkiyyətin qorunması ilə bağlı prinsiplərə əməl etməyə borcludur. Lakin buna əməl etmir, digər məsələlərdə olduğu kimi, əqli mülkiyyət sahəsində də beynəlxalq hüquq normalarını kobud şəkildə pozur. Lakin ÜƏMT-nin "Folklor nümunələrinin qeyri-qanuni istifadəsinə və digər zərərli hərəkətlərə qarşı" beynəlxalq Konvensiyasının yaxınlarda qəbul ediləcəyi gözlənilir ki, bu da erməni saxtakarlarını tələsməyə məcbur edir. Odur ki, Azərbaycan tərəfi bu haqq mübarizəsində mütləq qalib gəlməlidir.

**Aynur TAĞIYEVA,**
**AMEA-nın əməkdaşı**





**Sara SELCAN**

## Yoxluğun

*ürəyimin əllərindən tutub gəlir,
indən belə ona üzü üstə
iməkləməyi,
sənsizlikdə addımlamağı,
ümiddən tuta-tuta yeriməyi
öyrədəcək.
Hər darıxanda
Çəkib başıma içərkən
bir az dağıdacam xatirələrindən
üst-başına qəlbimin.
Ürəyimin dibinə enəcək
Xatirələrin,
Ürəyimin dibinə enəcək...*

***

*Baxışımla yığıram
Xatirən dağılanda
Ağ atlı oğlan idin
Ömrümün nağılında.*

*Bəs xoşbəxt olacaqdıq
Niyə bərbad alındı
Simurq quşu da yoxdur
Desin al lələk yandır.*

*Hələ yaram istidi
Soyuqdu ayrılığın.
Yadından çıxmırsan heç
Unutduğun varlığın?*

***

*Dayan, kimsən, nəçisən,
Yaddaşım dağınıqdı,
Gözlərim zəifləyib,
Xatirən bulanıqdı.*

*Tələsmə bir-bir sadala
Adları, tanımadım…
Küçənizdə sahibsiz
itləri tanımadım.
Onda niyə həssasdım,
İndi niyə beləyəm?
Qorxma, zarafatdı bu -
Sən gördüyün dəliyəm.*

***

*Qəfil girdin beynimə,
Gözəgörünməz əllərinlə
Sirayət etdin canıma, qanıma.
Alıb apardın məni
Yüpyüngül boşluğa.
Cismimi cəsədə döndərib
Ruhumu yox etdin az qala.
Amma yox imiş
Bu vaxt gedişimə
Allah rizası-
Gözəgörünməz qələmlə Tanrının
Alnıma həkk etdiyi yazı.
Öldürə bilmədin məni Dəm qazı.*

## Ay kimi ağ

*Ağ-Ay kimi ağ,
Səndən köçmək kimi
Çətindir sənə qayıtmaq.
Səndə olmazları görmək,
Səndə olacaqları
Heç kimdə olmayacaq qədər
Müqəddəs bilmək.
Sevmək, sevmək,
Sevərək ölmək- qovuşmaq
Və yenə sevmək.
Ay kimi ağ arzular qanadında
Göyün yerində
Nura çevrilmək,
Gecələrin birində.*

## Mən şəkilsiz adamam

*Mən şəkilsiz adamam,
Belə ki
Şəkil yerinə yaz yağmurunun ətrini
Təsəvvür edin,
İyləyin,
Çəkin ciyərlərinizə bu ətri
ən dadlı qoxu kimi.
Onda apaydın görünəcəm*

*Sirsiz, tilsimsiz və daha nələrsiz,
Özüm olduğum kimi.
Mən şəkilsiz adamam
Və həm də sənsiz.*

## Yar asalar

*Sevən eşq hərisidi,
Eşq ruhun nəfəsidi,
Gecənin dəlisidi
Uçuşan yarasalar.*

*Hanı öldüyüm sevgi,
Canı verdiyim sevgi,
Məlhəm bildiyim sevgi
Könlümə yara salar.*

*Yarın yarsız nə əlacı,
Gün var şirin, gün var acı,
Əkmədim bu ağacı
Sonunda yar asalar.*

*Bax e, necə bilməmişəm,
Bu çağadək görməmişəm,
Diriyəmmiş, ölməmişəm,
Tanrım, necə diri qaldım?*

*Ey, yoxsa ki sən çağırdın?!*

## Həyatın cavabı

*Vaxtın azadlıqsız sərhəddində
Qoca-qəddi bükülmüş,
Özü də bilmədən
Ömür adlanan oyunda
Aldanmış oyunçunu oynamış,
Oynadıqca doymamış,*

# Dayan, kimsən, nəçisən, yaddaşım dağınıqdı, Gözlərim zəifləyib, xatirən bulanıqdı

## Xan çobana

*Sellər təkcə sudan olmur,
Xan Çoban,
Xan Çoban, sellər
təkcə dağdan gəlmir.
Bir yaşda deyiləm ruhumla, yəqin,
O söylədikləri yadıma gəlmir.*

*Min ilin yağmurun
daşıyır ruhum,
Ruhumun əli var ağrılarımda.
Eyni röyanı görsəm də illərdir,
Hələ də azıram yuxularımda.*

*Gedirəm, getdiyim
yolu yormadan,
Varlığın tapmağa
öz yoxluğumun.
Gözümlə görürəm ilahi eşqin
İçimdə böyüyüb söz olduğunu.*

## Misra-misra...

*Rəsmimi çəkən oğlan,
Qəlbimdəki ümidi tünd elə,
Çarəsizliyi açıq,
Gözlərimə kədər qat azacıq.
Ovunmadığım ağrıları
Bütün rənglərin qarışığından çək-
Qırıq-qırıq.
Adını deyimmi onların?
-Qəzəb və hıçqırıq.
Qalın elə
ovuclarımdakı inamı
Yapışıb dura bilim.
Mən daşlı yollardan keçib gəldim,
Önümdəki yolları kəsəksiz çək,
Ayağımı yalın elə.
Su bəyazlığı qat çohrəmə
Yuyunub durula bilim.
Saçlarımın ucundan
Dabanımacan
Nəfəsimi çək.
Çək, çək, səsimi çək,
Çatırsa haracan.
Rəsmimi çəkən oğlan,
misra-misra damcılayan
ömrümü çək.*

## Gözəl

*Dünya sınıq pəncərə,
Kimlər keçmir hər cürə,
Baxdım dərviş, tacirə,
Ağam, qulumdan gözəl.*

*Kim məsum, kim paxıldı,
Ürəyinə yaxındı,
Mənim ömrüm nağıldı,
Əvvəli sondan gözəl.*

*Şər şərliyin atmadı,
Gecə-gündüz yatmadı,
Şeytan paltar tapmadı
Mələk donundan gözəl.
Könlüm söz naşəsidi,
Söz saflar peşəsidi,
Daha nə düşəsidi.
Bəxtimə bundan gözəl.*

*Gah gen dünya, gah da dar,
İçimdə min dünya var,
Hələ də bu dünyada
Ölüm olumdan gözəl.*

## Duyğuların ağrısı

*Göy üzü bulud-bulud,
Ay buludlar içində.
Çəmənlər çiçək-çiçək,
Çiçək otlar içində.*

*Nisgilli ayrılıqlar
Yer üzündə hələ var.
Hansı ad ilə qalar
Adım adlar içində.*

*Ruhunda fəryad adam,
Məni sən oyat, adam.
Dünya dolu yad adam,
Mən bu yadlar içində.*

*Bağrım o daşda yandı,
Gözlərim yaşda yandı,
Alışdı yaş da yandı,
Quru odlar içində.*

*Tanrı sevən kəslərin,
Dinlə eşq hədislərin,
Zədələndi hisslərim
Bu kobudlar içində.*

## Gecə duyduqlarım

*Dünyaya sığmayan istəklər var,
İçi duyulmayan təklər var.
Var su bəyazlığı,
Yovşan qoxusu,
Bir də düzənlik azadlığı.*

*Ağ ay kimi ağ
Yaddaşımın mağara qaranlığında
Yovşan qoxulu sirlər var,
Gözlə görünməz,
Sözlə oxunmaz.
Duyduqca duyular.*

*Gecə quşları uçduqca uçar
Uçmaz içimlə çölüm arasında
Sədd-divar.*

*Batdığım qaranlıqda
Nəsə söylər mənə
Yuxularımla
Gündoğandan gələn mələk
Yovşan qoxuyaraq.*

***

*Unudub dörd yanımı,
Adına düşdüm, Allah.
Axır ki, gec də olsa
Yadına düşdüm, Allah.*

*Demə yadındaymışam
Şeir bir az çaşdırıb.
Onunçün də yadına
Bəxtim belə gec düşüb.*

*Gec də olsa, nə yaxşı
Bəxtimi kəm qoymadın.
Dünyadakı dərdlərdən
Məni nakam qoymadın.*

*Açılmadı o qönçə də,
Saraldı gülüm, saraldı.
Elə yandı bir gecədə
Bülbülə tək külü qaldı.*

*Məlhəm yoxdu bu yaraya,
Dost da tapılmaz haraya,
Neyləmişdim ki, dünyaya
Məndən belə qisas aldı.*

*Oynamış,
yenə oynamış
Uduzub sonra tüpürmüş.
Ən gözəl arzularını
Etdiyi səhvlərdən
Həyatı
Siqaret kimi çəkib,
Külünü üzünə üfürmüş.
İndi mənasız gözlərində
Mənalı suallar var həyata.
Cənab Ölüm
Yaxınlaşır ona
Özü də hiss etmədən
Hər gün
bir addım daha.*

## Sular kimi...

*Candır yer əmanəti,
Ruhumuz sirr yerində.
Bizə yaşamaq düşüb,
Bu naməlum ömürdə.*

*Gündəlik qismətindir-
Əzab, arzu, sevgi, nifrət.
Sən istədin, istəmədin
Budur, əbədi həqiqət.*

*Alın yazında kodlaşıb,
Nə vaxt gedib qalmağın.
Sənə kömək olar ancaq,
Sular kimi pak olmağın.*

## Bütün ayrılıqlara

*Bir az unudum səni,
Səni bir az saxlayım.
Ya susum, gözlərimdə
əbədi yas saxlayım.*

*Asıldığım umudun
Kəndiri köhnə, qırıq.
Həbs edibdi Günəşi
Bəxtimdəki qaranlıq.*

*Yaman insafsızdılar
Qəhr olsun onlara.
Qocaman nifrətim var
Bütün ayrılıqlara.*

Aydın YOL
N 39(48) 16.10.2015



# Heç zaman unutmayacağımız yay



**Marçello VENTURİ**
**(İtaliya)**

Əsgər şəhadət barmağını irəli uzadıb soruşdu:

- Bu senin uşak?

- Hə, - kəndli cavab verdi.

- Bu da arvat?

- Hə.

- Men uşakları çok sevar...

…Yay fəsli idi. Günəş zəmilərdə taxılı, meşələrdə küknar ağaclarını yandırıb yaxır, Pistoyi dağlarının yamaclarına sığınmış kəndli daxmalarının çızdağını çıxardırdı…

- Evda menim çoklu uşak var, - əsgər sözünə davam elədi. O, əlindəki sumbata kağızıyla öz yük avtomobilinin qara kamerini sürtüb təmizləyir, heç yana tələsənə oxşamırdı. Alnı büsbütün tər içində idi; qırx dördün yayı heç dözüləsi deyildi.

- Men uşakları çok sevar...

O, kameri sürtə-sürtə samanlığa tərəf gedib əncir ağacının kölgəsində oturdu, yerini rahatlayıb su istədi. Kəndli bir vedrə su gətirib onun böyrünə qoydu, sonra çəkilib evin kandarında dayandı. Kəndlinin arvadı, körpə də qucağında, ərinin arxasına qısılıb əsgərin bütün hərəkətlərinə oğrunoğrun göz qoyurdu.

...Yay fəsli idi. Belə bürkü, belə quraqlıq qabaqlar heç vaxt görünməmişdi. Həmin yay dəhşətli dərəcədə isti, üstəlik də, qanla suvarıldığından qırmızıydı. Qıpqırmızı yay! Heç zaman unutmayacağımız yay. Qırx dördün yayı. O il zəmilərin torpağı quruyub qaxaca dönmüş, susuz dodaqlar kimi çat-çat olmuşdu...

- Men Almaniya gedar. Kaput, her şey kaput, men da Almaniya gedar.

"Kaput" – o kəndli düşündü. Sonra arvadına sarı döndü:

- Keç evə!

...O günlər Modenə gedən şose yoluyla yük maşınlarının uzun qatarı ötüb keçirdi və tez-tez bu maşınlardan biri dayanır, sarısaç alman əsgərləri həyət-bacalara doluşub əllərinə keçəni acgözlüklə qamarlayıb aparırdılar. "Heç nəyim yoxdu" – kəndli arvadının qucağındakı uşağı göstərmişdi, almanlarsa çığırışa-çığırışa samanlığın altını üstünə çevirmişdilər; paltarlarına bənd edilən pulemyot lentlərini onlar elə bir zövqlə hiss etdirirdilər ki, heç bayrama hazırlaşan qadınlar da öz krujevalarıyla bu cür öyünə bilməzdilər...

…Günəş taxıl zəmilərini yandırıb-yaxır, sanki onlara divan tuturdu. Qırx dördüncü ilin taxılı da qırmızıydı, sarı deyildi. Meşələrdə küknar ağacları bürküdən qarsıyır, yamaclara səpələnmiş kəndli daxmaları od tutub yanırdı. Kəndlilər yorğun addımlarla düzəngaha enirdilər. Onlar öz ev-eşiklərini yığıb-yığışdırıb balaca boxçaya düyünləmişdilər və bu balaca boxçaları ağacların ucuna keçirib çiyinlərinə atmışdılar. Evlər. Qara boxçalara yerləşdirilən, ağacların uclarında yellənən evlər…

- Men Almaniya gedar, - əsgər dedi. - Davada yakşı şey yok.

Kəndli səsini çıxartmadı.

- Men yemak ister.

Əsgər tərli-tərli gülümsünüb kameri otun üstünə tulladı və əllərini vedrəyə soxdu. Sonra maşına tərəf gedib oturacağın altından əsgi götürdü, əllərini silə-silə kəndliyə yaxınlaşdı. Əsgərin üzü büsbütün tər içindəydi; tər damcıları alnından sürüşüb yanaqları boyunca aşağı süzülür, boynuna tökülürdü. Əlini alnına çəkib yenə gülümsədi.

- Çok isti. Guneş batanda men gedar.

…Dostlar, qırx dördüncü ilin o qızmar yayı bizim ölüncə yadımızdan çıxmaz. Elə o boxçalar da. O boxçalarda ev vardı, qəbiristandakı məzar vardı. Od tutub yanan küknarlar! Onlar bizimkiydi. Taxıl da bizim taxılımız idi. Ağacların yoğun budaqlarından sallanan uzunboğazlı cavanlar da öz qardaşlarımız idi...

Əsgər kəndli ilə üzbəüz durub soruşdu:

- Senin yumurta var? Senin sut var?

Kəndli başını aşağı salıb, öz yalın ayaqlarına, yamaqlı şalvarına baxdı.

- Mənim heç nəyim yoxdu.

- Yokdu?

Əsgərin sifəti tutuldu və daş kimi sərtləşdi.

- İtalyanlar yok deyar. İtalyanlar her zaman yox deyar.

Kəndli əllərini də köməyə çağırıb qandırmağa çalışdı:

- Sənin dostların inəyimi apardılar. Mən onlara dedim ki, evdə körpə uşaq var. Dedim ki, inəyi aparsanız, bu günahsız tifil acından öləcək. Onlarsa dedilər: biz heç nə başa düşməz. Dedilər biz döyüşürük, savaşırıq, biz sizin torpaqları qoruyuruq, buna görə də siz bizi yemləməlisiz! Bax, sənin dostların mənə belə dedilər.

- Men başa duşmez.

- Sən başa düşmürsən, mənsə nə dediyimi yaxşı bilirəm.

- Men başa duşmez, - əsgər təkrar elədi.

- Çörək, - kəndli sanki indicə yadına düşübmüş kimi qəfildən dilləndi, - sənə təkcə çörək verə bilərəm.

- Çurek?

- Hə, çörək. Olanım təkcə çörəkdir.

- Men ev ister. Bura çok isti.

- Evdənsə əncir ağacının kölgəsi sərin olar.

- Yok, - əsgər razılaşmadı və kəndlini kənara itələyib, yenə öz dediyini dedi: - Men ev ister.

…Qırx dördüncü ilin yayında bizim evlərimizə soxulan əhlikef alman əsgərləri nə qədər olub?! Kəndli əsgərin arxasınca düşdü. Biz hamımız bu cür candərdi addımlarla onların arxasınca düşmüşük və baxmışıq ki, görək bu əhlikeflər bizim evlərimizdə necə ağalıq edəcəklər...

- Sən yuxarı qalx! - kəndli arvadına bozardı.

Qadın qucağındakı uşağın arxasından qəribə tərzdə gülümsündü. Bu təbəssüm adi təbəssüm deyildi, yox, qırx dördüncü ilin təbəssümü idi. Əsgərsə qadının nərdivanla yuxarı qalxmağa hazırlaşdığını görüb, təəccüblədi:

- Niye? Qorkursan?

Və kəndliyə sarı dönüb onu qandırdı ki, qoy arvadını qalmağa məcbur eləsin.

- Menim Almaniyada çoklu uşak var. Arvat da. Qorkma.

Qadın neyləmək lazım gəldiyini bilmədiyindən eləcə ürkək nəzərlə ərinin gözlərini aradı və elə nərdivanın yanındaca quruyub qaldı. Otaqda bir masa, bir neçə stul vardı. Əsgər stullardan birini altına çəkdi, cibindən dəsmalını çıxarıb yanağı boyunca sel kimi axan təri silməyə başladı.

- Men çurek ister.

Bu sözləri sanki nərdivanın yanında quruyub qalan qadını sakitləşdirmək xatirinə söylədi. Sonra uşağı göstərib:

- Yaş neça? - soruşdu.

- Üç, - qadın cavab verdi.

- Balaca, çok balaca. Bes senin?

Qadın təzədən ərinin üzünə baxdı.

- Senin yaş neça?

- İyirmi beş, - qadın cavab verdi və yalvarıcı nəzərlə ərinin üzünə baxdı.

Neyləmək lazım gəldiyini yazıq heç cürə kəsdirə bilmirdi; bilmirdi ərinin dediyinə əməl eləyib yuxarı qalxsın, yoxsa əsgərin buyurduğu kimi elə bu otaqdaca qalsın. Ona görə də qəhərdən gözləri yaşarmışdı və göz yaşını qucağındakı uşağın arxasında gizlətməyə çalışırdı.

- Sen yakşı xanım. Sen qorkma. Mən burda oturar, çunki maşın çok isti. Men geca gedar.

…O ilin yayında istidən nəfəs almaq olmurdu. Biz bürküdən və alman əsgərlərinin odsaçan silahlarından boğulurduq. Ağaclarımız şam kimi tutaşmışdı. Arvadlı-kişili hamı qoyun kimi bir-birinə qarışıb, sərsəm-sərsəm düzəngaha enirdi. Amma onlar qoyun deyildilər, onlar hamısı insan idi, xalis insan; hərəsinin də çiynində balaca bir boxça – bütün ev-eşikləri yüklənmişdi…

Əsgər papiros alışdırdı.

- Menim Almaniyada arvat var. Menim arvat qozel. Amma sen çok qozel.

Qadın gözlərinin yaşını silmək üçün uşağa lap bərk qısıldı. Onun boğazı qurumuşdu, ürəyi isə qorxudan bərk-bərk çırpınırdı.

- Bas çurek? - əsgər kəndliyə sarı dönüb soruşdu.

Kəndli elə bil min ilin yuxusundan ayıldı və ağır addımlarla şkafa yaxınlaşdı. Şkafdan bütöv bir çörək götürüb bıçaqla birgə masanın üstünə, əsgərin qabağına qoydu. Sonra yenə bayaqkı yerinə keçib divara söykəndi, əllərini cibinə soxub küt nəzərlərlə düz qənşərinə baxmağa başladı. Göz yaşını qucağındakı uşağın arxasında gizlətməyə çalışan cavan arvadı isə hələ də nərdivanın yanında durmuşdu.



Əsgər çörəkdən bir dilim kəsib:

- Men encir ister, - dedi.

Kəndli əlini həyətə tərəf uzatdı:

- Əncir ordadı.

- Get getir.

Ancaq kəndli yerindən tərpənmədi.

- Mən gedərəm, - qadın nərdivanın böyründən bir-iki addım aralanıb qapıya yönəlmək istədi, ancaq əsgər cəld yerindən qalxıb onun qarşısını kəsdi və şəhadət barmağını hökmlə kəndliyə sarı uzadıb amiranə tərzdə dedi:

- O!

Kəndli qapıya tərəf yönəlib kandarda ayaq saxladı və bayırda tüğyan eləyən bürküyə, əncir ağacının altına atılmış kamerə baxdı. Sonra dönüb arvadına sərt bir nəzər saldı. Qadının uşağın arxasından ərinin gözlərinə baxdı, sonra da onun günəş şüalarından qarsayıb ağarmış samanlığa doğru hansı hikkəylə getdiyini gördü. Qadının ürəyi az qala ağzından çıxacaqdı.

- Çok isti, - əsgər qadını diqqətlə gözdən keçirib tələsmədən qapıya yaxınlaşdı, cəftəni keçirib qadınla üzbəüz dayandı və düz gözlərinin içinə baxıb soruşdu:

- Ad neca?

Qadın bir şey anlamadı. O yalnız qucağındakı uşaqla döşləri arasına hansı bir əlinsə soxulduğunu hiss elədi.

- Aç! - kəndli qapının o üzündən bağırdı. - Aç, alman, səni əcəl girləyir, aç!

Qadın əsgərin tapançanı qoburdan necə çıxartdığını, alnının tərini silib hazır tapança ilə qapıya tərəf nə təhər getdiyini gördü və... gözləri yumuldu...

…Qırx dördüncü ilin yayı idi. Bu – həmin yay idi. O kəndli də mən idim, sən idin, biz idik. Və bizim əlimizdə silah vardı. Biz o silahı quru otların altında gizlətmişdik. Biz o silahı samanlıqdan götürmüşdük. Yay idi. Qırx dördüncü ilin yayı. O yay ki, heç vaxt heç birimizin yadından çıxmaz. O yay ki, biz onu heç zaman unuda bilməyəcəyik. Və məhz o zaman, həmin o yay fəslində biz də güllə atmağı, öldürməyi öyrəndik...

**Tərcümə edən:**
**Mahir QARAYEV**

# canlı və Hər suala

**Bu səhifəni uşaqlar, yeniyetmələr üçün hazırlamışıq. Amma bu heç də o anlama gəlməsin ki, səhifəmizi oxuyarkən böyüklər zövq almayacaq. Mütləq alacaqlar, çünki elm öyrənmək, savad almaq insanın əbədi, həmişəcavan arzularındandır. Bəşəriyyət zaman-zaman adamları iki yerə bölüb: savadlılara və bisavadlara. Bütün sivilizasiyalar ona görə sivilizasiya olub ki, içindəki savadlı kəsim, düşünən insanlar artıb, fərqli bir mədəniyyət yarada bilib.**

**Müasir dövrdə elmə, biliyə can atmaq daha vacibdir, çünki dünənə kimi qarşımızda bir sirr olaraq qalan çox mətləblər artıq çözülə-çözülə gedir, bildiklərimiz artır, bilmədiklərimiz azalır. Amma nə qədər öyrənsək də, bilmədiklərimiz bildiyimizdən qat-qat çox olaraq qalacaq. Səhifəmizi müntəzəm izləsəniz, minlərlə mürəkkəb sualın sadə cavabını tapacaqsınız. Bu mətləblərin əksəriyyəti ilə orta məktəbdə rastlaşmışıq, amma təəssüf ki, dərsliklərimizin, nədənsə həmişə qəliz olan elmi dili ucbatından çox şey əxz edə bilməmişik. Biz heç də o iddiada deyilik ki, "Hər suala bir cavab" rubrikamızı izləyə-izləyə savadlanacaq, alim olacaqsınız. Məqsəd uşaqlarımızın dünyagörüşünü genişləndirmək, onları həmişə diqqət mərkəzində olan maraqlı həmsöhbətə çevirməkdir.**

**İlqar ƏLFİ**



## İt cinslərinin adları hardan yaranıb?

Siz əgər kənd yerində yaşayırsınızsa və qoyun-keçi, inək-camış saxlayırsınızsa, balaca itlərə ehtiyacınız olmayacaq. Amma şəhərdə, çoxmərtəbəli binanın kiçik mənzilində yaşayırsınızsa, yekə, uzun tüklü itiniz olsa, eviniz darmadağın olacaq.

İt bütün heyvanlardan əvvəl əhliləşdirilib və insan bu zaman ərzində müxtəlif məqsədləri üçün 200-dən artıq it cinsi alıb.

Xəbəriniz var ki, qədim romalılar itləri cəmi üç qrupa bölürdülər: ağıllı itlər, döyüş itləri, qaçağan itlər? Bu gün Beynəlxalq İtçilər klubu itlərin altı əsas sinfini müəyyənləşdirir: qoxunu havadan alaraq ov edən idman itləri; qoxunu yerdən alan ov itləri; yeri eşərək gizlənib ov edən teryerlər; işçi itlər; kiçik otaq itləri və bir də çox yerdə tətbiq olunan qeyri-idman itləri.

Bəzi it cinsləri öz adlarını özlərinin səciyyəvi xüsusiyyətlərinə əsasən alıblar. Məsələn, ingiliscə "bloodhound" adlanan itlərin qan iyini duyma özəlliyi var. Amma tazının öz adını necə alması heç vaxt ağlınıza gəlməz. Tazı (ingiliscə "greyhound") sən demə, bir zamanlar "graihound" adlanırdı, çünki mənşəyini Yunanıstandan götürmüşdü. Bu cinsin ilkin adı "graykoi", yəni "yunan" olub!

Buldoq cinsi qabaqlar öküzlərlə (ingiliscə "bull") işləmək üçün yetişdirilmişdi. Poynter (ingiliscə "pointer") cinsinin adı da aydındır: bu it ovu burnu ilə göstərir ("point" sözünün ingiliscə mənası həm də "göstərmək"dir). Setter isə bunu başqa cür edir. O, ovun gizləndiyi yerdə durur ("set" ingiliscə "duruş" deməkdir)! Bayaq dediyimiz, yeri eşərək gizlənib ov edən teryerin adı latın dilində "terra" – "yer" deməkdir.

Dovşan qovan tazı (harrier) öz ovunun adıyla (hare) çağrılır. Qısaayaq tazı (beagle) öz adını gel dilindəki "beag" – "balaca" sözündən götürüb. Senbernar cinsinin adı Alp dağlarındakı Müqəddəs Bernar (St.Bernard) monastırından gəlir. Həmin it cinsini orada yetişdiriblər.

Şpits (pomeranian) cinsi Pomeraniyada ( o zamanlar Prussiyanın əyaləti) yetişdirilib. "Mastiff" adı isə italyan dilində "qoruq iti" mənasında olan "mastino"dan gəlir. Spaniyel, elə adından da göründüyü kimi, ispan itidir (Spain – İspaniya). Pudel isə alman dilində "gölməçə" deməkdir – bu it sudan çəkinmir.

## İnsan heyvanları nə vaxt əhliləşdirməyə başlayıb?

İnsan heyvanları əhliləşdirməyə başlayanda sivilizasiya yaratmaq yolunda özünün ən böyük addımlarından birini atmış oldu. Çünki əhliləşdirilmiş heyvanlar insana qida verir, onun ehtiyacı olduğu ət ehtiyatlarından nigaran qalmamasını təmin edirdi. O, qarnını doyurmaq üçün artıq ovdan asılı deyildi. O artıq daimi sığınacaqda məskunlaşa, oturaq həyata keçə bilərdi, özünə məişət əşyaları düzəldə bilərdi. Bir sözlə, insan o zamandan yeni tip cəmiyyət qurmağa başladı.

Bu və ya başqa heyvanın nə vaxt əhliləşdirildiyini kimsə dəqiq söyləyə bilməz. Bircə bunu demək olar ki, bu çox qədim zamanlarda baş verib. İtdən sonra iri buynuzlu heyvanlar, qoyun-keçi, donuz gəlirdi. Bu heyvanlar da elə yük heyvanları dəvə, eşşək kimi ilk dəfə Avropada deyil, çox güman ki, Asiyada əhliləşdirilmişdi.

Təəccüblü deyil ki, ilk ev heyvanları arasında ona ov etməkdə yardımçı olan itlərlə yanaşı, qida ehtiyatı yaratmağa kömək edən canlılar da vardı. İribuynuzlu heyvanlar, qoyun, keçi və donuz ət, süd verirdi. Çox güman ki, bundan az sonra ev quşları gəlib. Görünür, indi bizə bəlli olan ev quşlarından ilk əhliləşən qaz olub, onun ardınca ördək gəlib. Bu quşların hər ikisi Qədim Misirdə geniş yayılmışdı. Yeri gəlmişkən, göyərçinlərdən ərzaq kimi istifadə etməklə yanaşı, onlar hələ lap qədim zamanlardan çapar kimi də fəaliyyət göstərirdilər. Şimali Amerikanın qədim sakinləri çoxlu hindtoyuğu yetişdirirdilər.

Yük daşımaq üçün istifadə olunan heyvanlar, görünür ki, iribuynuzlu heyvanlardan, qoyun-keçidən sonra əhliləşdirilib. İlk yük heyvanları, yəqin, dəvə və eşşək olub. At daha sonralar əhliləşib.

Fillər də lap qədimlərdən insanlar üçün işləməyə öyrəncəlidir. Cənubi Amerikada lama artıq neçə əsrlərdir ki, yük daşımaqla məşğuldur.

Pişikləri isə Misirdə, təxminən 3600 il əvvəl ev heyvanına çeviriblər.

## Sirk necə başlandı?

Bir uşağa söyləyin ki, bir zamanlar sirk olmayıb, elə biləcək onu aldadırsınız. Sirki hamı elə sevir, onunla bağlı o qədər əfsanələr, möcüzələr, sehr-tilsim var ki, bir zamanlar olmadığına inanmaq çətindir.

İlk sirklər bizim indi adət etdiklərimizə heç bənzəmirdi. Sirklər qədim Romada da vardı və öz tamaşalarını "Sirkus Maksimus" adlı böyük meydanda göstərirdilər. Əsas attraksion döyüş arabalarının yarışı idi. Bu yarışlar arasında camaatı akrobatlar, kəndirbazlar və çaparlar əyləndirirdi.

Sirk bu gün olduğu formada İngiltərədə XVIII əsrin əvvəllərində keçirilən furqon tamaşalarından yaranıb. Akrobat və fokusçu dəstələri bir şəhərdən digərinə furqonlarında gedirdilər. Həmin furqonlar sirk ustalarının həm də soyunub-geyinmə yeriydi. Onlar öz tamaşalarını irili-xırdalı şəhərlərin yarmarkalarında, bazarlarında göstərirdilər.

Tamaşa üçün qabaqcadan müəyyən bir məbləğ ödəmək lazım deyildi, amma sonda sirkin sahibi şlyapasını camaatın qarşısında açır, pul yığırdı.

Birləşmiş Ştatlarda ilk sirk Filadelfiya və Nyu-York tamaşaçılarına XVIII əsrin axırlarında Rikets tərəfindən təqdim olunmuşdu. Bu çox balaca, amma olduqca populyar bir sirk idi və onun tamaşalarına bir neçə dəfə hətta Corc Vaşinqtonun özü də gəlmişdi.

XIX əsrin birinci yarısında Birləşmiş Ştatlarda artıq çoxlu sirk vardı. Onlar ölkəni özlərinin köhnə furqonlarında gəzir və tamaşalarını yalnız gündüzlər verirdilər, çünki səhnəni işıqlandırmaq üçün heç bir vasitələri yox idi. O zamanlar 9 at və 7 aktyor artıq tam sirk truppası hesab olunurdu. Orkestrin tərkibində şarmanka, klarnet və böyük təbil olurdu.

1860-cı ilə yaxın sirk artıq indiki sirklərə bənzəməyə başladı. Səhnənin üstünü örtən çadır, səhnənin ortasındakı əsas tirin qıraqlarındakı karkas üzərində yanan şamlar imkan verirdi ki, axşam tamaşaları da olsun. İştirakçıların, heyvanların sayı artır, proqrama müntəzəm olaraq yeni attraksionlar əlavə olunurdu. Nəhayət, P.Barnaum adlı bir nəfər peyda oldu və o özünün sirk truppasını ölkəyə qatarla gəzdirməyə başladı və bu minvalla "Yer üzünün ən möhtəşəm şousu!" yarandı.

Aydın YOL
N 39(48) 16.10.2015



## İlk zooparkın əsasını kim qoyub?

Hamı yaxşı bilir ki, zoopark bu gün yer üzündə yaşayan heyvanların həm yaşadığı, həm də tamaşaçılara nümayiş etdirildiyi yerdir.

Bəs vəhşi heyvanları niyə zooparklarda saxlayırlar? Bunun ən mühüm səbəbi odur ki, heyvanlara tamaşa etmək bütün adamlar üçün maraqlıdır. Başqa səbəb belədir ki, alimlər heyvanların həyatını izləmək, onu öyrənməklə çox mühüm şeylərdən xəbər tuta bilirlər.

Beləliklə, zoopark hardasa həm heyvanları, həm də insanları öyrənmək üçün bir məktəbdir. Və, yəqin, buna görə də bizə bəlli olan ilk zooparkın adı "İdrak parkı" olub. Onu eramızdan əvvəl 1150-ci ildə Çin imperatoru yaratmışdı və onun heyvanxanasında maralların bütün növləri, quşlar, balıqlar vardı. Həmin heyvanxananın bir qədər müasir zooparklara oxşamasına baxmayaraq, bir mühüm fərq vardı: o tamaşaçılar üçün açıq deyildi və yalnız imperatorun, onun əyanlarının xidmətində olurdu.

Növbəti böyük zoopark 1829-cu ildə Londonun Ricents-Parkında açıldı. Sonra 1844-cü ildə Berlin zooparkı yarandı və dünyanın ən gözəl zooparklarından biri oldu.

Birləşmiş Ştatlarda ilk zoopark 1874-cü ildə Filadelfiyada, sonra da Sinsinnatidə açıldı.

Yer üzünün ilk əsl ictimai zooparkı 1793-cü ildə Parisdə açıldı. O, "Jardin de Plante" adı ilə məşhur idi. Zooparkda heyvanlar, muzey və botanika, yaxud indiki dildə desək, nəbatat bağı vardı.

## Hansı kinofilm birinci olub?

Kino tarixindəki ən təəccüblü məqam odur ki, bu sahədə ilk kəşfləri bilavasitə kinonun özü ilə maraqlanan insanlar etməyiblər. Bu sahədə ilk kəşfləri heyvanların hərəkət mexanizmi ilə maraqlanan, bu problemi dərindən öyrənməyə çalışan tədqiqatçılar edib. Hətta 1893-cü ildə "kinetoskop" adlanan qurğunu təkmilləşdirən Tomas Edison belə, onu sadəcə maraqlı əyləncə sayırdı. Lakin elələri də vardı ki, bu kəşflərin nəhəng imkanlarını anlayaraq filmlər çəkməyə başladılar.

İlk dövrlərdə bu filmlər sadəcə hərəkət edən obyektlər idi: ləpədöyəndəki dalğalar, qaçan atlar, oynayan uşaqlar, stansiyaya daxil olan qatarlar. Süjeti olan ilk film Edison laboratoriyalarında 1903-cü ildə buraxıldı. Bu filmin adı "Qatarın misilsiz qarəti" adlanırdı və elə tamaşaçılara təqdim olunduğu ilk günlərdən milli sensasiyaya çevrildi.

Birləşmiş Ştatlarda ilk daimi kinoteatr 1905-ci ilin noyabrında, Pensilvaniya ştatının Pitsburq şəhərində açıldı. Kinoteatrı gözəl tərtib etmişdilər. Sahibləri ona "sinematoqraf" ("cinema" kino deməkdir) adı verdilər. Tezliklə sinematoqraflar bütün ölkə ərazisində açılmağa başlandı.

İlk tanınmış rejissorlardan və prodüsserlərdən biri keçmiş aktyor D.Qriffit idi. O, səhnələrin çəkilişi zamanı kino kamerasını hərəkət etdirən ilk şəxs idi. Qriffit həm də montaj texnikasını zənginləşdirdi, kino sənətinə iri plan və bir çox başqa anlayışlar gətirdi. 1814-cü ildə rejissor bütün zamanların ən yaxşı filmlərindən birini – "Millətin yaranışı" filmini çəkdi. Ölkədəki vətəndaş müharibəsindən bəhs edən bu film 750 000 dollara başa gəldi və o zamanların ən bahalı filmi oldu.

Hollivudun kino paytaxtına çevrilməsi isə Sesil de Mill və Cess Leskinin orada çəkilişinə başladığı "Hindu qadının ağdərili əri" filmindən sonra oldu. Qısa bir zamanda başqa kino şirkətləri də Hollivuda köçməyə başladılar və beləliklə, müasir kino böyük sürətlə inkişaf yoluna qədəm qoydu.

## Televiziyanı kim kəşf edib?

Bilirsiniz ki, televiziya kifayət qədər mürəkkəb texniki prosesdir. Onun tarixi kökləri də keçmişdədir. İnamla demək olar ki, televiziyanın inkişafında, təkmilləşməsində minlərlə insanın əməyi var. Beləliklə, heç vaxt demək olmaz ki, televiziyanı konkret bir adam kəşf edib.

Televiziyanın kəşfinə gətirən hadisələr zənciri 1817-ci ildə, İsveç kimyaçısı Yens Berselius selen adlı kimyəvi elementi tapandan başlanır. Daha sonralar aydın oldu ki, selenin keçirdiyi elektrik enerjisinin miqdarı onun məruz qaldığı işığın miqdarından asılıdır. Bu hadisəyə "fotoelektrik" hadisəsi deyilir.

Bu kəşf 1875-ci ildə Amerika ixtiraçısı H.Kerriyə imkan verdi ki, ilk, bəsit televiziya sistemini yaratsın. Kerri öz sistemində fotoelektrik elementlərindən istifadə edirdi. Əşya linzalar vasitəsiylə fotoelektrik elementlərdən ibarət blokda elə fokuslaşdırılırdı ki, hər element sanki közərmə lampasına keçən elektrikin qədərini "kontrol" edirdi. Əşyanın fotoelektrik elementlərə proyeksiya edilən pozuq konturları sonradan közərmə lampası üzərində işıqlanırdı.

Növbəti addım 1884-cü ildə Pol Nipkounun kəşf etdiyi "açılmış təsvir" oldu. Buna fotoelektrik elementlərin qarşısında fırlanan deşikli disk və tamaşaçılar qarşısında fırlanan ikinci bir disk vasitəsiylə nail olurdular. Lakin qurğunun iş prinsipi elə Kerrinin qurğusunda olduğu kimi idi.

1923-cü ildə təsvirin naqillə ötürülməsi üzrə ilk praktiki təcrübələr aparıldı. Bunu İngiltərədə Berd və Birləşmiş Ştatlarda Cenkins etdi.

Sonra isə qəflətən televiziya kameralarının inkişafında böyük bir sıçrayış baş verdi. Vladimir Zvorıkin və Fil Farnsuort bir-biriylə əlaqəsi olmadan "təsvir ötürən boru" və "ikonoskop" kimi tanınan ilk televiziya kameralarını ixtira etdilər. 1945-ci il üçün hər iki kamera daha mükəmməl variantlarıyla əvəz olundu.

Sonralar, uzun müddət televizorlarda "katod-şüa borusu"ndan istifadə olunurdu. Bu şüşə boruda, ekrandakı təsviri eynən ötürücü televiziya kamerasında olan kimi, şüalar vardı və nəticədə biz təsviri görürdük. Siz belə televizorları bəlkə indi də yaşlı adamların evlərində görürsünüz.

Elektronikanın və rəqəmsal texnologiyaların inkişafı ilə televizorlar da tam dəyişib və müasir televizorların zahiri cəhətdən həmin o şüa ilə çalışan qurğulara artıq heç bir bənzəri qalmayıb.

Təbii ki, televiziya barədə sizə dediklərimiz televizorun iş prinsipinin detallarını açmır, amma hər halda müasir televiziyanın prinsipcə necə yaranması barədə müxtəlif ölkələrdəki müxtəlif adamların nə qədər kəşflər, ixtiralar etməli olduğunu qismən də olsa, sizə izah edir.

# bir cavab



# Lüdviq Bethoven - ustadı özü olan ustad



**Onun haqqında belə bir rəvayət dolaşır. Dünya işığından məhrum olan bir qız ondan Aylı gecəni təsvir etməsini xahiş edir. Bəstəkar çox düşünmədən piano arxasına keçib bədahətən ölməz əsəri - "Aylı gecə sonatasını" ifa edir.**

**...Dahi alman bəstəkarı Lüdviq Bethoven 16 dekabr 1770-ci ildə Bonn şəhərində dünyaya gəlib. Atası saray kapellasının tenoru idi, o, oğlunu gələcəkdə Motsart kimi məşhur musiqiçi görmək istəyirdi. Ona görə hələ kiçik yaşlarından onu musiqiyə alışdırır, skripkada ifa etməyi öyrədirdi. İlk dəfə tamaşaçılar qarşısında çıxış edəndə onun cəmi 8 yaşı vardı. Amma bu uğur da atanı qane etmir, saray orkestrində çalışan həmkarlarından xahiş edir ki, Lüdviqə əlavə musiqi dərsi keçsinlər. Orkestrin ifaçılarından kimisi ona orqanda çalmağı öyrədir, kimisi də skripkanın incəliklərini başa salır. Günlərin birində Bonna məşhur bəstəkar Nefe gəlir. Lüdviqin musiqi istedadını da elə o aşkar edir. Nefe ilə bir neçə musiqi məşğələsindən sonra Bethovenin ilk əsəri dünyaya gəlir - bəstəkar Dreslerin marşına variasiya yazır. İllər sonra Bethoven müəllliminə məktub yazıb, ona ilahi musiqini anlamaqda kömək edən bu müdrik sözlər üçün təşəkkür edir. Nefe cavabında təvazökarlıqla deyir: "Lüdviq Bethovenin ustadı yalnız Lüdviq Bethovendir".**

Lüdviq Bethoven hərtərəfli təhsil almaq istəyirdi, ancaq babasının ölümündən sonra ailənin dolanışığı ağırlaşır, o, təhsilini yarımçıq qoymalı olur. Buna baxmayaraq, çoxlu mütaliə edir, əcnəbi dilləri öyrənirdi. Bu müddət ərzində musiqi əsərləri bəstələsə də, üzə çıxarmağa tələsmirdi. Bir neçə il ərzində həmin əsərləri yenidən gözdən keçirir, onların üzərində işləyir, cilalayırdı.

Lüdviq 16 yaşında Vyanaya səyahət edir. Ən böyük arzusu pərəstiş etdiyi Motsartla görüşmək idi. Motsart əvvəlcə ona inamsızlıqla yanaşır. Bethoven xahiş edir ki, sərbəst mövzuda ifa etməsinə icazə versin. Motsart etiraz etmir. Lüdviq bu dəfə improvizələrlə ifa edir. Onu heyranlıqla dinləyən Motsart üzünü dostlarına tutub deyir: "Bu oğlan sizi özü haqqında danışmağa hələ çox məcbur edəcək!" Təəssüf ki, onlar bir də heç vaxt görüşmürlər. Çünki Bethoven təcili evə, xəstə anasının yanına getməli olur. Uzun illərdən sonra Vyanaya qayıdanda isə artıq Motsart həyatda yox idi...

1789-cu ildə Bethoven universitetdə mühazirə dinləmək fikrinə düşür. Yaşlı bir professorun yazdığı mətnə bəstələdiyi təsadüfi musiqi məşhur bəstəkar Yozef Haydnın diqqətini cəlb edir. Ondan musiqi dərsi almaq istəyi ilə Lüdviq yenidən Vyanaya gedir. Amma müəllimi onu məyus edir. Lüdviqin musiqiyə baxışları və yürütdüyü fikirlər həddindən artıq cəsarətli idi, zəmanəsini qabaqlayırdı, bu da yaşlı bəstəkarı narahat edirdi. Amma səbəb təkcə bu deyildi:

"Əsərləriniz çox gözəldir, amma bəzən qarşımıza elə kədərli melodiyalar çıxır ki, o melodiyaları anlamaqda aciz qalırıq. - Melodiyalarınız sizin özünüzə oxşayır, axı siz özünüz də qaraqabaqsız. Musiqiçinin üslubu isə, onun özüdür".

Bir müddət sonra Haydn İngiltərəyə yola düşməli olur, Lüdviq isə Albrextsberger, Salyeri kimi bəstəkarlardan dərs alır. Tezliklə Bethoven ən məşhur pianoçuya çevrilir. Dinləyicilər nəfəs almadan onun improvizələrini dinləyirdilər, çoxları göz yaşlarına qərq olurdu. Deyirdilər ki, o, insan ruhunun ən incə tellərinə toxunur... Musiqisini dinləyənlərə elə gəlirdi ki, o hamının əvəzinə ağlayır...

Bethovenin müasirlərini yalnız onun ifaçılıq manerası təəccübləndirmirdi. Xarici görünüşü və davranışı da qəribə idi. Dağınıq saçlı, səliqəsiz geyimli bu adam dəlisov və çılğın idi. Bir də görürdün, çıxış vaxtı onu dinləməyib söhbətləşən tamaşaçılara kobud söz dedi, ya da imperatorun ünvanına heç də xoşagəlməz ifadə işlətdi... Bir gün ondan israrla bir şey çalmağı xahiş edən knyaz Lixovskinin evini tərk edib ona belə bir məktub yazır:

"Knyaz! Bethoven olduğum üçün mən yalnız özümə borcluyam. Dünyada min dənə knyaz var, Bethoven isə təkdir!" Bir dəfə isə Höte ilə yol gedərkən saray əyanlarının müşayiəti ilə gəzən imperatriçəyə rast gəlirlər. Höte şlyapasını çıxarıb imperatriçənin qarşısında təzim edir, Bethoven isə şlyapasına yüngülcə toxunub saymazyana ordan uzaqlaşır...

1790-cı ilin sonunda Bethovenə bəla üz verir, o, tədricən eşitmə qabiliyyətini itirməyə başlayır. Həkimlər sağalması mümkün olmayan xəstəliyin diaqnozunu qoyurlar - daxili qulağın iltihabı. Musiqiçi üçün bu, ölümə bərabər idi. Lüdviq bədbinliyə qapılır, hamıdan uzaqlaşıb tənhalığa çəkilir. Bir müddət sonra isə Vyana yaxınlığındakı Heylingestada köçüb yoxsul bir kəndli daxmasında yaşamağa başlayır. Həyat və ölüm arasında qalan bəstəkar məyusluğunu "Heylingestad vəsiyyətnaməsi"ndə dilə gətirir:

"Məni qəddar, inadkar, eqoist sayan insanlar! Sizin buna haqqınız yoxdur! Siz məsələnin ancaq üst tərəfini görürsünüz, mahyyətindən xəbərsizsiniz. Mən xeyirxah və sevgi dolu bir insan idim. Amma artıq 6 ildir ki, naşı həkimlərin əlində dözülməz həddə çatmış xəstəlikdən əziyyət çəkirəm. Mənim kimi həyat dolu bir gənc, insanlarla ünsiyyətdən böyük zövq alan bir insan insanlardan uzaq durmalı və təkliyə qapılmalıdır! Artıq kahin kimi təktənha ömür sürməliyəm. Təsəvvür edə bilməzsiz, musiqi səslərini incəliyinə qədər eşidə bilməməyim məni necə alçaldır və sarsıdır! Bütün bunlar məndə ruh düşkünlüyü yaradıb, dəfələrlə intihar haqqında düşünmüşəm. Yalnız incəsənət məni ölümdən qoruyub. Anladım ki, etməli olduğum (mən bunu bütün qəlbimlə hiss edirəm) işləri başa çatdırmadan ölməyə haqqım yoxdur. İlahi, sən özün mənim qəlbimi görürsən, bilirsən ki, orda insanlara qarşı necə böyük sevgi və xeyirxahlıq hissi var. Ey insanlar! Əgər bu məktubu oxusanız, xatırlayın ki, mənə qarşı necə ədalətsiz olmusunuz. Əgər kimsə bədbəxtdirsə, qoy bu sözləri oxuyub təsəlli tapsın, bilsin ki, onun kimi insanlar çoxdur, onlar həyatdakı maneələrə baxmayaraq, layiqli adamların və sənətkarların sırasında yer tutmaq üçün əllərindən gələni ediblər..."

Bethoven təslim olmurdu! Vəsiyyətnaməni yazar-yazmaz onun qəlbində Tanrı xeyir-duası kimi "Üçüncü simfoniya" doğuldu. Bu, tamamilə fərqli əsər idi. Bəlkə də çətinliklə dünyaya gəldiyinə görə bu "övladını" - yeni əsərini Bethoven daha çox sevirdi. "Üçüncü simfoniya"dan sonra bəstəkar sanki öz missiyasını yenidən dərk etdi:

"Həyatım yalnız əbədi və müqəddəs İncəsənətə məxsusdur! Bu, insanlar və Tanrı qarşısında borcumdur".

Yeni əsərlərin ideyası ulduz yağışı kimi yağırdı; məhz bu dövrdə fortepiano üçün "Appassionata sonatası", "Fidelio" operası, "Beşinci simfoniya"nın fraqmentləri, çoxsaylı variasiyalar, marşlar və s. nümunələr meydana gəldi. Bəs eşitmə qabiliyyətini tamamilə itirən bəstəkar necə musiqi yazırdı? Məsələ burasındadır ki, səslər onun beynində yaranır, nota köçürdü. Bəstəkar səsləri eşitməsə də, onları təsəvvür edə bilirdi.

Özü də fərqində olmadan, Bethoven hamıya doğma olan bir adama çevrilirdi. O, anlayırdı ki, yalnız özü üçün yaşaya bilməz, bütün insanlıq üçün yaşayıb-yaratmalıdır. Yeganə düşməni, yolundakı əngəl özü idi: "İlahi sən mənə kömək elə ki, özümə qalib gələ bilim". Onun daxilində iki səs bir-biriylə döyüşür, mübahisə edir, mübarizə aparırdı.

Gəzinti zamanı, ya hər hansı bir işlə məşğul olan zaman beynində yeni ideya doğulanda, o, özü-özünü unudurdu. O, ənənələrə inanmaqdan imtina edir, ancaq özünün hiss etdiklərinə inanırdı. Amma bu, boş bir şöhrətpərəstlik deyildi, o yeni zamanın və yeni incəsənətin carçısıydı. Özüylə fəxr etmirdi, daim yeniliklər axtarır, yorulmadan keçmiş şedevrləri – Baxın, Hendelin, Qlyukun, Motsartın əsərlərini öyrənirdi. Otağının divarlarını onların portretləri bəzəyirdi. Bethoven deyirdi ki, onlar əzabları dəf etməkdə köməyinə gəlir... O, dönə-dönə Sofoklun və Evripidin, öz müasirləri Şiller və Hötenin əsərlərini oxuyurdu. Böyük həqiqətləri dərk etmək üçün yuxusuz gecələr keçirirdi! Ölümü ərəfəsində deyirdi: "Mən artıq dərk etməyə başlayıram".

1822-24-cü illər onun üçün ağır keçirdi. Yorulmadan "Doqquzuncu simfoniya" üzərində işləyir, amma yoxsulluq və aclıq onu işi keçən şəxslərə yalvarıcı məktublar yazmağa məcbur edirdi. Məktublarsa cavabsiz qalırdı. Hətta "Doqquzuncu simfoniya"nın böyük uğuruna baxmayaraq, konsertdən gələn qonorar çox cüzi idi. Ələcsiz qalan bəstəkar Londona məktub yazıb kömək istəyir. Tezliklə Bethovenin sənətinə rəğbət bəsləyən bir cəmiyyətdən onun hesabına 100 min funt sterlinq daxil olur. "Bu, ürəkparçalayan mənzərə idi, - dostlarından biri xatırlayırdı, - məktubu alan Lüdviq titrəyən əlləriylə üzünü tutub sevincindən və minnətdarlıq hissindən hönkür-hönkür ağlayırdı... O, dönə-dönə təşəkkür məktubu yazmaq istəyirdi... "

1826-cı ilin dekabrında Bonna səfər edir. Bu səfər onun üçün faciəli bitir. Qaraciyər xəstəliyindən əziyyət çəkən bəstəkarın halı pisləşir. Üç ay əzab-əziyyət çəkir, buna baxmayaraq yazacağı yeni əsərlər barədə yorulmadan danışır: "Mən yeni əsərlər yazmaq istəyirəm. Onuncu simfoniyanı ərsəyə gətirmək, "Faust"a musiqi yazmaq istəyirəm". Son ana qədər zarafatından qalmırdı: "Doktor, xahiş edirəm, qapını möhkəm kilidləyin ki, ölüm girə bilməsin". Hətta özündə güc tapıb onun əzablarına baxıb hönkürən köhnə dostu bəstəkar Hummelə də təsəlli verirdi..."

26 mart 1827-ci ildə Lüdviq Bethovenin yazı masasının üstündəki saatı qəfil dayandı. Bu, yaxınlaşan tufandan xəbər verirdi. Saat 5-də leysan yağdı, bu, bəlkə də Bethovenin bir vaxtlar bəstələdiyi "Göz yaşlarının melodiyası" idi və indi, böyük bəstəkarın ölümünə ağlayırdı...

Bethoveni son mənzilə yola salmağa 20 min adam gəlmişdi. İnsanlar onun dəyərini indi daha çox anlayırdılar. Onların qəlbi kədər, eyni zamanda sevgiylə dolu idi:

"Maestro, sizə sonsuz dərəcədə minnətdarıq, ən ümidsiz vaxtınızda qazandığınız qələbələrlə bizə nümunə oldunuz. Bizə sübut etdiniz ki, insan tənha deyil, çünki o, ən çətin maneələri dəf etməyə qadirdir... Biz artıq anlayırıq ki, ürəyində səsini eşitmək və onun arxasınca getmək olar..."

**Günel NATİQ**

# Oxucu ilə söhbət

## Ernest HEMİNQUEY

- Cənab Heminquey, ölkənizdə yaxşı yazıçılar olubmu?

- Olub. Henri Ceyms, Stiven Kreyn və Mark Tven. Mən onların adını sıra nömrəsiylə çəkmədim. Yaxşı yazıçıların sıra nömrəsi olmur.

- Mark Tven yumoristdir. Qalan o iki nəfəri isə tanımıram.

- Bütün Amerika ədəbiyyatı Mark Tvenin bircə kitabından -"Heklberri Finn" povestindən çıxıb. Əgər bu kitabı oxumaq istəsəniz, orda zənci Cimin oğurlanması səhnəsinə diqqət verin. Bax, əsl sonluq belə olmalıdı. Yerdə qalanı isə uydurmadı. Lakin bizim bundan yaxşı kitabımız olmayıb.

- İndi də?

- Bəli.

- Bayaq siz Stiven Kreynin adını çəkdiniz...

- Kreynin iki əla hekayəsi var: "Qayıq", bir də "Mavi hotel". "Mavi hotel" daha yaxşıdır.

- Bəs, cənab Kreynin özü haradadır?

- Ölüb.

- Ölüb?

- Burda təəccüblü nə var ki?. O, anadan olan gündən ölməklə məşğul idi. Axırda öz arzusuna çatdı.

- Bəs, o biri iki nəfər?

- Onlar çox yaşadılar. Lakin, təəssüf ki, yaşları artsa da, müdriklikləri artmadı. Bu da təəccüblü deyil. Çünki Amerikada, bir Allah bilir, yazıçıların başına nə oyunlar açırlar.

- Başa düşmədim?!

- Onu demək istəyirəm ki, bizdə yazıçıları məhv edirlər. Bunun da müxtəlif yolları və üsulları var. Birincisi də maddi məsələdir. Bizdə yazıçılar azacıq tanınan kimi var-dövlət yığmağa girişirlər. Yazıçı isə yalnız risqə getməklə pul yığa bilər.

- Siz risq deyəndə nəyi nəzərdə tutursuz?

- İstedadı hərraca qoymağı!

- Bu necə olur?

- Çox asan. Yazıçı müəyyən mücərrəd arzu, istək naminə yox, varlanmaq xatirinə yazır. Varlanır, firavan, gen-bol yaşamağa öyrəşir və bununla da tələyə düşür. İndi o daima yazmağa məcburdur ki, firavan həyatdan məhrum olmasın. Çünki o, belə bir həyata öyrəşib və güzəranını başqa cür təsəvvür etmir. Bunun nəticəsidir ki, yazıçı sözü tükənəndə də yazmağa davam edir. Amma nə yazır?

- Nə yazır?

- Makulatura. Onun qələmindən əsər yox, növbəti makulatura qalağı çıxır. Bəzən başqa cür də olur. Yazıçı özü haqqında çıxan tənqidçi fikirlərini, rəylərini oxumağa aludə olur. Özü haqqındakı mədhiyyəni oxuyanda tənqidçinin "mötəbər" fikrinə inanırsa, sonralar tənqidçi onu top atəşinə tutanda da ona inanır. Bunun axırı onunla qurtarır ki, yazıçı özünə olan inamı itirir. Bizim iki yaxşı yazıçımız var. Amma indi heç nə yaza bilmirlər. Çünki o qədər tənqidi məqalə oxuyublar ki, öz güclərinə inamlarını itiriblər. Onlar yazmağa belə qorxurlar. Onlara elə gəlir ki, mütləq şedevr yaratmalıdırlar, çünki tənqidçilərin "mötəbər" fikrinə görə, guya əvvəllər onların qələmindən məhz bu cür şedevrlər çıxırdı. Əlbəttə, bunlar şedevr-zad deyildi, babat əsərlər idi. Əgər onlar yazmağa davam etsəydilər, hərdən bu cür babat, hətta yaxşı əsərlər də yaza bilərdilər. Amma indi yazmaqdan qorxurlar.

- Onların adı nədir?

- Onların adı sizə heç nə deməyəcək. Ola bilsin ki, son vaxtlar onlar nəsə yeni bir şey yazıblar. Amma çap elətdirməyə qorxurlar. İndi evlərində oturub qısırlıqlarından əzab çəkirlər.

- Siz Amerika yazıçılarının ümumi taleyindən danışırdınız...

- Mən keçmiş dövrlər barədə heç nə deyə bilmərəm, çünki o vaxtlar hələ anadan olmamışdım. Amma bizim günlərdə yazıçılar qəribə oyunlardan çıxırlar. Müəyyən yaşda kişi yazıçılar dönüb olurlar deyingən qarı. Qadın yazıçılar isə heç bir əsasları olmaya-olmaya, özlərini Janna Dark zənn edirlər. Və bu yazıçıların hər iki cinsi xalqın mənəvi atası, lideri iddiasına düşür. Özü də dəxli yoxdu, onların arxasınca gələn var, ya yox; onları sayan var, ya yox. Əgər yoxdursa, özlərinə pərəstişkar, mürid uydururlar. İşdir, əgər onun özünə mürid uydurduğu şəxs etiraz edib desə ki, mən sənin pərəstişkarın deyiləm, nahaq məni özünə mürid uydurmusan, xeyri olmayacaq, yazıçı həmin şəxsi xəyanətdə təqsirləndirəcək.

- Bəs siz?

- Mənim başqa əyləncələrim çoxdur. Mən həyatımdan hədsiz razıyam. Lakin mütləq yazmalıyam, çünki gün ərzində filan qədər yazmasam, həyatımın qalan əyləncələri mənim üçün öz marağını büsbütün itirmiş olar.

- Siz həyatdan nə istədiyinizi bilirsiniz?

- Dəqiq bilirəm və istədiyimi də əldə edə bilirəm.

- Məsələn, nə əldə eləyirsiniz?

- İstədiyimi!

- İstədiyiniz nədir?

- Müxtəlif şeylər.

- Bunun üçün, yəqin ki, xeyli vəsait tələb olunur?

- Mən lazım olduğu qədər qazana bilirəm. Bir də ki, mən bəxtli adamam.

- Deməli, siz xoşbəxtsiniz?

- Bəli, xoşbəxtəm. Başqaları haqqında düşünmək lazım gəlməyəndə, hədsiz xoşbəxt oluram...

**Hazırladı: NARINGÜL**

# Alber Kamyunun təlimi

## Andreas MUSSENBROK

**"Tanrılar ittihamdan sonra Sizifi böyük qaya parçasını dağın başına qaldırmağa məhkum etdilər; ancaq daş yuxarı qalxdıqda öz ağırlığı ilə aşağı düşürdü. Bu cəzanın mahiyyəti isə odur ki, "faydasız əmək"dən daha ağır cəza yoxdur". Alber Kamyu absurdun düşünəni və yazıçısıdır. Bəs absurd nə deməkdir? Əgər Platondan Hegeləcən bütün Qərb fəlsəfəsinin böyük metafizika fərziyyələrini incələsək, hamısında ortaq bir şey görərik: hamısının məqsədi birliyə vurmaqdır - istər Platonun "yaxşı və pis anlayışı" olsun, istər Meister Ekhartın "ruh qığılcımları" olsun, istər Spinozanın "toz" anlayışı olsun, istərsə də Leibnizin "Monad" anlayışı olsun. Bütün böyük metafizik sistemlər son dərəcə xaotik olaraq qəbul edilən gerçəkliyi ağlın və zehnin köməyi ilə bir nizama və birliyə oturtmağa çalışaraq; sanki gerçəkliyin ziddiyyətli hissələrindən olan insana və onun həyatına bir məna və məqsəd vermək istəyib.**

Nitsşenin ortaya çıxması ilə dünya birliyini və məqsədini itirdi. Onun "Tanrı öldü" ifadəsi, bütün ziddiyyətli tövsiyələrin və qəbulolmaların ortadan qalxdığı yeni bir fəlsəfi dünya qurdu. İnsan o biri tərəf olmadan bu tərəfə yerləşdirildi və bunun nəticəsində həyatının mənasını və dəyərini özü yaratmaq məcburiyyətində qaldı. İnsanlar tanrı olmağa məcbur oldular. Xüsusilə Nitsşenin "Zərdüşt"ü tanrısız insanın tanrılaşmasını ortaya qoydu. Kamyu Nitsşenin tanrı öldü və gerçəkliyi aşan bir anlayış və nizam olmadığı düşüncəsini izlədi, ancaq onun indi artıq insanın tanrı olması nəticəsinə qatılmadı.

Nitsşedən fərqli olaraq Kamyu insanın birlik, nizam və məna ehtiyacının hələ davam etdiyinə inanırdı. İnsan ağlı daima xaotik gerçəkliyə bir məna və nizam vermə səyi içində idi. Ancaq buna nə qədər çalışırsa-çalışsın uğursuzluğa məhkum idi. Bax bu uğursuzluq ən çox incidən nöqtə idi. Bu insan varolmasının ən həyati, ən təməl təcrübəsi idi; bu təcrübə sayəsində insan öz varlığının absurdluğunu dərk edir. Absurd anlayışı Kamyu üçün bir tərəfdən məna və nizam gətirən, birlik hədəfləyən bir ağıl, digər tərəfdən, öz daxilində ağıldan xaric olan gerçəklik arasındakı qırılmanı ifadə edir. Absurd olan dünyada deyil, əksinə ağlın birlik tələbi ilə öz daxilində ağıldan xaric dünya arasındakı ziddiyyətdədir. "Absurd böyük ölçüdə bir yarılmadır. Bu, qarşılaşdırılan ünsürlərin nə birində, nə də o birindədir. O, bu iki ünsürün qarşı-qarşıya gəlməsində ortaya çıxar. Ağıl müstəvisində absurdun nə insanda, nə də dünyada olduğunu söyləyə bilərəm, əksinə o bu ikisinin birlikdə olmasındadır". O halda absurd zehnin xaricində, ya da dünya xaricində deyil, o, bu ikisini bağlayan şeydir. Kamyu bunun sadəcə ağıl xaricində görünən dünyaya rasional düzən gətirməyə çalışan zehnin zəif olmasından bəhrələnməz. Absurd əqli bir yetərsizliyin meyarı deyil, əksinə onun daxilində olan birlik yaratma istəklərindən biridir.

Bəs absurd necə qarşımıza çıxar? "Absurdluq hissi hər küçə başı hər bir insanın qarşısına çıxa bilər". Bu sanki qulağa ölümcül bir təhdid kimi gəlməkdədir, sanki vəhşi bir canavar addım-addım bizi izləməkdədir, hansısa bir zamanda hər şeydən xəbərsiz qurbanının üzərinə atılacaq və onu parçalayacaq. Kamyu bunu açıq bir şəkildə ifadə etmək istəyib: Absurd anlayışında söz mövzusu hadisələrə xaricdən baxan bir düşüncə sahibinin beyin qırışıqlarında yaranan fəlsəfi fərziyyələrin meyvəsi olan qansız bir təcridetmə deyil. Absurd insan olmanın konkret bir böhranıdır. Həyatımızda absurdun qəfilliyinə təslim olmuş vəziyyətdəyik; o bizə varolma müstəvisində hücum edir və varlığımızı ən dərin təməllərdən sarsıdır. Tez, ya da gec bu sual ortaya çıxar: bütün bunlar nə üçündür? "Bəzən dekorasiyalar yıxılır. Yataqdan qalxmaq, nəqliyyatla getmək, bir neçə saat ofisdə, yaxud fabrikdə işləmək, yemək yemək, yatmaq, bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə, şənbə eyni ritm... Bu adətən rahat olan yoldur. Amma günün birində "nə üçün?" sualı ortaya çıxar və daxilinə bir az da təəccüb qarışan bu bezginliklə başlayar hər gün". Boşluq, bezginlik, sıxıntı və bulantı absurdun ortaya çıxardığı bir-birindən şiddətli dörd təməl formasıdır.

Kamyunun absurd anlayışına verdiyi cavab inqilabi idi. Absurda qarşı dayanması ilə insan özünü tapır və bunun nəticəsində azadlığına qovuşur. Onun yolunu artıq nə tale, nə də tanrılar yazar. Sizif öz taleyinin sahibidir. "Sizifin gizli sevinci burdan doğar. Taleyi, qədəri ona aiddir. Daş onun nəsnəsidir. ...Zirvəyə qarşı verilən savaş bir insan qəlbini doldurmaq iqtidarındadır. Sizifi xoşbəxt bir insan kimi qəbul etməliyik".

**Tərcümə edən: Ceylan MUMUOĞLU**



Aydın Yol

N 39(48) 16.10.2015

# Sara Bernar - dünyanın ilk ulduzu

**Bəstəkarın ölümündən sonra musiqisi qalır, şairinsə şeirləri. Rəssam özündən sonrakı nəsillərə öz əsərlərini qoyur, memar tikdiyi binaları. Bəs aktyorlar? Kinonun, televiziyanın olmadığı çağlarda yaşamış aktyorlardan bizə nələr qalıb? Yalnız teatr resenziyaları, müasirlərinin söylədiyi fikirlər, əfsanə və miflər... Sara Bernarın da qismətinə belə bir taleni yaşamaq düşüb.**

Böyük aktrisa 1907-ci ildə "Mənim ikili həyatım" adlı avtobioqrafik kitab yazıb. Ancaq bu kitabda çox faktları, xüsusən də şəxsi həyatına aid bəzi faktları gizlədib. Kitab Sara Bernar fenomeni ilə bağlı müəmmalar ətrafında söz-söhbətlərin artmasına səbəb olub.

Əsl adı Henriett Rozin Bernar olan Sara Bernar 22 oktyabr, 1844-cü ildə Parisdə dünyaya gəlib. Hollandiya yəhudisi olan, yüngül həyat tərzi keçirən anası Yudit Hart musiqiçi idi. Atası mühəndis Eduard Bernar sayılsa da, bəzi araşdırmaçılar hesab edir ki, Sara Fransa dəniz donanmasının zabiti olan Morel adlı şəxsin qızıdır.

Sara Bernar sirlərlə dolu bir həyatı oğluna da yaşadıb. Oğlu Moris də atasının kim olduğunu bilməyib.

Sara monastırda tərbiyə alsa da, nümunəvi şagird olmayıb. Qızcığaz o qədər ərköyün, xudbin, çılğın təbiətli olub ki, tərbiyəçi rahibələr belə, onun "ipinin üstünə odun yığa bilməyiblər". Lakin monastır dövrü bitdikdən sonra Sara qəribə bir boşluğa düşür. Ona elə gəlir ki, onu bir dəryaya atıblar və o, həmin dəryada çapalayır.

Qızın bundan sonrakı taleyini qraf de Morni müəyyənləşdirir. Morni Saranı konservatoriyada oxumağa göndərir. Beləliklə, "Süpürgə" ləqəbli Sara müəyyən çevrədə tanınmağa başlayır. Sonra o, teatrda oynamaq fikrinə düşür.

Lakin müraciət etdiyi "Komedi Fransez" teatrının direktorunun:- "Çox cılızsan, səndən aktrisa çıxmaz!"- deyə, tərəddüd etməsinə baxmayaraq, Saranı truppaya qəbul edirlər və o, 18 yaşında ikən -- 1862-ci ilin sentyabrın 1-də Rasinin "Avlidada İfigeniya" faciəsi ilə debüt edir.

Bernar həmin günü belə xatırlayır: "Səhnədə pərdələr yavaş-yavaş qalxmağa başlayanda elə bilirdim bu dəqiqə özümdən gedəcəyəm". Onun ilk çıxışı haqqında tənqidçilərin fikri belə oldu: "Gənc aktrisanın üzü gözəl olduğu qədər də, ifadəsiz idi..."

Uğursuz debüt Saranı sındırmadı. Onun devizi belə idi: "Nə olur-olsun!". Sara dəmir iradə sahibi idi.

Bundan sonra Sara Bernar "Komedi Fransez" teatrını tərk edir və "Jimnaz", "Port-Sen-Marten", "Odeon" teatrlarının səhnəsində oynamağa başlayır. Çünki məqsədi "Komedi Fransez"ə aktyor sənətinə mükəmməl yiyələnmiş və yetərincə uğur qazanmış bir aktrisa kimi qayıtmaq idi. Sara yeni qəhrəmanları – Andromaxı, Dezdemonanı, Zairi klassik repertuarda çox məharətlə oynayırdı.

Sara Bernarın ən yaxşı rollarından biri – oğul Aleksandr Dümanın "Kameliyalı xanım" əsərində Marqarita Qotye obrazı idi.

Bir dəfə tamaşadan sonra Viktor Hüqo Sara Bernara deyir: "Madam, siz möhtəşəmsiniz! Siz mənim kimi "qoca döyüşçü"nü həyəcanlandırdınız. Mən ağladım. Sinəmdən çıxardığınız göz yaşlarımı sizə hədiyyə edirəm və qarşınızda diz çökürəm".

Sara Bernar ləl-cəvahiratı çox sevirdi. Pərəstişkarları vaxtaşırı ona qiymətli zinət əşyaları hədiyyə edirdilər. O, daş-qaşlarını o qədər sevirdi ki, hətta səfərlərdə, qastrollarda da onlardan ayrılmırdı. Onları qorumaq üçünsə, Bernar üstündə tapança gəzdirirdi: "İnsan elə qəribə varlıqdır ki, bu balaca və mənasız, faydasız əşyalar mənə daha etibarlı qoruyucu kimi gəlir," – deyən aktrisa odlu silahlara qarşı olan marağını belə izah etmişdi.



Sara Bernar həm də kişi rollarını oynamış çox azsaylı aktrisalardan olub. O, Verter, Zanetto, Lorenzaçço, Hamlet kimi kişi rollarını məharətlə ifa edib. Məhz Hamlet rolu ilə Sara Bernar Stanislavskinin qəlbini fəth edib. Napoleon Bonapartın 20 yaşlı bəxtsiz oğlunun obrazını canlandıranda Sara Bernarın 56 yaşı var idi. Edmon Rostanın qəhrəmanlıq dramının möhtəşəm premyerası 1900-cü ilin martında oldu. Saranın oyununa heyran olmuş tamaşaçılar alqışlarla onu düz 30 dəfə səhnəyə qaytardılar.

Stanislavskinin fikrincə, gözəl səsi, səlis diksiyası, plastikası, yüksək bədii zövqü olan Sara Bernar texniki kamilliyin nümunəsi idi. Teatr sənətini yaxşı bilən knyaz Sergey Volkonski Sara Bernarın səhnə ustalığını yüksək qiymətləndirirdi. Müsahibələrinin birində o, Bernar haqqında belə deyib: "O, duyğuların ziddiyyətini – sevinc-kədər, xoşbəxtlik-bədbəxtlik, mehribanlıq və qəzəb kimi insani hisslərin ən incə nüanslarını çox gözəl qavraya bilirdi".

Sara Bernarın Amerikaya və Avropaya qastrol səfərləri haqqında qəzetdə gedən xəbərlər hərbi əməliyyat məlumatlarını xatırladırdı. Hücum və mühasirələr, qalibiyyət və məğlubiyyətlər, sevinc və pərişanlıq...

Sara Bernarın adı dünya gündəmində iqtisadi və siyasi böhran xəbərlərini ikinci plana keçirmişdi. Aktrisa haqqında xəbərlər qəzetlərin manşetlərindən düşmürdü. Səfərləri zamanı onu daim reportyorlar dəstəsi müşayiət edirdi.

Lakin ictimai və dini təşkilatların Bernara münasibəti birmənalı deyildi. Şəninə tərif yağdıranlar da vardı, onu qamçılayanlar da. Amerikada bir çoxları onun səfərlərini milli adətləri alt-üst edən "zəhərli ilan"ın həmləsinə bənzədirdilər.

Artıq bütün Amerika və Avropanı fəth etmiş və düz Moskvaya doğru hərəkət edən "yeni - ətəkli Napoleonu" Rusiyada maraqla gözləyirdilər. "Moskovskiye vedomosti" qəzeti yazırdı: "Bütün dünya bu əfsanəvi şahzadəni elə bir yüksəkliyə qaldırdı ki, bu zirvə heç Mikelancelonun, Bethovenin yuxusuna da girməzdi..." Əslində, burada təəcüblü heç nə yox idi. Sara Bernar, həqiqətən də, mahiyyətcə dünyanın ilk ulduzu idi.

Sara Bernar Rusiyada üç dəfə – 1881, 1898 və 1908-ci illərdə qastrol səfərlərində olub. Rusiyada onun çox böyük nüfuzu var idi. Hərçənd, Rusiyada onu tənqid edənlər də az deyildi. Onların arasında yazıçı Turgenyev də var idi. Turgenyev 1881-ci ilin dekabrında Polonskiyə yazdığı məktubda aktrisa haqqında fikirlərini bölüşürdü: "Sara Bernara olan bu diqqəti bilmirəm axmaqlıq adlandırım, yoxsa dəlilik. Ancaq bu həyasız, pozğun və özünü reklam edən istedadsız qadına belə münasibət məni əsəbləşdirir. Onun gözəl səsindən başqa, heç nəyi yoxdur. Axı niyə mətbuatda heç kəs həqiqəti söyləmir?.." Böyük yazıçının bu sərt münasibətini necə şərh etmək olar?! Bəlkə də bu, onun aktrisa Polina Viardoya olan vurğunluğundan irəli gəlirdi.

Lakin İvan Sergeyeviçin Bernarı belə xarakterizə etməsi aktrisanın şöhrəti üzərinə kölgə sala bilmədi. Çünki Sara Bernar əsl sənətkar idi. Ancaq səhnə və səhnə həyatı mahiyyətcə fərqli anlayışlardır. Sergey Volkonski hesab edirdi ki, Sara Bernar teatrdan kənarda ədabaz, əzilən-büzülən və təpədən-dırnağa süni bir insandır: "Bir az öndən, bir az arxadan bir çəngə kürən saçlar, süni boyalı qıpqırmızı dodaqlar, kirşanlı sifət, bir sözlə, onda təbiilikdən əsər-əlamət yoxdur, sanki üzünə maska taxılmış bir qadındır. Bununla yanaşı Saranın qeyri-adi gözəl, elastik bədən quruluşu, qədd-qaməti və heç kimə bənzəməyən geyim tərzi var. Bu, Saranın özü idi. O, rolunu yox, özünü, öz siluetini, öz tipini yaradırdı..."

Sara Bernar əsl superulduz idi, o, artıq reklam ulduzuna çevrilmişdi – ətirlər, sabunlar, əlcəklər, "Sara Bernar" kirşanı.

Onun iki həyat yoldaşı olmuşdu. Birinci əri qədim fransız kral şahzadəsinin nəslindən idi. İkincisi isə, çox yaraşıqlı yunan aktyoru idi. Ancaq Sara Bernar hər şeydən və hamıdan əvvəl, teatra bağlı idi. O, teatrla yaşayır, teatrla nəfəs alırdı. O, dünyadakı güc sahiblərinin əlində əşyaya çevrilmək istəmirdi. Aktrisa bəzən nəqqaşlıqla, heykəltəraşlıqla məşğul olur, bəzən də roman, yumoristik pyeslər yazırdı.

Sara Bernar hava balonunda səmaya qalxacaq qədər cəsarətli idi. Orada – 2300 metr yüksəklikdə dəliqanlı pərəstişkarlarla çılğın macəraları dolu gəzintiləri dillərə dastan olmuşdu...

Çox vaxt Sara Bernarı Janna Darkla müqayisə edirdilər. Onu cadugər hesab edənlər də az deyildi. Bununla belə onun bu "istedad"ından bir çox yazıçılar, o cümlədən Emil Zolya da yararlanmışdı.

Saranın mənzili çox dağınıq və düzənsiz olurdu. Zövqsüz döşənmiş xalçalar, yerlə bir olan yataq örtükləri, şallar... Evdə heyvanlar – itlər, meymunlar, hətta ilanlar əl-ayağa dolaşırdı. Aktrisanın mənzilində hətta skeletlər də var idi. Çünki elə rollar vardı ki, Sara onları yaratmaq üçün uzun müddət araşdırma aparır, müəyyən yerlərə gedirdi. Hətta kəfənə bürünüb qəbirə də girirdi.

O, qalmaqal salmağı xoşlayır və öz cazibəsini dünyaya göstərməkdən zövq alırdı. Özü haqqında belə yazırdı: "Kimsə mənə baş çəkməyə gələndə, çox xoşuma gəlir, ancaq qonaq getməklə heç aram yoxdur. Məktub almaqdan, oxumaqdan, onları şərh etməkdən zövq alıram, ancaq cavab yazmaq mənlik deyil. Tünlükdə gəzməyi xoşlamıram, kimsəsiz xiyabanlarda, boş küçələrdə gəzməkdən yorulmuram. Məsləhət verməyi çox xoşlayıram, ancaq kimsə mənə məsləhət verəndə heç xoşum gəlmir".

Fransız yazıçısı Jül Renarın da Sara Bernar haqqında dedikləri maraqlıdır: "Sara üçün dəyişməyən bir qayda var idi: Yalnız bu günlə yaşamaq! İstəyir, lap sabah ölüm olsun, dəxli yoxdur, o, sabahı düşünmürdü, hər anın qədrini bilirdi... O, hər günü son gün kimi yaşayırdı, həyatı sanki gözünə təpirdi. Sara necə də acgöz idi!.. Heç gözü doymurdu".

Sara Bernar 1923-cü il, martın 26-da 79 yaşında vəfat etdi. Demək olar ki, bütün Paris "Teatr şahzadə"sinin dəfninə gəlmişdi. Pərəstişkarları tabutu Malzerb bulvarından Per-Laşez qəbiristanlığına qədər müşayiət etdi. Sara Bernarın tabutu ən sevdiyi kameliya güllərinə qərq olunmuşdu. Rusiyanın ən məşhur tənqidçilərindən biri Aleksandr Kuqel nekroloqda yazmışdı: "Əfsanəvi şöhrət sahibi olan aktrisa Sara Bernar vəfat etdi. Sara Bernar haqqında mülahizələrdə, bu və ya başqa məsələlərdə yersiz şişirtmələr çox olub. Minlərlə teatr yuxuları arasından az və ya çox dərəcədə məni valeh edən yuxu, Sara Bernar yuxusudur. Bu, ən orijinal və ən qəribə bir yuxudur".

**NARINGÜL**